# MUMEYYİLƏR



Yoxladılar və məsləhət gördülər:

- Qamət Süleymanov
- İsmail Abu Xalid
- Said İsrafilov
- Osman Saləfi

Hazırladı:

Ramin Mütəllim

Hazırladı:

Ramin Mütallim

Yoxladılar və məsləhət gördülər:

Qamət Süleymanov

Said İsrafilov

İsmail Abu Xalid

Osman Sələfi

SunnaPortal.com saytından tərcümə olundu

1437 hicri / 2016 miladi ili

Mündəricat

**1-ci fəsil; Mumeyyilər kimlərdir və ya ixvanlığın yeni siması** ........................... 4

Giriş ........ 4

Sələfi libasına girmiş mumeyyilər ........ 6

“Sərhədlərin silinməsi” ideologiyasının təkamül tarixi ........ 10

**2-ci fəsil; “Sərhədlərin silinməsi” prinsipinin banisi olan ideoloqların ikinci fitnə dalğası** ........ 21

**3-cü fəsil; Hələbiçilik** ........ 41

Hələbiçilik termininin meydana gəlməsi ........ 43

Hələbidən çəkindirən bəzi alimlər ........ 45

Hələbiçiliyin qaydaları və prinsipləri ........ 47

“Geniş mənhəcə” çağırış (dəvət) və *“Biz (şəxsləri) düzəltməli, lakin onları cərh etməməliyik”* qaydası. ........ 50

“Muvəzənət” prinsipinə riayət ........ 50

Bidətçilərin müdafiəsi üçün əqidə və mənhəc arasında fərq qoyulması ........ 53

“*İlzam (məcburiyyət) yoxdur*” qaydası (لا يلزمني) ........ 58

*“Bizdən olmayanlar barədə ixtilafımızı, öz aramızda ixtilafa çevirməyək”* qaydası ........ 67

Təfsilatlı, əsaslandırılmış cərhin qəbul edilməsinin vacibliyinin inkar edilməsi ........ 70

“*Etibarlı insanların gətirdikləri xəbərləri qəbul etmək vacibdir*” qaydasının bidətçilərin müdafiəsi üçün təhrifi ........ 72

Nəticə........ 80

# 1-ci fəsil

# Mumeyyilər kimlərdir və ya ixvanlığın yeni siması

بسم الله الرحمن الرحيم

**Mərhəmətli və Rəhimli Allahın adı ilə**

## Giriş

Bir müddət əvvəl dərc olunmuş **“Sururilər** və **Qutbçular”**, yaxud “Sələfilik cildinə girmiş **İxvanlar”**[1] adlı məqaləmizdə biz “Müsəlman qardaşlar” partiyasının tərəfdarları simasında əksər müasir xəvariclərin müəyyən səbəblərdən özlərini İslamın əsl davamçıları – sələfilər (Əhli-Sünnə) kimi qələmə vermələrini müzakirə etdik. Biz əmin olduq ki, bu insanlar bütün müasir xəvariclərin ideoloji atası sayılan Seyyid Qutbun dirçəltdiyi və təfsilatı ilə şərh etdiyi əsas xəvaric fikirlərindən üz döndərməyiblər.

Özlərini sələfi kimi qələmə vermələrinə və bir çox əqidə və fiqh məsələlərində sələfiliyə sadiqliklərini nümayiş etdirmələrinə baxmayaraq, onlar əksər müsəlman rəhbərlərin küfürdə ittiham edilməsi (təkfir), onlara qarşı çıxmağın (xurucun) icazəli olması müsəlmanlar və müsəlman ölkələrinə münasibətdə terrorçuluğa və qan tökülməsinə çağırışdan başqa bir şey olmayan yalançı cihada çağırış kimi müasir xəvariclərin əsas prinsiplərinə sadiq qalıblar[2].

Beləliklə, bütün dünya müsəlmanları arasında sələfiliyin sürətlə və hərtərəfli şəkildə yayılmasını fürsət bilən əksər ixvanlar sələfilik libası geyərək müsəlman rəhbərlər əleyhinə

---

[1] Əgər oxucu “ixvançılıq”, “qutbçuluq” və “sürurilik” kimi anlayışlarla yaxşı tanış deyilsə, ona “Sururilər və Qutbçular”, yaxud “Sələfilik cildinə girmiş İxvanlar” məqaləsini və ya bu anlayışlarla yaxşı tanış ola biləcəyi digər məqalələri oxumağı israrla tövsiyyə edirik. Əks halda, oxucu bu məqaləni anlamaqda bəzi çətinliklərlə üzləşəcək.

[2] Xəvaric Əl-Qaidə təşkilatının liderlərindən biri olan Əbu Qatədə əl-Filistini uşaqları və qadınları qətlə yetirmiş Əlcəzairli xəvariclərə haqq qazandıraraq demişdir: *“Beləliklə, aydın olur ki, silahlı islam təşkilatlarının kafirləri qorxutmaq, məhbuslara və qardaşlara təzyiqi azaltmaları üçün onların uşaqlarını, qadınlarını qətlə yetirməsi faktı heç bir şübhə doğurmayan qanuni bir əməldir”* (Təhlis əl-ibaad min vəhşiyəti Əbi Qatədə əd-dəiy ilə qətli ən-nisvən və fələzətil əkbəd s. 263).

xəvaricsayağı çağırışlarını indi artıq “sələfiliyin” davamçıları kimi həyata keçirməyə başladılar. Lakin, özlərini nə qədər pərdələməyə çalışsalar da, ideoloji liderləri olan Seyyid Qutbu həddən artıq mədh etmələri və ona qarşı duyduqları ifrat sevgi onların hamısının ifşa olunması ilə nəticələndi. Onların böyük əksəriyyəti Seyyid Qutbu görkəmli alim hesab edir və onun islam əqidəsi ilə əlaqəli bir çox əsas məsələlərə dair bidətçi fikirlərinə göz yumurlar.

Lakin, maskalanmış ixvanlar onların sələfi dəvəti və bütövlükdə müsəlmanlara münasibətdə fitnə-fəsadlarını və bəd niyyətlərini ifşa etmiş sələfi alimlərini aldatmağa nail olmadılar. İlk öncə müxtəlif təriqətlərin öyrənilməsi və təkzib (rədd) edilməsi üzrə mütəxəssis sələfi alimləri, daha sonra isə bütün nüfuzlu sələfi alimləri yekdilliklə sələfi libasına girmiş məşhur xəvariciləri ifşa etməyə və onlardan çəkindirməyə başladılar. Səudiyyə Ərəbistanı daxilində fəaliyyət göstərən Salman əl-Övdə, Səfər əl-Həvali və Muhamməd Sürur kimi məşhur qutbçular və sürurilər eləcə də onların bir çox ardıcılları böyük sələfi alimləri, həmçinin Səudiyyə Ərəbistanının keçmiş müftisi, Böyük Alimlər Şurası və Daimi Komitənin sədri İbn Bəz (Allah ona rəhmət etsin) tərəfindən ictimai şəkildə ifşa edildi. Nəticə etibarilə, onların əksəriyyəti ya həbs edildilər, ya da təbliğat fəaliyyəti ilə məşğul olmaları qadağan edildi. Bununla yanaşı, onların yeni ideoloji lideri Muhamməd Sürur qaçaraq Böyük Britaniyada sığınacaq tapmağa nail oldu və orada “Əs-Sünnə” adlı yeni jurnalını nəşr etməklə öz xəvaric fikirlərini yaymağa davam etdi.

Beləliklə, ixvan-qutbçuların səbəb olduğu təhlükəni və onların maskalanmaq və özlərini sələfi kimi qələmə vermək bacarığını dərk edən sələfi alimlər, həmçinin bütün dünyada təbliğat fəaliyyəti ilə məşğul olan sələfi dəvətçilər öz təbliğatlarında Əhli-Sünnənin bəzi əsas mənhəc və əqidə məsələlərinin şərh olunmasına xüsusi əhəmiyyət verməyə başladılar. Bu məsələlərin şərhi ixvan-qutbçuların xəvaric dəvətinin təkzib edilməsindən ibarət idi. Müsəlmanları xəvariclərin şərli ideologiyasından qorumaq üçün sələfi alimləri və elm tələbələri diqqəti müsəlmanın əsassız şəkildə küfrdə ittiham olunmasının (təkfir) yolverilməzliyi, müsəlman rəhbərə tabe olmağın vacibliyi və onlara qarşı istənilən

yollarla çıxmağın qadağan olunması (sözlər və əməllərlə xuruc), həmçinin islamda həqiqi cihadın şərtləri və qaydaları və s. kimi mövzulara yönəltməyə başladılar.

Beləliklə, Allahın lütfü sayəsində bir çox sıravi müsəlmanlar özlərini sələfi kimi qələmə verən ixvan-qutbçuların əsas zəlalətləri və xüsusiyyətləri ilə tanış oldular. Odur ki, Nəbil əl-Avadi, Muhamməd əl-Arifi, Əbdüləziz Turayfi, Muhamməd Həssən, Yasir Burhami və bir çox digərləri kimi yeni nəsil təbliğatçı-qutbçular peyda olduqda, sıravi sələfilər Muhamməd Sürur, Salman əl-Övdə və Səfər əl-Həvalinin başçılığı altında törədilmiş birinci fitnə zamanı olduğu kimi çox çaş-baş qalmadılar. Çünki, əksər sələfilər artıq sürurilərin xüsusiyyətləri ilə tanış idilər və bu təriqətin yeni təmsilçilərini asanlıqla tanıdılar. Belə görünürdü ki, ixvanlıq daha heç vaxt sələfilərin sıralarına nüfuz edə və sələfi dəvətinə zərər vura bilməyəcək. Ta ki, yeni fəsadçı liderlər yeni fitnə törədənə qədər…

## Sələfi libasına girmiş mumeyyilər

Ərəb dilində məyyə'ə feli (مَيَّعَ) və ya onun feli ismi (məsdəri) olan təmyi' (تَمْيِيعٌ) kəlməsi "həll etmək", "əritmək", "mayeyə çevirmək" kimi tərcümə olunur. Beləliklə, mumeyyi (المُمَيِّعُ) – hər hansı bir bərk materialı əridib mayeyə çevirən şəxsdir. İmam Buxarinin "Səhih" toplusunda rəvayət etdiyi hədisdə Peyğəmbər (Allahın ona salavat və salamı olsun) buyurur: "***Mədinə əhli əleyhinə fitnə-fəsad törədənlər ( انماع ) əriyəcək** (yəni, **"məhv olacaq"** – müəllifin qeydi)**, duzun suda ( ينماع ) əridiyi kimi"***.

Terminologiya baxımından təmyi', şeyx Xalid Raddadinin (Allah onu qorusun) dediyi kimidir:

> *"Həvasının və bidətlərin ardınca gedənlərə münasibətdə, onların bidətləri barəsində susmaq, onlardan çəkindirməkdən imtina etmək, onlar qarşısında yaltaqlanmaq, həmçinin onların səbəb olduğu təhlükə və şərin kiçildilməsi və lazımi qədər qiymətləndirilməməsi şəklində təzahür edən yolverilməz tolerantlıq və həlimlik şəklində Qurana, Sünnəyə və sələflərin mənhəcinə zidd getməkdir"[1].*

---

[1] Doktor Xalid Rəddadinin "Təmyi' və mumeyyi'ə terminləri" adlı məqaləsindən http://www.sahab.net/forums/index.php?showtopic=135315

Digər sözlərlə, mumeyyilər (المميعة) – sərhədlərin silinməsi (təmyi’) ideyasını icazəli görən və təbliğ edən, yəni, Əhli-Sünnə ardıcılları və digər bidətçi firqələrin davamçıları arasındakı sərhədləri "əridən" və silən şəxslərdir. Şeyx Rabi ibn Hədi əl-Mədxali (Allah onu qorusun) mumeyyilərə münasibətdə demişdir:

> *"Bu sözün altında İslamın əsaslarını silən (əridən), yumşaldan, zəiflədən və hətta onlara qarşı müharibə aparan insanlar nəzərdə tutulur"*[1].

Bu termini (və ya bu termindən törəmə bənzər mənalı sözləri) istifadə və ya tətbiq edən görkəmli sələfi alimləri arasında aşağıdakı alimlər olub:

- Şeyx Muhamməd Nasirəddin əl-Albani (Allah ona rəhmət etsin)
- Şeyx Muhamməd Aman əl-Cami (Allah ona rəhmət etsin)
- Şeyx Muqbil ibn Hədi (Allah ona rəhmət etsin)
- Şeyx Əhməd ən-Nəcmi (Allah ona rəhmət etsin)
- Şeyx Saleh əl-Fovzan (Allh onu qorusun)
- Şeyx Əbdül Muhsin əl-Abbad (Allah onu qorusun)
- Şeyx Rabi ibn Hədi əl-Mədxali (Allah onu qorusun)
- Şeyx Ubeyd əl-Cabiri (Allah onu qorusun)[2]

Qeyd etmək lazımdır ki, "sərhədlərin silinməsi" ideyasının müasir banisləri və təbliğatçıları ixvanlardır. Öz seçicilərinin sayını artırmq və müsəlman rəhbərləri devirmək (xuruc) məqsədilə daha çox tərəfdar toplamaq üçün, ixvanlar əqidə məsələlərində zəlalətləri və nöqsanlarından asılı olmayaraq bütün müsəlman firqələrinin birləşməsi ideyasını təbliğ etməyə başladılar. Əqidə məsələlərində ciddi nöqsanlar sadəcə "xətalar" adlandırıldı və belə bir fikir irəli sürüldü ki, "daha mühüm bir məqsəd naminə" – hakimiyyətə gəlmək üçün bu "xətalara" əhəmiyyət verməmək lazımdır. İxvanlar təriqətinin banisi və ideoloji lideri Həsən Bənna bu nəzəriyyəsi üçün "sərhədlərin silinməsi" (təmyi’) ideologiyasının

[1] "Həl əl-Cərh və ət-Tə’dil Xass bi Ruvət əl-Hədis" adlı audioleksiyadan.
[2] Doktor Xalid Rəddadinin "Təmyi’ və mumeyyi’ə terminləri" adlı məqaləsindən http://www.sahab.net/forums/index.php?showtopic=135315

əsasında duran, ixvanların "qızıl qaydasını" müəyyən etdi: *"Ümumi məqsədlərimiz əsasında əməkdaşlıq edək və ixtilaf etdiyimiz məsələlərdə bir-birimizi bağışlayaq".*

Beləliklə, ixvanların nəzəriyyəsinə görə, bidətçi firqələr az qala 4 sünni məzhəbinə bərabərdir və ümumən "doğru (haqq)" yoldadirlar, lakin onlarda da "xəta" ola bilər. Hətta Peyğəmbərin (Allahın ona salavat və salamı olsun) səhabələrini lənətləyən və onlara dil uzadan rafiziləri də bir çox ixvanlar bidətçi firqələr sırasından çıxararaq "doğru (haqq)" yolda olan müsəlmanların sıralarına daxil etdilər.

Tezliklə ixvanların nəzəriyyələrinin təsiri altında özlərini "sələfi" kimi qələmə verən dəvətçilər "sərhədlərin silinməsi" (təmyi') ideyasını bir qədər dəyişdirilmiş formada təbliğ etməyə başladılar.

Qeyd etmək lazımdır ki, ixvanların xələfi olan sururi-qutbçular zor gücü ilə hakimiyyətə gəlmək ideologiyası ilə bərabər, öz tərəfdarlarının sayını artırmaq üçün həm də ixvanlara məxsus "sərhədlərin silinməsi" prinsipinin tərəfdarı idilər. Lakin, burada söhbət açıq şəkildə xəvaric-sururi əqidəsinə çağırmayan, hətta müəyyən mənada onları pisləyən təbliğatçılardan gedir. Buna baxmayaraq, bu şəxslər doğru yoldan azmış müxtəlif sururiləri, qutbçuları və digər bidətçiləri "xətaya yol vermiş sələfilər" adlandıraraq müdafiə və tövsiyyə edirlər. Bu başabəla təbliğatçılar sələfilər və bidətçilər arasında sərhədləri aradan qaldırmaq və müxtəlif azmış şəxslərin əqidə məsələlərində zəlalətlərini sadəcə "sələfilikdən çıxarmayan xətalar" adlandırmaqla onları sələfilərin sıralarına daxil etmək üçün müxtəlif qaydalar və prinsiplər uydurmağa başladılar.

Beləliklə, öz gizliliyi və müəyyən mənada sələfiliyə bənzəməsi səbəbi ilə sələfi dəvətinə münasibətdə törədilmiş yeni fitnə, sururilərin fitnəsindən daha təhlükəli oldu. Əgər Salman və Səfərlə əlaqəli hadisələrdən sonra sururiləri xüsusiyyətlərinə əsasən asanlıqla tanımaq mümkün idisə, mumeyyilərin sələfi dəvətinin əleyhinə törətdiyi fitnələri müəyyən etmək daha da mürəkkəbləşdi. Axı bəzi mumeyyilər ilk baxışdan sələfiliyə çağıran və dində müxtəlif bidətləri, həmçinin sururi və qutbçu görüşlərini pisləyən zahiri "sələfilərdir". Onların sələfilərdən yeganə və ən əsas fərqi odur ki, onlar müxtəlif

bəhanələrlə və uydurulmuş saxta (əsassız) qaydalarla sələfilikdən azmış şəxslərdən çəkindirmək istəmir və onları tövsiyyə etməyə davam edirlər. Beləliklə, mumeyyilər sələfilər arasında müxtəlif bidətçi görüşləri dolayı yolla yayan şəxslərdir. Yəni, mumeyyilər özləri sələfilər arasında ictimai olaraq müxtəlif bidətləri yaymaya da bilərlər, lakin, onlar müxtəlif təhlükəli zəlalətləri təbliğ edən şəxsləri sələfilərə tövsiyyə edir və nəticə etibarilə onları və bütövlükdə müsəlmanları doğru yoldan azdırırlar.

Şeyx Rabi ibn Hədi əl-Mədxali (Allah onu qorusun) "sərhədlərin silinməsi" (təmyi') ideyasının liderlərindən biri olan Əbul-Həsən əl-Məribiyə[1] münasibətdə aşağıdakıları demişdir:

*"Onun fitnəsi insanar üçün daha çox dolaşıq oldu. Məhz bu səbəbdən bu fitnə, sələfi mənhəcinin və onun ardıcıllarının rastlaşdığı ən təhlükəli fitnəyə çevrildi. Çünki, bu fitnənin ideoloqları böyük fəsadlar törədərək özlərini sələfi mənhəcinin nümayəndələri olduğunu nümayiş etdirmək üçün əllərindən gələni etdilər"[2].*

Həmçinin, şeyx Muhamməd ibn Hədi dən (Allah onu qorusun) sələfilər və hizbçilər arasında dolaşaraq onlar arasındakı sərhədləri silənlər barədə soruşdular:

Sual verən:

*Əgər hər hansı sələfi ixvanla qarışır və onunla dostluq edirsə, yuxarıda deyilənlər ona da şamil olunur?*

Şeyx Muhamməd ibn Hədi :

*Bəli. O özü də qarışdığı və dostluq etdiyi şəxs kimi olur.*

Sual verən:

*Şeyx, bütün bunlarda "fayda və zərər" nəzərə alınır?*

Şeyx Muhamməd ibn Hədi :

*"Əgər sənin dediyin məsələlərdə bu cür hərəkət edilməsə, Əhli-Sünnə sadəcə bidətçilərin haqqında danışdığı faydadan daha çox, zərərə uğrayacaq. Əhli-Sünnə*

[1] Məribinin fitnəsi haqqında təfsilatlı bundan sonraki məqalədə geniş məlumat veriləcək
[2] Məcmu Kutub və Rəsail və Fətəva əş-Şeyx Rabi ibn Hədi əl-Mədxali, 13/280

*hesab edir ki, bu cür insanlardan gələn ziyan, (açıq-aşkar) hizbçilərdən gələn ziyandan daha pisdir. Çünki, hizbçilər özlərini açıq-aydın büruzə verirlər və onların təhlükəsindən qorunmaq, sələfi və hizbilər arasında olan (və ya dolaşan) bu şəxslərin zəlalətlərindən qorunmaqdan daha asandır… Onlar həm onlarla, həm də bunlarla (həm sələfilərlə, həm də hizbçilərlə) dostluq etməyə çalışırlar. Lakin, nəticədə onlar sələfiləri* korlayır, *bununla* yanaşı *hizbçiləri islah etmirlər. Odur ki, (açıq-aydın) hizbçilərdən daha çox, belələrindən çəkinmək vacibdir."*[1]

**Beləliklə, sələfi donuna girmiş mumeyyilər əslində iki əsas səbəbə görə yeni simalı ixvanlardır:**

- **Birincisi,** ixvanlar kimi, onlar da öz azğın qaydaları əsasında əslində haqq yolda olmayanları haqq yolla gedənlərin sıralarına daxil edirlər:
- **İkincisi**, öz azğın qaydalarını tətbiq etməklə, onlar əsasən məhz müsəlman rəhbərlərin devrilməsinə (xuruc) çağıran və bunu icazəli görən müxtəlif ixvan-qutbçuları tövsiyyə edirlər.

## "Sərhədlərin silinməsi" ideologiyasının təkamül tarixi

Bu fitnə toxumlarını sələfilərin sıralarına ilk səpən Adnan Arur adlı şəxs olmuşdur. Bir müddət şeyx Muhamməd Nasirəddin əl-Albaninin (Allah ona rəhmət etsin) dərslərinə qatılan bu şəxs özünü sələfi kimi qələmə verərək dəvətlə məşğul olmağa başladı. O, xüsusilə Avropada fəal dəvət aparırdı. Məhz burada o, ixvançılığı yeni simada yaymağa başladı. Fransa, Hollandiya və Böyük Britaniyada keçirilən müxtəlif dini seminarlarda o, haqq yoldan azmış müxtəlif şəxsiyyətləri, o cümlədən müasir təkfirçilərin ideoloji atası sayılan Seyyid Qutbu müdafiə etmək üçün özünə məxsus yeni ixvan qaydalarını yaymağa başladı. Bu qaydalardan:

❞ *"Biz (şəxsləri) düzəltməli, lakin, onları cərh[2] etməməliyik"* (نصحح و لا نجرح).

[1] http://sunnaportal.com/?p=4735
[2] Cərh etmək – bir adamı tənqid etmək, onun xətalarını bəyan etmək və ondan çəkindirmək mənalarını verir.

*“(Şəxsləri) mühakimə etmə, yoxsa mühakimə olunacaqsan”* (من حَكَم حُكِمَ عليه).

*“Əgər mühakimə etsən, mühakimə olunacaqsan. Əgər dəvət etsən, əcr qazanacaqsan”* (إذا حاكمت حوكمت وإذا دعوت أجرت).

Əslində, sələfi alimlərinin də qeyd etdiyi kimi, Arurun *“Biz (şəxsləri) düzətlməli, lakin, onları cərh[1] etməməliyik”* qaydası ixvanlar firqəsinin banisi olan Həsən Bənnanın qaydasından başqa bir şey deyildir: *“Ümumi məqsədlərimiz əsasında əməkdaşlıq edək və ixtilaf etdiyimiz məsələlərdə bir-birimizi bağışlayaq”*.

Həmçinin Arur digər bir ixvan prinsipi olan mənhəc əl-muvəzənət (منهج الموازنات) və ya *“yaxşı və pis əməllərin müvazənə (çəkilməsi)”* prinsipinin fəal təbliğçilərindən idi. Bu prinsipə əsasən, əgər sən hər hansı bir bidətçidən çəkindirirsənsə, o zaman “adil” olmaq üçün onun zəlalətləri ilə bərabər yaxşı əməllərini də qeyd etməlisən. Hələ Arurdan öncə ixvanlar müxtəlif azmış insanları, xüsusilə öz əqidələrində böyük zəlalətə malik olan Seyyid Qutbu və Həsən Bənnanı müdafiə etmək üçün bu prinsipi tətbiq etmişdilər. Əhli-Sünnə alimləri mənhəc əl-muvəzənət haqqında öyrəndikdə, onu tənqid etdilər və bu prinsipin bidət olduğunu izah etdilər[1].

Onlar izah etdilər ki, insanın tərcümeyi-halını tərtib etməklə onun özündən çəkindirmək arasında fərq var. Birinci halda, oxucuları və ya dinləyiciləri doğru yoldan azdırmayacaqsa, bidətçilərin bəzi yaxşı əməllərini qeyd etmək icazəlidir. İkinci halda isə (yəni, müsəlmanların hər hansı bir şəxsdən çəkindirilməsi halında) bu insanın yaxşı əməlləri barədə danışmaq qadağandır. Çünki bu, çəkindirməni kəsərdən salacaq və lazımi effekti verməyəcək. Bundan əlavə, xüsusilə əgər dinləyicilər elm tələb etməyən müsəlmanlardırsa, əksinə bidətçi haqqında yaxşı rəyin formalaşmasına səbəb olacaq.

[1] “Müvazənə prinsipinin” ən fəal tənqidçilərindən biri şeyx Muhamməd Nasirəddin əl-Albani (Allah ona rəhmət etsin) idi. Onun bu prinsiplə əlaqəli dediyi sözlərdən bəziləri:
“Bu bidətçi bir yoldur…Allahu Əkbər”
“Bu, insanların tənqid olunmasında təzə peyda olmuş “müvazənə” adlanan bir bidətdir”
Bu gün çoxlarının haqqında danışdığı “müvazənə prinsipinin” uydurma olduğuna şübhə yoxdur”
“Onlar (“müvazənə prinsipinin” müdafiəçiləri) fitnə salmaq və özlərinə sərf edən təfsirə nail olmaq üçün eyhamlı dəlillərin ardınca gedirlər”
“Müvazənə prinsipi” bidətini uyduranlar şübhəsiz ki, Qurana və Sünnəyə zidd gedirlər” (bax. “Siyanətul əs-Sələfi min Vəsvəsəti və Təlbisəti Əli əl-Hələbi”, səh. 149)

Arurun ixvançılığı həmçinin onun müasir xəvariclərin ideoloji atasına – Seyyid Qutba olan hədsiz sevgisində və onun ünvanına ifrat tariflər yağdırmasında açıq-aydın büruzə verir. İlk öncə Allahdan, daha sonra isə sələfilərdən qorxmayan bu şəxs elan edib ki, guya Seyyid Qutb mənhəc mövzusunda danışanların ən yaxşısı olub![1]

Lakin, Uca Allah Adnan Arurun azğın qaydalarını Peyğəmbərin varisləri olan həqiqi Əhli-Sünnə alimləri vasitəsilə ifşa etdi. Bundan əlavə, sələfi alimlər bütün müsəlmanları Adnan Arurun özündən də çəkindirməyə başladılar. Ondan və onun azğın ixvan qaydalarından çəkindirən sələfi alimləri arasında aşağıdakı şeyxlər (və digərləri) var:

- Şeyx Muhammad ibn Salih əl-Useymin (Allah ona rəhmət etsin)
- Şeyx Əhməd ən-Nəcmi (Allah ona rəhmət etsin)
- Şeyx Zeyd əl-Mədxali (Allah ona rəhmət etsin)
- Şeyx Rabi ibn Hədi əl-Mədxali (Allah onu qorusun)
- Şeyx Saleh əl-Fovzan (Allah onu qorusun)
- Şeyx Əbdül Muhsin əl-Abbad (Allah onu qorusun)
- Şeyx Ubeyd əl-Cabiri (Allah onu qorusun)
- Şeyx Muhamməd ibn Hədi (Allah onu qorusun)[2]

Adı çəkilən alimlərin Adnan Arur və onun qaydaları ilə əlaqəli söylədikləri bəzi fikirləri təqdim edirik ki, oxucu bu qaydaların nöqsanlı olduğunu öyrənsin və buna əmin olsun:

## Şeyx İbn Useymin (Allah ona rəhmət etsin):

Avropalı sələfi gənclərin şeyx İbn Useyminlə (Allah ona rəhmət etsin) görüşlərindən birində ondan Adnan Arurun bəzi qaydaları barədə şərhlər verməyi xahiş etdilər:

Sual verən:

*Bidətçilərin düşdüyü bidətlərə münasibətdə "Biz (şəxsləri) düzətlməli, lakin, onları cərh etməməliyik" qaydası şamil olunurmu?*

---

[1] Məcmu Kutub və Rəsail və Fətəva əş-Şeyx Rabi ibn Hədi əl-Mədxali, 11/34

[2] Audioyazının ərəb dilində əsli buradadır: http://subulsalam.com/site/audios/autres/KalamOlama_Fi_AdnaneAr%F4ur.mp3

Şeyx İbn Useymin:

*Bu, yalnış qaydadır. Əksinə, biz, öz təkkəbbürünə görə haqqdan boyun qaçıranları cərh edirik.*

Sual verən:

*İkinci qayda: "Mühakimə etmə, yoxsa mühakimə olunacaqsan".*

Şeyx İbn Useymin:

*Bu qaydalar yaltaq qaydalardır.*

Sual verən:

*Üçüncü qayda: "İnsanın niyyətinin onun əməlləri ilə heç bir əlaqəsi yoxdur".*

Şeyx İbn Useymin:

*Bu yalandır, çünki Peyğəmbər* (Allahın ona salavat və salamı olsun) demişdir: ***"Həqiqətən də əməllər ancaq niyyətlərə görə qiymətləndirilir".***

Sual verən:

*Dördüncü qayda: "Bəzi insanlar şərt qoyurlar ki, cərh yalnız heç bir şübhə olmayan dəlillərə əsaslanmalıdır"* (*qətiyyətu əs-sübut* [mütəvatir nəzərdə tutulur – qeyd.])

Şeyx İbn Useymin:

*Bu doğru deyil.*

Sual verən:

*Beşinci qayda: "Bəzi insanlar şərt qoyurlar ki, əgər sən insanın xətası haqqında eşitsən və ya oxusan, o insandan nəyi nəzərdə tutduğunu dəqiqləşdirmədikcə və ona nəsihət etmədikcə onun halı haqqında hökm verməməlisən. Başqa cür hərəkət edən isə münafiqlərin əlamətlərindən birinə malikdir".*

Şeyx İbn Useymin:

*Bu yalnış fikirdir.*

Sual verən:

*Axırıncı qayda: "Sən bir insandan çəkindirdikdə və ya ona nəsihət etdikdə, ədaləti qorumaq üçün onun xətaları haqqında danışdıqda, onun yaxşı əməllərini də göstərməlisən".*

Şeyx İbn Useymin:

*Sənə deyirəm – yox, yox və bir daha yox! Bu cür şeylər danışmaq xətadır. Qulaq as, ey insan, mən kimdənsə çəkindirdikdə, çəkindirməm kəsərdən düşməsin deyə, mən onun yaxşı əməlləri haqqında danışmamalıyam.*

Sual verən:

*Hətta əgər bu insan Əhli-Sünnədən olsa da?*

Şeyx İbn Useymin:

*Fərqi yoxdur, o Əhli-Sünnədəndir ya yox. Mən necə bir insandan çəkindirə və eyni zamanda onu tərifliyə bilərəm!? Məgər bu məntiqə uyğundur?!*[1]

## Şeyx Saleh əl-Fovzan (Allah onu qorusun):

Şeyx Fovzan:

*«Bəli, eşidirəm.*

Sual verən:

*Biz Avropadan, Hollandiyadan olan sələfilərik. Sizə bəzi suallarımız var.*

Şeyx Fovzan:

*Buyurun.*

Sual verən:

*Bəzi qaydalar var, istəyirik ki, bu qaydaların əhli sünnənin sabit üsul qaydalarına müvafiq olub-olmadığına aydınlıq gətirəsiniz.*

*Birinci qayda: "Düzəldirik, lakin cərh etmirik." Bu qayda haqqında rəyinizi bilmək istəyərdik.*

---

[1] Kutub və Rəsail və Fətəva əş-Şeyx Rabi ibn Hədi əl-Mədxali, 11/114-115

Şeyx Fovzan:

*Bu qaydanın heç bir əsası, əsli yoxdur. Mən deyirəm ki, bunun heç bir əsli yoxdur, batildir. Onları (müxalifləri) cərh etmək lazımdır!*

Sual verən:

*İkinci qayda: "Əgər kimisə mühakimə etsən, özün mühakimə olunacaqsan, əgər kimisə dəvət etsən, əcr qazanarsan."*

*Bu qayda haqqında nə deyə bilərsiniz? Allah sizi bərəkətləndirsin!*

Şeyx Fovzan:

*Bu qaydanın da, heç bir əsli yoxdur, bidətdir. Batil əhlini mühakimə etmək lazımdır.*

Sual verən:

*Üçüncü qayda: "(Müxaliflərin) yaxşı əməllərini də, pis əməllərini də zikr etmək adillikdən və insafdandır." Hədisdə keçən (şeytan yalançıdır, ancaq doğru dedi) sözü ilə bu "müvazənət" qaydasına dəlil gətirirlər.*

*Bu qayda haqqında nə deyə bilərsiniz?*

Şeyx Fovzan:

*Deyirik ki, bu qayda da həmçinin batildir. Deyirəm ki, bu söz də həmçinin batildir! Allah Təala müşriklərin pisliklərini zikr etdi, lakin yaxşı əməllərini zikr etmədi.*

Sual verən:

*Bəs bidət əhli necə?*

Şeyx Fovzan:

*Nə olub bidət əhlinə?*

Sual verən:

*Yəni, onlar deyirlər ki, bidət əhlinin yaxşı və pis əməllərini zikr etmək ədalətdəndir və insafdandır.*

Şeyx Fovzan:

*Hamısı eyni şeydir. Onların pislikləri zikr edildikdə, yaxşılıqları zikr edilmir. Çünki Allah Təala düşmənlərin pisliklərini zikr etdikdə, yaxşılıqlarını zikr etmədi. Bu Adnan Arurun qaydalarıdır?!*

Sual verən:

*Bəli, şeyx. Bu qaydalar onundur.*

Şeyx Fovzan:

*Hə. Bu qaydaların hamısı puç, batil qaydalardır. Ona qarşı rədlər verilib, kitablar yazılıb.*

Sual verən:

*Dördüncü qayda: "Müxalifin xəta etdiyini demək olar, ancaq ona tənə etmək olmaz." Bu qayda doğrudurmu?*

Şeyx Fovzan:

*Bu qayda da "düzəldirik, lakin cərh etmirik" qaydası kimidir. Tamamilə eyni qaydadır.*

Sual verən:

*Şeyx, o deyir ki, nə üçün imam Əhməd namaz qılmayanı təkfir etdikdə qınanmadı, lakin Seyyid Qutubdan bəzi xəta ifadələr çıxdıqda deyirik ki, o, cəmiyyəti təkfir edir. İmam Əhməd xalqın hamısının küfrünə hökm verib, amma o qınanmır.*

Şeyx Fovzan:

*İmam Əhməd alim idi, dəlilləri bilirdi, dəlil gətirmək yollarını bilirdi. Seyyid Qutub isə cahildir, elmi yox idi, heç nə bilmirdi, danışdıqlarına heç bir dəlili yox idi. İmam Əhmədlə Seyyid Qutubu bərabər tutmaq zülmdür.*

Sual verən:

*Həmçinin, deyir ki, "yer üzündə mənhəc məsələlərini Seyyid Qutub kimi danışan birini görməmişəm. Onun yazdıqlarının böyük əksəriyyəti haqq idi." Adnan Arurdan bu söz*

*barədə soruşduqda, cavab verdi ki, mənhəc sözü ilə - yəni, öz zamanında - 1950-ci illərdə verdiyi rədləri qəsd edirdim.*

Şeyx Fovzan:

*Deyirik ki, bu kəs (Arur) bilmir, çünki cahildir. Amma biz isə bilirik ki, Seyyid Qutubdan qabaqkı alimlər də, sonrakı alimlər də Seyyid Qutuba müxalif idilər.*

Sual verən:

*Deyir ki, "Əhli Sünnə vəl-Cəməanın mənhəcinə dəvət etmək adı altında bir sinif kəslər peyda olubdur ki, insanları hər bir xətaya və ya aydın olmayan hər bir sözə görə insanları cərh edir, onlara tənə edirlər."*

Şeyx Fovzan:

*Mən deyirəm ki, bu boş bir sözdür, bununla batili doğru göstərmək, batil əhlini müdafiə etmək istəyirlər!*

Sual verən:

*"Camaatların arasında baş verən ayrılıqların səbəblərinə baxsan, görərsən ki, çoxu əxlaqi səbəblər olub, əqidə və mənhəc səbəbləri deyildir." Bu söz düzdürmü?*

Şeyx Fovzan:

*Əqidə səbəbləridir, əxlaq yox. O bu sözü ilə özünü gizlətmək istəyir.*

Sual verən:

*Şeyx, bu (Adnan Arur) barədə nə deyirsiniz?*

Şeyx Fovzan:

*Deyirəm ki, bu kəs alim deyil. Bu kəs ölkəmizə işləməyə, pul qazanmağa gəlmişdi, sonra da özündə olanları izhar etdi (içindəkiləri üzə çıxardı.)*

Sual verən:

*Sizdən son nəsihət istəyirik. Onun dərslərində iştirak etmək olarmı?*

Şeyx Fovzan:

*Necə?*

Sual verən:

*O, Avropaya gəlir, sələfilərə onun dərsində oturmağı tövsiyə edirsinizmi?*

Şeyx Fovzan:

*Mən sələfilərə ondan qırılmağı, onun və onun kimilərinin dərslərində oturmamağı nəsihət edirəm.*

Sual verən:

*Allah sizi bərəkətləndirsin.*

Şeyx Fovzan:

*Sizi də!*

Sual verən:

*Əssalamu aleykum.*

Şeyx Fovzan:

*Allah sizə uzun ömür versin! Va aleykumussələm!»*[1].

**Şeyx Əbdül Muhsin əl-Abbad (Allah onu qorusun):**

Sual verən:

*«Biz bəzi qaydalar eşitmişik və bu qaydalara dair şübhələrimiz var. Sizə bu qaydaları oxumaq istəyərdik ki, bu qaydaları şərh edəsiniz və onların Əhli-Sünnə ardıcıllarının sabit əsaslarına müvafiq olub-olmadığını bizə izah edəsiniz.*

*Bu qaydalardan biri: "Biz (şəxsləri) düzətlməli, lakin, onları cərh etməməliyik". Digər bir qayda isə belədir: "Əgər sən (şəxslərin halı barədə) mühakimə yürütsən, özün də mühakimə olunacaqsan, lakin, əgər dəvət etsən, əcr qazanacaqsan".*

[1] http://www.sahab.net/forums/index.php?showtopic=118042
https://youtu.be/e-J7PhXZx5o

Şeyx Əbdül Muhsin əl-Abbad:

*Xatırlatdığın bu qaydaların müəllifi kimdir?*

Sual verən:

*Şeyx, bu qaydaların müəllifi Adnan Arur adlı bir şəxsdir.*

Şeyx Əbdül Muhsin əl-Abbad:

*Sizə nəsihətim – onun qaydalarını tərk edin və ondan elm almayın, çünki, onun başı çıxmır və xətaları var. Mən hələ çoxdan onun bəzi sözləri ilə tanış oldum və o sözlərdə elə məqamlar gördüm ki, o haqda danışmaq olmaz. Odur ki, onu dinləməyə son qoymaq və onun sözlərinə fikir verməmək lazımdır. Əksinə, müsəlman, şeyx İbn Bəz, şeyx İbn Useymin, şeyx Saleh əl-Fovzan, şeyx Əbdüləziz Ali Şeyx kimi nüfuzlu alimlərin və mənhəcində şübhə olmayan digər nüfuzlu alimlərin sözlərini və dərslərini dinləməlidir.*

*Adnan Arur qardaşa gəldikdə isə, mən artıq onun bəzi sözləri ilə tanış oldum və gördüm ki, onun başı çıxmır və xətaları var. Odur ki, ona və onun sözlərinə yönəlmək düzgün deyil. Onun haqqında qısa olaraq bunları deyə bilərəm və onun, yaxud digər şəxsin qaydalarını* mənə *xatırlatmağınıza ehtiyac yoxdur.*

Sual verən:

*Biz sizdən son nəsihət eşitmək istəyirik. Onun dərslərinə qatılmağı tövsiyyə edirsinizmi?*

Şeyx Əbdül Muhsin əl-Abbad:

*Allaha and olsun mən hesab edirəm ki, siz onun dərslərinə qatılmamalısınız. Hələ ki, o, bu yoldadır, siz onun dərslərinə qatılmamalısınız»[1].*

Beləliklə, Arurun fitnəsi əksər gənc sələfilər arasında şübhələr və ixtilaflar salmaqla sələfi dəvətinə güclü ziyan vura bildi. Şeyx Rabi ibn Hədi əl-Mədxali (Allah onu qorusun) Aruru təsvir edərkən demişdir:

[1] http://www.albaidha.net/vb4/showthread.php?t=14992

*"Adnan Arur bütün bəlaların bəlası və bütün fitnələrin fitnəsidir. Mən sələfi mənhəci və onun ardıcılları üçün ondan daha zərərli insan görmədim. Bu qədər çalışıb sələfilər arasında qarşılıqlı nifrət və fitnə toxumlarını səpərək aralarında təfriqəyə nail ola biləcək onun kimi ikinci birini tanımıram"*[1].

Yalnız əksər nüfuzlu sələfi alimləri Arurun zəlalətləri barədə xəbər tutduqdan, tədqiq etdikdən və ondan eləcə də onun ideologiyasından çəkindirdikdən sonra Arurun fitnəsi tədricən səngiməyə başladı. Artıq bu gün əksər sələfilər üçün batil haqqdan ayrılıb.

﴿وَقُلْ جَاءَ الْحَقُّ وَزَهَقَ الْبَاطِلُ ۚ إِنَّ الْبَاطِلَ كَانَ زَهُوقًا﴾

**"De: "Haqq gəldi, batil yox oldu. Çünki batil (öz-özlüyündə) yoxluğa (heçliyə) məhkumdur!"** (Müqəddəs Quran, 17:81).

Adnan Arurun başlatdığı fitnə barədə söhbətimizi yekunlaşdırmazdan əvvəl, bu fitnənin yayılmasında müəyyən rol oynamış bir şəxsi də xatırlamaq yerinə düşərdi. Burada söhbət mərakeşli dəvətçi Muhamməd Məğravidən gedir. Adnan Arurun ətrafında fitnə baş qaldırdıqda, Məğravi müdaxilə edərək öz əqidəsindən əl çəkməsi üçün Arura nəsihət etməyə çalışdı. Lakin, dərin və sabit elminin olmaması səbəbi ilə Məğravi Arur tərəfindən aldadıldı və onun tərəfdarlarından və müdafiəçilərindən birinə çevrildi. Sonradan Məğravinin çoxsaylı zəlalətləri, xüsusilə onun günahlar törətmələri səbəbi ilə bütün müsəlman cəmiyyətlərin təkfir edilməsi haqqında fikirləri sələfilərə məlum oldu. Nəticədə, əksər məşhur alimlər, o cümlədən şeyx İbn Useymin (Allah ona rəhmət etsin) ondan çəkindirdilər[2].[3]

[1] http://www.ajurry.com/vb/showthread.php?t=11164g

[2] Şeyx İbn Useyminə Məğravinin bugünkü müsəlman rəhbərlərə beyəti tənqid və inkar etməsi ilə əlaqəli mülahizələrini oxuyaraq şərh verməsini xahiş etdikdə, şeyx aşağıdakıları demişdir: *"Bu insan qiyamçıdır! O, qiyamçıdır! O, gerçəkliyi dərk etmir. O, bilmir ki, Peyğəmbər (Allahın ona salavat və salamı olsun) rəhbərlərə tabe və itaət etməyi əmr edib. Hətta əgər onlar bizə zülm etsələr, belimizə vursalar və mülkiyyətimizi əlimizdən alsalar da. O, Əhməd ibn Hənbəl və digər görkəmli alimlərin bugünkü rəhbərlərdən daha pis, insanları təqib edən, işkəncə verən və zor gücü ilə Quranın məxluq olduğunu deməyə məcbur edən xəlifələrə necə münasibət göstərməsini başa düşməyib və nəticə çıxarmayıb"* (http://www.sahab.net/forums/index.php?showtopic=98671)
Həmçinin şeyx Əhməd ən-Nəcmi (Allah ona rəhmət etsin) demişdir: *"Xülasə edərək, aşağıdakıları deyəcəm: Məğravinin bu vərəqlərə həkk etdiyi fikirlər sürüri, təkfirçi və xəvaric fikirlərindən başqa bir şey deyil"* (http://www.alrbanyon.com/vb/showthread.php?t=14367)
Lakin, bu və bir çox digər görkəmli sələfi alimlərinin bütün bu çəkindirmələrinə baxmayaraq, "sərhədlərin silinməsi" ideyasının liderləri və onların davamçıları Məğravini inadla müdafiə etməyə və onu "düzgün başa düşülməmiş" sələfi kimi qələmə verməyə davam edirlər.

[3] "Əl-Bərahin əl-'Atida fi Kəşfi Əhval və Təsilət Əli Hələbi əl-Cədidə", səh. 28

# 2-ci fəsil

## “Sərhədlərin silinməsi” prinsipinin banisi olan ideoloqların ikinci fitnə dalğası

Böyük alimlər Adnan Arurun azğın qaydalarını və onun özünü təkzib etdikdən və ondan çəkindirdikdən sonra, onun nüfuzuna ciddi şəkildə xələl gəldi və nəticə etibarilə onun törətdiyi fitnə zəiflədi və süquta uğradı. Hələ digər nüfuzlu sələfi alimlər bu barədə danışmazdan əvvəl, şeyx Rabi (Allah onu qorusun), cərh və tədil elmində mütəxəssis olan digər alimlər Adnan Arurun azğın qaydalarına rəddiyyə vermişlər. Əksər sələfilər bir daha əmin oldular ki, şeyx Rabi və digər alimlər bunu etməkdə haqlı idilər.

Lakin Arur “sərhədlərin silinməsi” (təmyi’) ideologiyasının yayılmasında liderliyi itirdikdən sonra, bu azğın əməli uğrunda mübarizədə estafeti Əbul-Həsən Məribi adlı şəxs ələ aldı.

Misir əsilli Məribi hələ uzun illər öncə Yəmənə köçüb, Mərib əyalətində məskən salıb. Arurun və onun bidətçi qaydalarının tənəzzülündən sonra Məribi strategiyanı bir balaca dəyişdirməyə və “sərhədlərin silinməsi” (təmyi’) ideyasını gücləndirməyə məcbur oldu. O, Sələfi alimlərin Arurla əlaqəli çəkindirmələrinə məruz qalmamaq üçün bu addımı atdı. Beləliklə, Arurun əvvəlki qaydalarına cüzi dəyişikliklər etməklə və yeni, daha hiyləgər qaydalar işləyib hazırlamaqla Məribi Arurun fitnəsindən daha təhlükəli və dağıdıcı bir fitnənin yayılmasına rəhbərlik etməyə nail oldu.

Şeyx Rabi (Allah onu qorusun) bu fitnələri aşağıdakı kimi təsvir edib:

> *“Sələfi mənhəci və dövrümüzdəki ardıcılları ilə mübarizəyə yönəldilmiş çoxsaylı böyük fitnələr arasında davamlı surətdə, bir-birinin ardınca baş verən fitnələr yer alır. Bu fitnələrdən – ilk əvvəl Adnan Arurun, daha sonra Məğravinin, daha sonra isə Əbul-Həsən Məribinin fitnəsi gəlir. Sonuncunun fitnəsi insanlar üçün daha çox çaşdırıcı oldu. Məhz bu səbəbdən, bu fitnə sələfi mənhəcinin və onun ardıcıllarının rastlaşdığı ən təhlükəli fitnəyə çevrildi. Çünki bu fitnənin ideoloqları böyük*

*fəsadlar törədərək özlərini Sələfi mənhəcinin nümayəndələri olduğunu nümayiş etdirmək üçün əllərindən gələni etdilər”*[1].

Əbul-Həsən Məribinin hiyləgərliyinə və onun azmış şəxsiyyətlərin müdafiəsi üçün uydurduğu yeni qaydalara görə bir çox sələfi alimlər onu Əbul-Həsən əvəzinə “Əbul-Fitən” (fitnələrin atası) adlandırmışlar.

Xüsusilə, şeyx Salih Suheymi (Allah onu qorusun) Məribini bidətçi və “fitnələrin atası” adlandırmaqla izah etmişdir ki, o, öz məkrli üsullarını işə salaraq utanmadan alimlər qarşısında yalan danışır və yaltaqlıq edir. Odur ki, onun halını dərindən öyrənmədən bəzi böyük alimlər ondan çəkindirmir və onu tövsiyyə etməyə davam edirlər[2].

Lakin Məribi və onun tərəfdarları nə qədər hiyləgər və məkrli qaydalar təbliğ edirlərsə etsinlər, şeyx Albani (Allah ona rəhmət etsin) demişkən: *“Siz onları bəhrələrindən tanıyacaqsınız”*. Beləliklə, Məribi də Arur kimi öz azğın qaydalarını tətbiq etməklə ixvanlar və digər xəvariclər sırasından müxtəlif azmış şəxsiyyətləri, o cümlədən müasir xəvariclərin ideoloji atası olan Seyyid Qutbu müdafiə və tövsiyyə etməyə davam edirdi. Müxtəlif ixvanlar və Misirin “Nur” ixvan partiyasının üzvlərindən və həmçinin də digərlərindən ibarət olan “oturaq xəvariclər” (xəvaric qaadiyyə) Məribi üçün “sələfilərə” çevrilərək onun, eləcə də onun tərəfdarları tərəfindən tərif və dəstəyə layiq oldular. **Bundan əlavə Məribi müxtəlif xəvaricləri təkzib və ifşa etmiş sələfi alimləri haqsız şəkildə “həddadilər”, “fitnəkarlar” və digər alçaldıcı sözlərlə adlandırmağa başladı.**

Məribi və onun azğın qaydalarından çəkindirmiş bəzi alimlər:

- Şeyx Muqbil əl-Vadii (Allah ona rəhmət etsin)
- Şeyx Əhməd Nəcmi (Allah ona rəhmət etsin)[3]
- Şeyx Zeyd Mədxali (Allah ona rəhmət etsin)
- Şeyx Muhəmməd ibn Əbdul-Vəhhab Bənna (Allah ona rəhmət etsin)

[1] Məcmu Kutub və Rəsail və Fətəva əş-Şeyx Rabi, 13/280
[2] http://www.sahab.net/forums/?showtopic=118987
[3] Şeyx Əhməd Nəcmi Məribiyə rəddiyyə olaraq “əl-Tənbih əl-Vəfiy alə Müxalifət Əbil-Həsən əl-Məribi” adlı kitab qələmə almışdır

- Şeyx Rabi əl-Mədxali (Allah onu qorusun)[1]
- Şeyx Salih Suheymi (Allah onu qorusun)
- Şeyx Səid Raslan (Allah onu qorusun)
- Şeyx Vəsiyullah Abbas (Allah onu qorusun)
- Şeyx Ubeyd Cabiri (Allah onu qorusun)
- Şeyx Muhəmməd ibn Hədi (Allah onu qorusun)
- Şeyx Abdullah Buxari (Allah onu qorusun)[2]
- Şeyx Süleyman Ruheyli (Allah onu qorusun)
- Şeyx Muhamməd Bəzmul (Allah onu qorusun)[3]

"Sərhədlərin silinməsi" ideologiyasının təkamülünü daha yaxşı başa düşmək üçün Məribinin ixtira etdiyi bəzi əsas qayda və prinsipləri təqdim edirik. Qısa şəkildə bu qaydaların necə də azmış qaydalar olduğunu göstərəcəyik.

## 1. *"Biz (insanları) düzəltməliyik, məhv etməməliyik"* (نصحح ولا نهدم)

Yəqin oxucu dərhal diqqət yetirdi ki, bu qayda Arura məxsus *"Biz (şəxsləri) düzətlməli, lakin onları cərh etməməliyik"* (نصحح ولا نهدم) şəklində azğın qaydadan demək olar ki, heç fərqlənmir. Lakin diqqətlə düşündükdə görərik ki, əslində Məribinin bu qaydası Ardurun qaydasından daha da azğındır.

Şeyx Rabi (Allah onu qorusun) demişdir:

> *"Bu qaydaya Əbul-Həsən tərəfindən verilmiş ad, Adnan (Arur) tərəfindən verilmiş addan daha pisdir. Çünki Adnan hesab edir ki, (azmış şəxsləri) təkzib etmək yalnız onları cərh etməkdir, Əbul-Həsən isə onların təkzib olunmasını məhv etmək hesab edir*[4].

[1] Şeyx Rabi Məribinin bidətlərinə bir neçə rəddiyyə yazmışdır. Bu rəddiyyələr daha sonra "Şeyx Rabinin kitablar və fətvalar məcmusunda" ayrıca bir cilddə toplanmışdır

[2] Şeyx Abdullah Buxari Məribiyə rəddiyyə olaraq "əl-Fəth ər-Rabbaniy fi Rəddi alə Əbil-Həsən əs-Süleymani" kitabını qələmə almışdır

[3] Bu çəkindirmələrdən çoxunun əslini burada dinləmək olar https://www.youtube.com/watch?v=nI-1ERjisBA

[4] Məcmu Kutub və Rəsail və Fətəva əş-Şeyx Rabi, 13/374

## 2. *“Geniş mənhəc” prinsipi* (المنهج الواسع الأفيح)

Əbul-Həsən Məribi açıq şəkildə bəyan etdi ki, müxtəlif bidətçi firqələri Əhli-Sünnənin sıralarına daxil etmək üçün Əhli-Sünnə və bidətçilər arasında mövcud olan sərhədləri silmək və genişləndirmək istəyir. O demişdir:

> *“Biz, özündə həm Əhli-Sünnəni, həm də bütün ümməti birləşdirən böyük və geniş mənhəc istəyirik”.*

Şeyx Rabi (Allah onu qorusun) onun sözlərini şərh edərək demişdir:

> *Bu sözlərlə o, məşhur (ixvan) qaydasını nəzərdə tutur: “Ümumi məqsədlərimiz əsasında əməkdaşlıq edək və ixtilaf etdiyimiz məsələlərdə bir-birimizi bağışlayaq”*[1].

Həmçinin “Sələfi dəvətinin əsasları və fərqləri” adlı mühazirəsində Məribi demişdir:

> *“Uğurlu insan əməlisaleh sələflərin tərcümeyi-hallarını oxuyan və sonra da onların Quran və Sünnə üzərindən olan fəhmləri əsasında özündə həm Əhli-Sünnəni, həm də bütün ümməti birləşdirən geniş bir mənhəc hasil edən kəsdir”.*

Şeyx Rabi (Allah onu qorusun) bu sözlər haqqında aşağıdakıları demişdir:

> *“Əbul-Həsən (Məribi) təbliğçilərdən, qutubçulardan, məğraviçilərdən və arurçulardan ibarət olan, bütün firqələri özündə birləşdirən yeni bir mənhəc arzusundadır”*[2].

Beləliklə, Məribi açıq şəkildə bəyan etdi ki, o, ixvanların ideologiyasına riayət edir, Əhli-Sünnə və digər firqələr arasında mövcud olan sərhədləri silmək istəyir. Məhz bu səbəbdən Məribi dəfələrlə öz mühazirələrində və tez-tez baş tutan məclislərdə iddia edirdi ki, “Müsəlman qardaşlar” və “Təbliğ Cəmaatı” firqələri Əhli-Sünnə vəl-Cəmaənin ardıcıllarıdır və bidətçi firqələr deyillər[3].

Bununla yanaşı, Şeyx İbn Bəzdən (Allah ona rəhmət etsin) soruşurlar:

---

[1] Məcmu Kutub və Rəsail və Fətəva əş-Şeyx Rabi, 13/80
[2] Məcmu Kutub və Rəsail və Fətəva əş-Şeyx Rabi, 13/48
[3] Məcmu Kutub və Rəsail və Fətəva əş-Şeyx Rabi, 13/345

*“Allah sizi mükəfatlandırsın! Peyğəmbərin (Allahın ona salavat və salamı olsun) firqələrin meydana gəlməsi barədə hədisi məşhurdur: **“Həqiqətən mənim ümmətim yetmiş üç firqəyə bölünəcəkdir. Birindən başqa hamısı Cəhənnəmdədir…”** Sual belədir: Şirk və bidət törədən “Təbliğ Camaatı”, həmçinin partiyaçılıq (hizbilik) və rəhbərə qarşı çıxmaq ideologiyasına malik “Müsəlman qardaşlar” - bu iki firqə yeganə firqəyə daxildirmi? …”*

Şeyx belə cavab verdi:

*“Bəli, onlar 72 (bidətçi) firqəyə daxildirlər. Əhli-Sünnə əqidəsinin ardınca getməyən hər kəs 72 (bidətçi) firqələrə daxildir”*[1].

Öz yeni “geniş mənhəcinə” əsaslanan Məribi qutubçular və “oturaq xəvariclər” sırasından özlərini sələfi kimi qələmə verən müxtəlif hizbçiləri də müdafiə və tövsiyyə edir. Şeyx Rabi (Allah onu qorusun) onun bu zəlalətinə işarə edərək demişdir:

*“Ətraflı cavab” adlı mühazirəsində ondan (Məribidən) Əbu İshaq (əl-Huveyni), Muhəmməd Həssən və bəzi digər hizbçilər barəsində soruşduqda o, (Məribi) belə cavab vermişdir: “Aydındır ki, ixtilaflı məsələlərdən uzaq ibrətamiz mühazirələri dinləmək və faydalar çıxarmaq icazəlidir. Axı əgər bizə Kitab əhlindən nəql etmək icazəli buyrulubsa, o zaman böyüklüyündən və kiçikliyindən asılı olmayaraq bəzi ixtilaflara malik olduğumuz qardaşlarımızdan niyə də icazəli olmasın ki”*[2].

Məribi həmçinin “geniş mənhəc” prinsipini tətbiq edərək Misirdə fəaliyyət göstərən və Yasir Burhami, Muqaddim, Səid ibn Əbduləzim, eləcə də digər “isgəndəriyyəli hizbçilər” kimi “oturaq xəvariclərin” rəhbərlik etdiyi “Hizbun-Nur” xəvaric siyasi partiyasının ünvanına böyük tariflər yağdırmış və onları tövsiyyə etmişdir. Bu insanlar öz siyasi partiyalarını əqidəyə əsaslandırır, cari dövrdə dünyada qanuni (şəri) müsəlman rəhbərin olmadığını səbəb göstərərək qanuni rəhbərin təyin olunması üçün siyasi mübarizənin aparılmasını icazəli və hətta vacib hesab edirlər.[3] Lakin bütün bunlara baxmayaraq, Məribi bu partiyanın liderlərini və ardıcıllarını sələfi adlandırır və bəyan edir

[1] Məcmu Kutub və Rəsail və Fətəva əş-Şeyx Rabi, 13/351
[2] Məcmu Kutub və Rəsail və Fətəva əş-Şeyx Rabi, 13/48
[3] “Aleksandriyalı hizbçilərin” xəvaric baxışları barədə daha ətraflı bu keçiddən oxumaq olar: http://sunnaportal.com/?p=4541

ki, “onların üzərində böyük məsuliyyət və vəzifə var” və bu partiya “parlaq gələcəyi olan, çox ümidlər verən” bir partiyadır[1]. Allahdan bizi bu cür zəlalətdən qorumasını diləyirik.

## 3. *“(Bir şəxsin) Ümumi sözlərini təfsilatlı sözlərinə əsasən açıqlamaq lazımdır”* (حمل المجمل على المفصل)

Bu qayda, həqiqətən doğru bir İslam qaydasıdır. Lakin bu qayda qeyd-şərtsiz olaraq yalnız Uca Allahın və Muhamməd Peyğəmbərin (Allahın ona salavat və salamı olsun) sözlərinə münasibətdə istifadə olunur. Allahın və Onun Peyğəmbərinin (Allahın ona salavat və salamı olsun) sözlərinə münasibətdə bu qaydanın doğruluğu onunla izah olunur ki, Allahın sözləri heç bir halda bir-birinə zidd ola bilməz. Odur ki, Uca Allahın aydın olmayan və ya ümumi sözlərini təfsilatlı sözlərə əsasən açıqlamaq lazımdır.

İmam Şəukani demişdir:

> *“Müsəlmanlar yekdil rəydədirlər ki, məsumun (yəni, Peyğəmbərin) sözləri istisna olmaqla, insanların sözləri ancaq verdiyi açıq-aydın mənasına görə yozulur”*[2].

Lakin Məribi müxtəlif bidətçilərin və azmış şəxsiyyətlərin müdafiəsi üçün bu qaydanı tətbiq etməyə başladı. Onun bu qaydasının təfsirinə müvafiq olaraq, əgər hər hansı bir insan bidət bir söz desə, buna görə onu qınamaq və ya günahlandırmaq olmaz, mütləq qaydada bu sözləri mənanın anlaşıldığı digər sözlərlə açıqlamaq lazımdır. Beləliklə, Məribinin bu qaydasının təfsirinə əsasən belə çıxır ki, Sünni müsəlman heç vaxt doğru yoldan aza və bidət sözlər söyləyə bilməz. Bundan əlavə, bu qaydanın təfsirindən belə çıxır ki, insan Uca Allahın bənzəridir və unutqanlıq, həvasına tabe olmaq, təkəbbürlük və digər insana xas zəifliklər səbəbilə özü-özünə zidd gedə bilməz.

Biz artıq Məribini “geniş mənhəc” prinsipini tətbiq edərək təbliğçiləri, ixvanları və müxtəlif xəvarickləri necə müdafiə etdiyinə və onları Əhli-Sünnə adlandırdığına əmin olduq. Məribinin bu firqələri Əhli-Sünnə sıralarına daxil etmək üçün istifadə etdiyi əsas

---

[1] Məribinin “Hizbu Nur” xəvaric partiyasının ünvanına bu və digər təriflərini bu keçiddən izləmək olar: https://www.youtube.com/watch?v=yS858tl2UW8
[2] “Əs-Səvərim əl-Əhdəəd”, səh. 96-97

silahlarından biri məhz onun *“ümumi sözləri təfsilatlı sözlərə əsasən açıqlamaq lazımdır”* qaydasıdır.

Məribinin müxtəlif azmış şəxsiyyətləri və onların bidətlərini müdafiə etmək üçün bu qaydanı tətbiq etməsinə dair bəzi nümunələr gətirək.

Məribi bu qaydanı, müasir xəvariclərin ideoloji atası, öz əsərlərində “vəhdətul-vücud” adlı bidətçi fəlsəfəni təbliğ edən Seyyid Qutuba münasibətdə tətbiq edirdi[1]. Əksər dərslərində öz yeni qaydasına əsaslanan Məribi Seyyid Qutbun bu cür bidətçi əqidəyə sahib olduğunu inadla inkar etmişdir. O demişdir:

> ***“(Qutubun) bu sözləri ümumidir və aydın deyil, odur ki, bu sözləri onun digər təfsilatlı sözləri ilə açıqlamaq lazımdır”.***

Şeyx Rabi (Allah onu qorusun) Məribinin bu sözlərini izah edərək demişdir:

> *“Onun (Seyyid Qutubun) “Hədid” və “İxlas” surələrinin təfsirində “varlığın vəhdəti” ideologiyasını və Yaradanın məxluqlarla mücəssəməsini təsdiqləyən sözləri son dərəcə aydındır, ümumi və ya qeyri-aydın deyildir. Lakin sən özün, aydın sözləri qeyri-aydın edir və bununla alimlərin sözlərini və (şəxsiyyətlərlə əlaqəli) qərarlarını rədd edib, qəbul etmirsən”*[2].

Məribi Məğravi və onun müsəlman ümmətinin təkfir olunmasına dair çoxsaylı ifadələrinə münasibətdə də məhz bu qaydanı tətbiq etmişdir[3]. Öz dərslərindən birində Məğravinin ünvanına böyük təriflər yağdırdıqdan və onu müdafiə etdikdən sonra Məribi demişdir:

> *“Bununla belə bəziləri çıxıb, onun (Məğravinin) əqidəsinə uyğun olmayan sözləri onun ayağına yazırlar. Onun bəzi sözlərindən belə başa düşülsə də belə, ədaləti qorumaq naminə onun bu sözlərinə digər sözləri ilə birgə baxmaq lazımdır”*[4].

---

[1] Varlığın vəhdəti – yəni, Yaradan və məxluqlar bir bütövdür. Bu əqidə böyük küfrdür

[2] Məcmu Kutub və Rəsail və Fətəva əş-Şeyx Rabi, 13/94

[3] Məğravi demişdir: “*Günah, şirk, təbərrüc (qadının yad kişilər qarşısında öz gözəlliyini nümayiş etdirməsi), zəlalətlər, mürtədlik və Allahın dinindən çıxmaq kimi günahlar ətrafında cəmləşən və birləşən və bundan xəbəri də olmayan müsəlman ümmətindən nə gözləyirsiniz!? Onun başına daha nə gəlməlidir?! Siz daha nə gözləyirsiniz!?” (“Bəqərə” surəsinin təfsiri, 14-cü kaset).*
Həmçinin, o, demişdir: “*Quran nazil edilmişdir, lakin, biz onu buraxmışıq; Sünnə gəlib, amma biz onu tərk etmişik. Biz Allahın Kitabının, Onun elçisinin Sünnəsinin və əqidəmizin qayğısına qalmırıq. Cəmiyyət parçalanıb və günahlara qapılıb. Cəmiyyət tənəzzül edib, onun əksəriyyəti isə mürtədlərdir*” (Bax, oradaca).
Bunlar Məğravinin müsəlman ümmətini təkfir etməsinə dair yalnız bir neçə ifadəsidir.

[4] Məcmu Kutub və Rəsail və Fətəva əş-Şeyx Rabi, 13/32

Şeyx Rabi (Allah onu qorusun) Məğravinin islam ümmətinin təkfir olunmasına dair çoxsaylı aydın ifadələrini sitat gətirdikdən sonra demişdir:

> *“Təəccüblüsü ondadır ki, Əbul-Həsən (Məribi) hesab edir ki, onun (Məğravinin) bütün bu aydın, təfsilatlı və birmənalı ifadələri ümumi və təfsilatda ehtiyac olan sözlərdir! Əgər bu belədirsə, mən artıq onun hansı dildə başa düşüb və anlamasını və hansı məzhəbə qulluq etdiyini bilmirəm!?”*[1]

Daha sonra Məribi öz qaydasının şəklini bir balaca dəyişdirdi və ona bir az fərqli tərzdə tərif verdi:

> ***“Sünninin həm xeyir və həm də şəri nəzərdə tutan ümumi sözlərini xeyir nöqteyi-nəzərindən anlamaq lazımdır. Bidətçinin ümumi sözlərini şər nöqteyi-nəzərindən anlamaq lazımdır”*[2].**

Yəni, əgər Məribi əvvəl bu qaydanı bidətçilərə (Seyyid Qutb və s. kimi) tətbiq edirdisə, indi bu qaydanın yeni tərifinə əsasən, onu ancaq sünniyə tətbiq etmək olar. Şeyx Rabi (Allah onu qorusun) Məribinin bu şəkli dəyişdirilmiş qaydasını sitat gətirərək demişdir:

> *Əbul-Həsənə (Məribi) rəddiyyə olaraq bunları deyəcəm: “Əgər bidətçi və sünni özündə Allahın, Onun Peyğəmbərlərinin, Onun Kitablarının, Peyğəmbərlərdən və ya səhabələrdən birinin ünvanına nalayiq sözlər ehtiva edən ümumi sözlər söyləyərsə, sünninin sözlərini “xeyir” nöqteyi nəzərindən, bidətçinin sözlərini isə “şər” nöqteyi-nəzərindən təfsir edəcəksən!? Və ya əgər iki insan: sünni və bidətçi, yaxud sünni və münafiq – və ya kafir – kimisə zinada ittiham edən sözlər söyləsə, sünninin bu sözlərini “xeyir” nöqteyi nəzərindən, digərinin sözlərini isə “şər” nöqteyi nəzərindən təfsir edəcəksən!?!*[3] *Və ya əgər sünni və bidətçi mürtədlik (riddə) ehtiva edən sözlər söyləsə, belə çıxır ki, bu, bidətçiyə münasibətdə*

---

[1] Məcmu Kutub və Rəsail və Fətəva əş-Şeyx Rabi, 13/127
[2] Məcmu Kutub və Rəsail və Fətəva əş-Şeyx Rabi, 13/92
[3] Əgər zinada təqsirli bilinən şəxsin zina aktını görən 4 şahid yoxdursa, zinada ittiham edən üçün cəza ictimai şəkildə 80 dəfə qamçılanmaqdır. Bununla bərabər, bu cəzanın tətbiqində şəriət sünni və bidətçi, mömin və ya asi arasında fərq qoymur. Çünki, digər bir şəxsi zinada ittiham edən istənilən halda cəzasını çəkməlidir.

*mürtədlik hesab olunacaq, sünniyə münasibətdə isə biz bu sözləri xeyir nöqteyi nəzərindən anlamalıyıq?!*[1]"

**Məribinin bu qaydasının təfsirinə rəddiyyə olaraq üç əsas məqamı qeyd etmək lazımdır:**

**Birincisi:** Hətta belə fərz etsək ki, "ümumi sözləri təfsilatlı sözlərə əsasən açıqlamaq lazımdır" qaydasını istənilən müsəlmana və ya sünniyə tətbiq etmək icazəlidir, o zaman sual meydana gəlir: sünninin bütün azmış sözlərini onun digər sözləri ilə açıqlamaq lazımdır ya yox? Axı qaydanın özü açıq-aşkar ona işarə edir ki, yalnız ümumi sözləri aydın sözlərlə açıqlamaq lazımdır. Nəticə etibarilə bu qaydanın əksi ona işarə edir ki, aydın sözlərin açıqlamasına ehtiyac yoxdur və bu səbəbdən onları açıq-aydın mənalarına müvafiq olaraq anlamaq lazımdır.

Bu qaydaya görə Məribiyə əsas rəddiyyə də məhz bundan ibarətdir. Axı Məribinin problemi ondadır ki, o, bu qaydanı **müxtəlif azmış şəxsiyyətlərin aydın və təfsilatlı sözlərinə tətbiq edərək, daha sonra onların ifadələrinin "ümumi" və "aydın olamayan" olduğunu əsassız şəkildə iddia edir.**

Yuxarıda deyilənləri daha yaxşı anlamaq üçün biz, üsulçuların (üsul əl-fiqh elminin alimləri[2]) "sözlərin" müxtəlif mənalara işarə etməsi nöqteyi-nəzərindən tərifinə müraciət etməliyik.

Şeyx Rabi (Allah onu qorusun) sözlərin mənasının müəyyən olunması ilə əlaqəli aşağıdakıları demişdir:

> *"Üçüncü fəsil: üsulçuların nöqteyi nəzərindən mücməl (ümumi), nass (aydın), zahir və mübəyyən (təfsilatlı) sözlər.*
>
> *"Mücməl" (المجمل) – ümumi sözlər: bu, mənaları aydın olmayan sözlərdir. Və ya eyni zamanda iki mənanı eyni dərəcədə kəsb edən sözlərdir".*

[1] Məcmu Kutub və Rəsail və Fətəva əş-Şeyx Rabi, 13/93

[2] Üsul əl-fiqh, fiqhin ümumi dəlillərini öyrənən və tətbiqini öyrədən bir elmdir. Həmçinin, bu elm müctəhidin – bu dəlilləri praktikada tətbiq edən şəxsin halını öyrənir.

*“Mübəyyən”(المبين) – təfsilatlı sözlər: ümumi sözlərə zidd olan sözlərdir. Bu, ya “nass”, ya “zahir” olan və ya ümumi (mücməl) sözlərini təfsilat edən, istifadə zamanı yalnız bir mənanı kəsb edən sözlərdir.*

*“Nass” (النص) – yalnız bir mənanı kəsb edən sözlərdir.*

*“Zahir” (الظاهر) – açıq-aydın məna kəsb edən, başqa məna kəsb etmə ehtimalı az olan sözlər.*

*Beləliklə, ümumi sözlər (mücməl), mənaları aydın olmayan sözlərdir. Və ya omonimlər kimi eyni zamanda iki mənanı eyni dərəcədə kəsb edən sözlərdir. “Qızıl”, “göz” və digər mənaları kəsb edən “ayn” (العين) sözü kimi[1]. Həmçinin heyzin başlanması və həm də ondan təmizlənmə mənasına gələn “qur” (القرء) sözü kimi”.[2]*

Beləliklə bəlli olur ki, heç bir halda insanların başqa cür anlaşılmayan aydın və təfsilatlı sözlərini “ümumi” adlandırmaq doğru deyildir. Xüsusilə də əgər bu qayda Əhli-Sünnənin müxtəlif düşmənlərinin müdafiəsi üçün edilirsə heç doğru deyildir. Odur ki, şeyx Rabi (Allah onu qorusun) sözlərin təyinatı nöqteyi-nəzərindən mənasını izah etdikdən sonra Məribinin yeni uydurulmuş qaydasını təkzib etmək üçün aşağıdakıları demişdir:

*“Sən ondan (Məribidən) soruşa bilərsən: sən bidət və azmış yolların ardıcıllarının ya ümumiyyətlə başqa məna kəsb etməyən (nass), ya da az ehtimalla başqa məna kəsb edən (zahir), gün kimi aydın sözlərini görəndə niyə bu sözləri ümumi hesab edirsən və daha sonra bu sözləri “təfsilatlı sözlər” adlandırdığın sözlərlə izah edirsən?!”[3]*

Həmçinin şeyx Rabi (Allah onu qorusun) demişdir:

*“Seyyid Qutbun (varlığın vəhdətini iddia etməsi barədə) bu cür sözləri həmçinin onun “Zilal əl-Quran” (6/3479-3480) adlı təfsir kitabında “Hədid” surəsinin təfsirində də yer alır. O, həmçinin öz şerlər toplusunda həm mənzum formada, həm də nəqli (hekayə) formada açıq şəkildə bu barədə bəyan etmişdir. Bundan*

---

[1] “**Ayn**” (العين) sözü ərəb dilində çox məna kəsb edir. Ən çox istifadə olunan mənalar arasında – “casus” və “bulaq” sözləri də var.
[2] Məcmu Kutub və Rəsail və Fətəva əş-Şeyx Rabi, 13/114
[3] Məcmu Kutub və Rəsail və Fətəva əş-Şeyx Rabi, 13/114

*əlavə o, məxluqun Yaradanla birləşməsini, varlığın vəhdətini, bütün dinlərin vəhdətini, reinkarnasiya və ruhun təkrar qayıdışına etiqadı özündə ehtiva edən Nirvana fəlsəfəsini müdafiə edərək bir daha özünün bu ideologiyaya sadiqliyini təsdiqləmişdir. Onun (Qutbun) bütün sözləri (varlığın vəhdətini iddia etməsinə dair) aydın və açıq-aşkardır. Buna həm də onun öz sözlərinin məzmunu açıq-aşkar işarə edir. Əgər fərz etsək ki, onun bütün bu sözləri "aydın deyil", o zaman belə çıxır ki, ilk olaraq Abdullah Əzzamın*[1] *uydurduğu, daha sonra isə onun ardınca qutbçuların, "müsəlman qardaşların" və Adnan Arurun riayət etdiyi bu bəhanə səbəbi ilə aydın və təfsilatlı sözlər ümumiyyətlə mövcud deyil. Daha sonra Əbul-Həsən (Məribi) də onların nümunəsinə əməl etdi. O, uzun müddət bu bəhanəni təbliğ edərək elə bir fitnə törətdi ki, bu fitnəni yalnız Allah aradan qaldıra bilər".*[2]

**İkincisi**: Bu fəslin əvvəlində də deyildiyi kimi, bu qayda, qeyd-şərtsiz olaraq yalnız Allaha və onun Peyğəmbərinə münasibətdə istifadə olunur. İnsanların ifadələrinə gəldikdə isə, əsl budur ki, kimin söylədiyindən asılı olmayaraq, yalnış məna kəsb edən sözlər qəbul edilməməlidir.

Şeyx Ubeyd Cabiri (Allah onu qorusun) demişdir:

*"Ümumi sözləri təfsilatlı sözlərlə açıqlamaq lazımdır" qaydasına gəldikdə isə, imam Şəvkani bu qaydanın Peyğəmbərdən (Allahın ona salavat və salamı olsun) başqa heç kimin sözlərinə münasibətdə tətbiq olunmadığına dair yekdil rəyi rəvayət etmişdir. Mənim anlayışımda o, (Şəvkəni) bu qaydanın bütün şəriət mətnlərinə (yəni, həm Peyğəmbərin sözlərinə və həm də Quran ayələrinə – müəllifin qeydi) müstəsna tətbiqini nəzərdə tutur. Lakin bu gün bu qaydaya, bəzən bidətlərə münasibətdə yumşaqlığa və dözümlülüyə gətirib çıxaran əlavə*

---

[1] Abdullah Əzzam (1941-1989) – İordaniyaya köçərək orada "müsəlman qardaşlar" hərəkatının iordan filialının fəal üzvü olan fələstinli. Digər ixvanlar kimi, o da İordaniyadan Səudiyyə Ərəbistanına köçməyə məcbur olmuş, orada universitetdə müəllim işləyərk qutbçuluğun təbliğinə davam etmişdir. 1979-cu ildə Əfqanıstanda sovet işğal qoşunlarına qarşı müharibə başladıqda, Abdullah Əzzam Əfqanıstana yollanmış və mücahidlər arasında onların çox da yaxşı tanış olmadığı təkfir ideyasını yaymış və tədricən Əfqanıstanda təkfirçilərin əsas liderlərindən birinə çevrilmişdir. 1984-cü ildə o, Usamə bin Ladenlə birgə Əfqanıstanın sovet-əleyhinə qoşunları üçün vəsaitlərin yığımı üzrə "Kömək bürosu" idarəsini açmışdır. Əksər mütəxəssislər hesab edir ki, "Əl-Qaidə" xəvaric təşkilatının baniləri məhz Abdullah Əzzam və Bin Laden olub.

[2] Məcmu Kutub və Rəsail və Fətəva əş-Şeyx Rabi, 13/124-125

*mənalar verirlər. Bu səbəbdən də əgər, məsələn, bir insan hər hansı bir bidətə düşürsə, onlar deyir ki, "Ümumi sözləri təfsilatlı sözlərlə açıqlamaq lazımdır".*

*Lakin bu doğru deyil,* hətta əgər bu xətaya Əhli-Sünnədən bir nəfər yol versə də belə, xətanı təkzib etmək lazımdır. *Çünki, Əhli-Sünnə yəni, sələfilər, yəni Əhli-Əsər, yəni, Əhli-Hədis – onlar insanların sözlərini iki ölçüyə əsasən dəyərləndirirlər: şəri mətnlər (Quran və Sünnə) və icma (alimlərin yekdil rəyi). Beləliklə, hətta Əhli-Sünnə imamlarından biri tərəfindən deyilibsə belə, şəri mətnlərə və icmaya zidd olan bütün sözlər təkzib və rədd edilir".*[1]

Bundan əlavə, anlamaq mühümdür ki, Əhli-Sünnə alimləri insanların yalnız yalnış məna kəsb edən sözlərini yox, həmçinin həm yalnış və həm də doğru məna kəsb edən sözlərini təkzib edirdilər.

Şeyxul-İslam İbn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir:

*"Sələflərin və imamların fərqləndirici xüsusiyyəti odur ki, onlarşəriətlə və məntiqlə məlum olan sözlərin və ifadələrin düzgün istifadəsinə diqqət yetirirlər. Buna böyük əhəmiyyət verməklə, onlar həmçinin öz ifadələrində* mümkün qədər *yalnız şəriət terminlərindən istifadə etməyə çalışırlar. Odur ki, əgər kimsə özündə zəlalət, Qurana və Sünnəyə ziddlik ehtiva edən sözlərdən istifadə edərsə, onlar bu sözləri təkzib edir və bu sözləri söyləyən şəxsə rəddiyyə verirlər. Bundan əlavə, əgər kimsə həm doğru və həm də yalnış cür anlaşıla bilən bidətçi söz və ifadələr istifadə edərdisə, sələflər bu cür sözləri və ifadələri də bidətə aid edərdilər.*

*Onlar deyirdilər: "Bu sözləri və ifadələri istifadə edən, bir bidəti digər bidətlə təkzib etmişdir. O, bir yalnış fikri, digər bir yalnış fikirlə təkzib etmişdir".*[2]

---

[1] http://ar.miraath.net/fatwah/3405
[2] "Daru Təarud", 1/145

Məhz bu səbəbdən, əksər Əhli-Sünnə imamları, həm yalnış, həm də doğru cür anlaşıla bilən ümumi və aydın olmayan sözlər istifadə etdiklərinə görə *vəqifilər*[1] və *ləfziləri*[2] bidətdə ittiham edərək onlardan çəkindirməyə başladılar.

Azmış cəhmilər və mötəzililərin törətdiyi böyük fitnə səbəbi ilə Əhli-Sünnə alimləri "Quran Allahın kəlamıdır və Allahın məxluqu deyildir" deməli olurdular. Odur ki, Əhli-Sünnə alimləri "Quran Allahın kəlamıdır" deyən və burada dayanan, sözünə davam edərək "və Allahın məxluqu deyildir" demək istəməyən insanları vəqifilər adlandırırdılar. Lakin vəqifilər cəhmilər və mötəzililər kimi açıq-aşkar şəkildə Quranın məxluq olduğunu demirdilər. Beləliklə, vəqifilər ümumi ifadələrdən istifadə edərək, Quranı (Allahın kəlamını) məxluq hesab edib-etmədiklərinin başa düşülməsinə imkan vermirdilər.

Ləfzilərə gəldikdə isə, Əhli-Sünnə alimləri bu adla "Mən Quran oxuyanda, mənim ləfzim[3] məxluqdur" deyənləri adlandırırdılar. Bu cür ifadə ümumi və eyni zamanda, həm Əhli-Sünnə əqidəsinə müvafiq və həm də ona zidd olaraq başa düşülə bilər.

Əgər bunu deyən öz artikulyasiyasını (*tələffüz*, yəni, dodaqlarının hərəkətini və öz səsini) nəzərdə tutursa, bu cür ifadə düzgündür, çünki insanın artikulyasiyası Allahın məxluqudur. Lakin əgər o, tələffüz etdiyi Quranın özünü (Allahın Kəlamını) nəzərdə tutursa, o zaman bu ifadə yalnışdır, çünki Quran Allahın Kəlamıdır, Onun sifətidir və Onun məxluqu deyildir"[4].

Şeyxul-İslam İbn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir:

> *"Kəlam (qiraətçinin oxuduğu Quran) Allahın kəlamıdır, səs isə qiraətçinin səsidir".*[5]

Beləliklə, vəqifilərin və ləfzilərin ümumi ifadələri cəhmilərə və mötəzlililərə öz əqidələrini Əhli-Sünnədən gizlətmələrinə imkan verirdi. Məhz bu səbəbdən Əhli-Sünnənin əksər

---

[1] Vəqifilər (الواقفية) – ərəb dilində "dayanmaq" mənasını verən "və-qə-fə" (وقف), felindən

[2] Ləfzilər (اللفظية) – ərəb dilində "söz, ləfz, tələffüz, ifadə" mənasını verən "ləfz" (لفظ) sözündən

[3] Ərəb dilində "**ləfz**" (لفظ) sözü özündə 2 müxtəlif mənanı birləşdirir: 1) "**tələffüz**" (artikulyasiya, tələffüz) 2) "**məlfuz**" – insanın dediyi, yəni, onun nitqinin tərkibi

[4] Bax, Şeyx Salih Əli Şeyx, "Şərh əl-Əqidə əl-Vəsıtiyyə", 1/364 ("əş-Şamilə" elektron kitabxanası)

[5] Məcmu əl-Fətəva, 98/12

imamları onları bidətdə ittiham etdilər və vəqifiliyə və ləfziliyə düşərək ümumi sözlər istifadə edənlərdən çəkindirməyə başladılar.

Bununla əlaqədar olaraq İbn Teymiyyə demişdir:

> *“İmam Əhməd və Əhli-Sünnənin digər imamları “Ləfzilər cəhmilərdir” deyərək (bu cür ümumi ifadələri) təkzib etdilər və tənqidə məruz qoydular. Həmçinin onlar demişdirlər: “Cəhmilər üç firqəyə bölündülər: Birinci firqə dedi: “Quran məxluqdur”. İkinci firqə dedi: “Biz dayanırıq və Quranın məxluq olub-olmadığını demirik”. Üçüncü firqə dedi: “Quranın qiraəti və “ləfzi” məxluqdur”.*[1]

Üstəlik bu cür ümumi və aydın olmayan ifadələr səbəbi ilə Əhli-Sünnə imamları və alimləri hətta böyük alimləri də bidətdə ittiham ediblər. Şeyx Rabi (Allah onu qorusun) Məribinin *“ümumi sözləri təfsilatlı sözlərlə açıqlamaq lazımdır”* qaydasına gətirdiyi dəlilləri təzkib edərək demişdir:

> *“Əgər Əbul-Həsənin (Məribi) iddia etdiyi kimi doğrudan da qayda belədirsə, bəs o zaman Qurandan və Sünnədən buna işarə edən dəlillər hanı? (Bu qaydaya rəddiyyə kimi) Əhli-Sünnənin imamı imam Əhmədin sözlərinə baxaq. Quranın üzərində dayananı (yəni, onun məxluq olmadığını deməyəni) o, bidətçi və azmış adlandırmışdır. Baxmayaraq ki, onlar arasında Yaqub bin Şeybə kimi Sünnə və hədislərin ardıcıllarından olan böyük alimlər də var idi.*[2]

İmam Zəhəbi (Allah ona rəhmət etsin) Yaqub ibn Şeybənin tərcümeyi-halında yazmışdır:

> *“Əbu Bəkr Mərruzi nəql etmişdir: “Yaqub ibn Şeybə öz “vəqifiliyini” Bağdadda büruzə verdi və bu səbəbdən Əbu Abdullah (yəni, imam Əhməd) ondan çəkindirməyə başladı. Həmçinin (xəlifə) Mütəvəkkil, Əbdurrahmən ibn Yəhya ibn Hakana əmr etdi ki, Əhməd ibn Hənbəldən kimlərin hakim vəzifəsini tuta biləcəyi barədə soruşsun. Əbdurrahmən nəql etmişdir: “Mən ondan (Əhməddən) Yaqub*

[1] “Daru Təarud”, 1/145
[2] Məcmu Kutub və Rəsail və Fətəva əş-Şeyx Rabi, 13/93

*ibn Şeybənin halı barədə soruşduqda, o, mənə cavab verdi: "O, bidətçi və həva əhlindəndir". Xatib demişdir: "O, onu "vəqifiliyi" səbəbi ilə bu cür təsvir etmişdir".*[1]

Həmçinin, imam Zəhəbi (Allah ona rəhmət etsin) Yaqub ibn Şeybə ilə birgə vəqifiliyə düşən bəzi insanların adını çəkərək demişdir:

> *"Minə yaxın imam onların əleyhinə çıxmışdır. Daha dəqiq isə: bütün erkən və sonrakı imamlar onların cəhmilərin təkfirini inkar etmələrinə qarşı çıxıblar və Quranın məxluq olmadığını təsdiqləyiblər".*[2]

Şeyx Rabi (Allah onu qorusun) Məribini təkzib edərək, imam Zəhəbinin (Allah ona rəhmət etsin) dediyi sözləri bütövlükdə sitat gətirərək demişdir:

> *"Bəs niyə bu min imam və imam Zəhəbinin özü bu alimlərə münasibətdə "ümumi sözləri təfsilatlı sözlərlə açıqlamaq lazımdır" qaydasını tətbiq etməyiblər!?".*[3]

Həmçinin, şeyx Rabi (Allah onu qorusun) Məribiyə rəddiyyə verərək demişdir:

> *"Bununla bərabər, Sünnə imamlarından, o cümlədən adını çəkdiklərimdən heç kim, Əbul-Həsən Məribi kimi belə deməyiblər ki, əgər yalnış sözləri sünni biri deyərsə, onları yaxşı mənada başa düşmək, yox əgər bidətçi biri deyərsə, onları pis mənada başa düşmək lazımdır".*[4]

**Üçüncüsü:** Şübhə yoxdur ki, Əhli-Sünnənin artıq bu həyatdan getmiş görkəmli və nüfuzlu alimləri ilə sağlam və doğru əqidəyə malik olduqları hələ sübut edilməli olan adi dəvətçilər arasında fərq mövcuddur.

**Lakin burada bir neçə mühüm məqamı anlamaq lazımdır:**

**Birincisi,** alimin dediyi yalnış ifadə istənilən halda qınanılır və təkzib edilir, hətta əgər alimin özünü bidətdə ittiham etməsələr belə.

**İkincisi,** alimlərin heç də bütün yalnış ifadələrinə bəraət qazandırmırlar.

---

[1] "Siyəru Aləmin-Nübələ" 12/478
[2] "Siyəru Aləmin-Nübələ" 12/478
[3] "Məcmu Kutub və Rəsail və Fətəva əş-Şeyx Rabi", 13/104
[4] "İbtal Məzaim Əbil Həsən", 5

**Üçüncüsü,** əgər alimlərdən hər hansı biri yalnış sözlər söyləmiş alimə bəraət qazandırırsa, onlar adətən o alimə bəraət qazandırmayaraq onu bidətdə ittiham edən digər alimləri pisləmirlər.

**Dördüncüsü,** bu bəraətlər, bu alimin ətrafında mövcud olan, onun yalnış mənanı nəzərdə tutmadığına işarə edən və *"ümumi sözləri təfsilatlı sözlərlə açıqlamaq lazımdır"* qaydasına əsaslanmayan güclü xarici faktorlara və dolayı (köməkçi) dəlillərə (قرائن) əsaslanır. Əks halda, Əhli-Sünnə imamları yalnış sözlər söyləmiş bütün alimlərə və adi sünnilərə bəraət qazandırar və onları bidətdə ittiham etməzdilər.

Odur ki, Məribi imam Şubəyə (Allah ona rəhmət etsin) məxsus – *"Həqiqətən, bu hədislər sizi Allahı zikr etməkdən və namazlardan yayındırır, elə isə onlarla məşğul olmaqdan əl çəkməyəcəksinizmi?"* – sözü dəlil gətirərək alimlərin bu sözləri həqiqi mənada yox, *"ümumi sözləri təfsilatlı sözlərlə açıqlamaq lazımdır"* qaydası əsasında təfsir etdiklərini iddia etdikdə, şeyx Rabi (Allah onu qorusun) ona bu rəddiyyəni vermişdir:

> *"Birincisi, bu, üsulçuların "ümumi sözləri təfsilatlı sözlərlə açıqlamaq lazımdır" qaydası kateqoriyasından deyil".*
>
> *İkincisi, Şubə çox böyük imam idi və hətta hədis elmində "möminlərin əmiri" hesab edilirdi. O, öz həyatını elm almağa, oxumağa və müxtəlif hədis rəvayətçilərinin tənqidinə həsr etmişdir. O, bircə hədis eşitmək üçün uzun və çətin səyahətə yollanırdı. Bu amillər, onun bu sözləri deməklə həqiqi mənanı kəsb etmədiyinə işarə edən böyük dəlillərdir. Eyni şeyi Misar (Allah ona rəhmət etsin) haqqında da demək olar.*
>
> *Onun bu sözləri deməklə həqiqi mənanı nəzərdə tutmadığına digər bir dəlil də, bəzi mühəddislərin (hədis alimlərin) "qərib"[1] hədislərlə məşğul olduqları və onları*

[1] **Qərib** (nadir, qəribə) termini hədisşünaslıq elmində müxtəlif məna kəsb edir. Bu kontekstdə sələflər qərib hədisləri pislədikdə, məhz zəif hədislərin növlərini nəzərdə tuturdular, məsələn mətruk, mətrux, münkər və s. (bax, şeyx Abdullah Buxarinin "ət-Təliqat ər-Radıyyə alə Mənzuməti əl-Bəykuniyyə" kitabı, səh. 141). Həmçinin imam Şubədən bir şəxsin (hədisin rəvayətçisinin) nəql etdiyi hədisin hansı hallarda qəbul edilmədiyi haqqında soruşduqda, Şubə (Allah ona rəhmət etsin) cavab vermişdir: "Əgər bir şəxs tez-tez məşhur imamlardan, onların məşhur şagirdlərinin bilmədiyi hədisləri rəvayət etməyə başlayıbsa, o zaman rəvayətçinin bu hədisləri qəbul olunmur" (bax, şeyx Abdullah Buxarinin "ət-Təliqat ər-Radıyyə alə Mənzuməti əl-Bəykuniyyə" kitabı, səh. 262-263). Odur ki, alimlərin burada bəhs etdiyi bu incə məqamı, "qərib" sözünün digər məşhur mənası ilə, yəni, "rəvayətçilər zəncirindən yalnız bir rəvayətçinin rəvayət etdiyi hədislə" qarışdırmaq lazım deyil (bax. Şərh əl-Mənzumə əl-Bəykuniyyə, Şeyx Useymin, səh. 80). Bu artıq "qərib" sözünün tamamilə fərqli mənasıdır. Ən düzünü isə Allah bilir.

*yaymağı sevdikləri faktıdır. Lakin sələflər qərib hədislərə böyük diqqət ayırmağı qadağan edirdilər. Şubənin şagirdi olan Əbu Xəlifə bu işi "lovğalıq" adlandırırdı. Əbul-Həsən də eyni şeyi rəvayət etmişdir.*

*Üçüncüsü, Şubəyə bu və digər güclü dəlillər səbəbi ilə bəraət qazandıranlar arasında imam Əhməd də var idi. Lakin o, Davud Zahiri və Yaqub ibn Şeybə kimi bir çox böyük alimlərə bəraət qazandırmamışdır. Həmçinin Əhli-Sünnə imamları Quran məsələsində mövqeləri səbəbi ilə İsmail ibn Uleyyəyə, Mühasibiyə, Kərabisiyə bəraət qazandırmayaraq onları bidətdə ittiham ediblər. Bəs Əbul-Həsən (Məribi), Məğravi və Seyyid Qutb kimilər haqqında nə demək olar? (Xəlifə) Ömər (Allah ondan razı olsun) Sabiqə bəraət qazandırmamışdır. İbn Ömər də Məbəd Cühaniyə bəraət qazandırmamış və onunla (dində) əlaqəsi olmadığını elan etmişdir. Halbuki, bundan əvvəl o, Cühanini tanımırdı və Cühaninin bidəti hər kəsə məlum deyildi.*

*Beləliklə, əqidə, cərh-tədil kitabları və digər islam kitabları bəzi şəxslərin əməlləri və ifadələrinin ünvanına tənqidlə doludur. Bu kitabların müəllifləri barədə nə deyirsən? Axı onlar sənin insanları fəal şəkildə dəvət etdiyin bu qaydanın ardınca getməyiblər.*

*Məgər alimlərin davranışı vasitəsilə insanları fitnəyə saldığın qaydanın heç də qayda olmadığına işarə etmirmi? Əgər bu alimlər sənin mənhəcinlə getsəydilər və ona çağırsaydılar, bu gün tənqid və cərh mövcud olmazdı".*[1]

Həmçinin şeyx Rabi (Allah onu qorusun) demişdir:

*"Həqiqət budur ki, bütün ifadələrə bəraət qazandırmaq olmaz, hətta əgər onlar Şubə kimilərinin ağzından çıxırsa belə. Əgər Şubə onların (Davud, Yaqub, Kərabisi, Mühasibi və s.) dediklərini desəydi də, Əhməd onların barəsində dediklərini onun barəsində də deyərdi.*

[1] "Məcmu Kutub və Rəsail və Fətəva əş-Şeyx Rabi 13/104

*Beləliklə, yekun olaraq aşağıdakıları demək olar: Əhli-Sünnənin bəzi böyük alimlərinin təsadüfi ifadələrinə, bu ifadələrin onların mənhəcinə, əqidəsinə, elminə, dəvətinə və Sünnəni qorumasına zidd, həmçinin bu sözləri pis mənada anlamağa imkan verməyən digər güclü dolayı dəlillər (القرائن القوية) səbəbi ilə bəraət qazandırırlar.*

*Lakin bəzən bəzi alimlər hətta bu halda da onlara bəraət qazandırmayaraq tənqidə məruz qoyurlar. Bununla belə, heç kim sənin yalnış qaydana əsaslanaraq onları pisləmir (qınamır) və bunu etmələrini qadağan eləmir".*[1]

Beləliklə, Məribinin əsli şəri olan qaydanı şərh etməsindən belə çıxır ki, sünni və ya bəzilərinin sünni hesab etdiyi şəxs heç vaxt zəlalətə düşə və bidət sözlər söyləyə bilməz. Axı biz onun dilə gətirdiyi həqiqi bidət sözləri nə vaxtsa dediyi doğru sözləri ilə təfsir etməliyik. Odur ki, dərin düşündükdə, bu qaydanın Məribinin təfsirinə müvafiq olaraq tətbiq edilməsi nəticəsində ixvanlara məxsus *"yaxşı və pis əməllərin müvazənə (çəkilməsi, zikir olunması)"* (mənhəc muvəzənət) qaydasından da azğın qaydaya çevrildiyini görmək olar. Çünki insanın nə cür bidət söyləməsindən asılı olmayaraq, onu həmişə müdafiə etmək və bu sözlərin aydın olmayan sözlər olduğunu və onun "tamamilə başqa şeyi" nəzərdə tutduğunu demək olar.

Şeyx Rabi (Allah onu qorusun) Məribinin bu qaydasına rəddiyyə olaraq yazmışdır:

*"Məgər oxucu görmür ki, bu qayda, "müvazənə mənhəci" qaydasından da pis qaydadır? Çünki "müvazənə" qaydasında həm yaxşı və həm də pis əməllər göstərilir, bu qayda isə insanın pis əməlləri haqqında danışmağı tamamilə qadağan edir".*[2]

[1] "Məcmu Kutub və Rəsail və Fətəva əş-Şeyx Rabi ", 13/104
[2] "Məcmu Kutub və Rəsail və Fətəva əş-Şeyx Rabi", 13/40

## 4. “Dəqiqləşdirməyin vacibliyi” (*təsəbbut* التثبت) bəhanəsi ilə Sünnə alimlərinin çəkindirmələrini qəbul etməkdən boyun qaçırmaq

“Sərhədlərin silinməsi” ideologiyasının əksər tərəfdarları, alimlərin müxtəlif azmış şəxslər barədə çəkindirmələrini rədd etmək üçün “dəqiqləşdirməyin vaciblyi” (təsəbbut) prinsipi barədə danışmağı sevirlər. Onlardan hər biri bu prinsipi elə bidətçi nöqteyi-nəzərdən təqdim edir ki, heç kim onları müxtəlif azmış şəxsləri müdafiə və tövsiyyə etməkdən əl çəkməyə məcbur edə bilməsin.

Şeyx Rabi (Allah onu qorusun) Məribinin bu prinsipə əməl etməsi barədə demişdir:

> *“Əbul-Həsən (Məribi) “dəqiqləşdirməyin vacibliyi” bəhanəsi ilə həqiqəti inkar edərək Arurun və digər azmış şəxslərin mənhəcinin ardınca gedir. Belə ki, o deyir: “Mən özüm çəkindirilən insanın sözlərini eşitmədikcə və ya oxumadıqca, kiminsə barəsində çəkindirmələri qəbul etmirəm”. Beləliklə o, bu azğın prinsiplə nüfuzlu alimlərin dəlillərə əsaslanan fətvalarını inkar edir”.*[1]

Şeyx Rabi (Allah onu qorusun) bu prinsipin (təsəbbut) təbliğçilərinin həqiqi niyyətləri barədə aşağıdakıları demişdir:

> *“Onların “təsəbbut” adlandırdığı bu qayda yalnış qaydadır. “Dəqiqləşdirməyin vacibliyi” prinsipi altında onlar həqiqəti öyrənmək və onun həqiqiliyinə əmin olmaq istəmir, əksinə bu qayda ilə həqiqəti inkar etmək istəyirlər. Odur ki, biz onların dəqiqləşdirməyin vacibliyi bəhanəsi ilə möhtərəm alimlərin (müxtəlif şəxsiyyətlərin) halları barədə çoxsaylı ifadələrini rədd etdiklərini görürük. Beləliklə, bu bəhanə zahirən islami görünsə də, əslində dağıdıcı və iblisanədir.*[2]

Beləliklə, biz Məribinin “sərhədlərin silinməsi” ideologiyası ilə bağlı yalnız bəzi zəlalətlərini sadaladıq. Məribi həmçinin Peyğəmbərin (Allahın ona salavat və salamı olsun) səhabələri haqqında nalayiq ifadələr işlədərək onları təhqir etmək bidətinə də düşmüşdür. Lakin bu fəsildə məhz “sərhədlərin silinməsi” (təmyi’) ixvan ideologiyasının yayılması problemini

---

[1] “Məcmu Kutub və Rəsail və Fətəva əş-Şeyx Rabi”, 13/78-79
[2] http://www.sahab.net/forums/?showtopic=115155

nəzərdən keçirdiyimiz üçün, oxucunun vaxtını Məribinin digər zəlalətləri ilə tanışlığa sərf etməmək qərarına gəldik.

Bu fəslin yekunu olaraq qeyd etmək lazımdır ki, Məribinin fitnəsi Sələfi Dəvəti üçün Arurun fitnəsindən daha təhlükəli olsa da, Peyğəmbərin (Allahın ona salavat və salamı olsun) həqiqi varisləri – Əhli-Sünnə alimləri – Allahın köməyi ilə Əbul-Həsən Məribinin "sərhədlərin silinməsi" ideologiyasını təkzib etdikdən və bu ideologiyanın azğınlığını göstərdikdən sonra, bu fitnə səngidi. Allahın Elçisi (Allahın ona salavat və salamı olsun) dediyi kimi:

***"Bu elmi sonradan gələn hər bir nəsildən, o nəslin ədalət sahibi olan adamları daşıyacaqlar. Onlar bu elmdən, ifrata varanların təhriflərini, azğınların əlavələrini və cahillərin yanlış izahlarını aradan götürəcəklər".*** [1]

Lakin, təəssüflər olsun ki, Məribinin və onun qaydasının tənəzzülü ilə "sərhədlərin silinməsi" ixvan prinsipinin ideoloqlarının fitnəsi tamamilə yox olmadı. Bu dəfə Uca Allahın hikməti və qədərinə müvafiq olaraq, Sələfi Dəvəti "sərhədlərin silinməsi" ideoloqlarının bu günə qədər davam edən yeni və daha güclü fitnəsi ilə üz-üzə qaldı. Yeni "sərhədlərin silinməsi" (təmyi') ideologiyası bir qədər şəklini dəyişərək və təkmilləşərək sələfilər arasında "hələbilik" adı altında acınacaqlı bir şəkildə məşhurlaşdı.

Sonda deyirik ki, həmd Aləmlərin Rəbbi Allaha məxsusdur və Onun Peyğəmbərinə salamı və salavatı olsun…

---

[1] Bu hədisi Beyhəqi rəvayət edib və şeyx Albani hədisi "səhih" kimi təsnifatlaşdırıb

# 3-cü fəsil

## Hələbiçilik

Kitabın öncəki iki fəsillərində sərhədlərin silinməsi fitnəsinin tərəfdarlarının – mumeyyilik fitnəsinin meydana gəlməsi və bu ideologiyanın Adnan Arur və Əbul-Həsən Məribinin başçılığı altında təkamülü barədə danışdıq.

Biz, onlara məxsus azğın qaydalarla tanış olduq və əmin olduq ki, onlar və tərəfdarları öz yeni meydana çıxmış qaydaları ilə həm xəvariclərdən, həm də digər firqələrdən ibarət olan şəxsləri müdafiə edir, onları sələfilərə məsləhət bilir, onları sələfilərin sıralarına daxil edir, beləliklə dolayı yolla sələfilər arasında xəvaricliyi və digər bidətləri təbliğ edirlər.

Bu fəsildə isə Allahın köməkliyi ilə biz “sərhədlərin silinməsi” ideoloqlarının bu günə qədər də davam edən yeni və daha güclü fitnəsi ilə tanış olacağıq. Yeni “sərhədlərin silinməsi” ideologiyası, yaxud “ixvanlıq yeni simada” bir qədər şəklini dəyişib, təkmilləşib və “hələbiçilik” adı altında tanınmışdır. Bu yeni ideologiya dünyanın demək olar ki, bütün ölkələrində sələfilərin sıralarına fitnə salmağa nail olub. Şeyx Rabi ibn Hədi əl-Mədxali (Allah onu qorusun) Hələbi və onun tərəfdarlarının fitnəsi barədə danışdıqda deyir:

> *“Onlar “Müsəlman qardaşların” yolu ilə gedirlər, çünki onların mənhəci (yolu), ixvanların mənhəci kimi Sələfi mənhəcinin əleyhinə müharibə aparmaq üzərində qurulmuşdur. İxvanlar sələfilərin mənhəcinə zidd olan şərli prinsiplərə malikdirlər. Hələbi və onun təriqəti də Sələfi mənhəcinə zidd olan şərli prinsiplərə malikdir, lakin onların prinsipləri ixvanların prinsiplərindən də təhlükəlidir”*.[1]

Həmçinin şeyx Rabi (Allah onu qorusun) “sərhədlərin silinməsi” (mumeyyilik) ideoloqlarının fitnəsini təsvir edərkən deyib:

[1] “Ümdətü əl-Bəni fi Raddi Təsılati və Zələləti Əli əl-Hələbi”, səh. 32

*“Bu fitnələrin liderləri, baniləri, təhrikçiləri və yayıcıları Sünnə ardıcılları olan bilikli insanlar tərəfindən ifşa edilmişdir. Bu fitnənin daşıyıcıları Adnan Arur, Əbul-Həsən Məribi və Əli Həsən Hələbi, həmçinin onların prinsiplərinin tərəfdarı olmaqla və onların qaydalarına əsaslanmaqla onların ardınca gedənlərdir”.*[1]

Şeyx Rabi (Allah onu qorusun) Hələbinin başçılığı altında mumeyyilər fitnəsinin Sələfi dəvətinə təsirini təsvir edərək deyib:

*“(Hələbinin) bu təriqəti neçə-neçə sələfi gəncləri korlayıb! Onların əqidəsini, mənhəcini və əxlaqını korlayıb!”.*[2]

Şeyx Rabinin (Allah onu qorusun) mumeyyilərin Sələfi dəvətinə qarşı olan dağıdıcı və zərərli fəaliyyətləri barədə yuxarıda qeyd olunan fikirləri və təsvirləri onu göstərir ki, onların bidətləri və zəlalətlərinə düşməmək və özünü müdafiə etmək üçün sərhədlərin silinməsi (mumeyyilik) ideologiyasının əsaslarını və prinsiplərini öyrənmək nə qədər mühümdür.

Axı əgər şər və bidət yayılan zaman müsəlman onun mahiyyəti və təsviri haqqında məlumatlı olmazsa, özünün də xəbəri olmadan asanlıqla bu zəlalətə düşər və bidət tərəfdarlarından birinə çevrilə bilər. Fitnədən xilas olma yollarının təsvir olunduğu məşhur uzun hədisdə Peyğəmbərin səhabəsi Huzeyfə ibn Yəmən demişdir:

*“İnsanlar Peyğəmbərdən (Allahın ona salavat və salamı olsun) xeyir barədə soruşardılar, mən isə mənə üz verəcəyindən qorxaraq ondan şər barəsində soruşardım”.*[3]

Ərəb şairi öz məşhur şerində dediyi kimi:

عَرَفْتُ الشّرَّ لا لِلشّرّ ❋❋❋ لَكِنْ لِتَوَقّيهِ

[1] “Bəyan Mə Fi Nəsıhə İbrahim ər-Ruheyli min əl-Xələl və əl-İxləl”, səh. 10
[2] “Ümdətü əl-Bəni fi Raddi Təsılati və Zəlaləti Əli əl-Hələbi”, səh. 33
[3] Bu hədisi Buxari və Müslim rəvayət edib.

وَمَنْ لَمْ يَعْرِفِ الشَّرَّ *** من الناسِ يقعْ فيهِ

*“Şəri, şər etmək üçün öyrənmədim*

*Ondan qorunmaq üçün öyrəndim.*

*Kim bilməsə şər nədir,*

*Ona düçar olacağı mütləqdir”.*

Məhz bu səbəbdən İslam ümməti üçün narahatçılıq keçirən həqiqi Əhli Sünnə alimləri ümumi olaraq mumeyyilər, xüsusən də Hələbinin təhlükəli zəlalətləri və bidətlərini bəyan edərək rəddiyyələr vermiş, bunlardan çəkindirmiş və bu barədə yazılar qələmə almışlar.

Qarşınızdakı bu fəsil isə oxuculara sələfi alimlərinin və elm tələbələrinin bu şübhələrə qarşı rəddiyyə olaraq yazdıqları müxtəlif kitablarından və məqalələrindən götürülmüş qısa bir məcmunu təqdim etmək cəhdindən başqa bir şey deyildir[1].

Uca Allahdan bu cüzi əməyi İslam və müsəlmanlar üçün faydalı etməsini və Onun razılığını qazanmaq üçün səbəb etməsini diləyirəm.

## Hələbiçilik termininin meydana gəlməsi

“Hələbiçilik” termini Əli Həsən Əbdul-Həmid əl-Hələbi, qısa olaraq isə Əli Hələbi adlı bir insanın adı ilə bağlıdır. Şeyx Albani (Allah ona rəhmət etsin) Suriyadan İordaniyaya köçdükdən sonra, İordaniyada yaşayan Hələbi demək olar ki, şeyxin vəfatınadək onun məclislərində iştirak etmişdir.

Üç şeyxin – İbn Bəz, ibn Useymin və Albaninin (Allah onlara rəhmət etsin) yaşadığı dövrdə Hələbi bir çox sələfi alimlərinin, o cümlədən şeyx Rabi, Muqbil, Abbad, Ubeyd əl-Cabiri və digərlərinin tanıdığı və tövsiyyə etdiyi sələfi dəvətçi hesab olunurdu.

[1] Bu məqalənin əsasını şeyx Rabinin Hələbi barəsində rəddiyyələrinin məcmusu olan “Ümdətü əl-Bəni fi Raddi Təsılati və Zəlaləti Əli əl-Hələbi” adlı kitabı; həmçinin şeyx Raid Əli Tahirin, şeyxlər Rabi ibn Hədi əl-Mədxali və Muhamməd ibn Hədi əl-Mədxali (Allah onları qorusun) tərəfindən oxunub yoxlanılmış “Əl-Bərahin əl-‘Ətidə Fi Kəşfi Əhvəl və Təsılət Əli əl-Hələbi əl-Cədidə” kitabı təşkil edir.

Adnan Arurun fitnəsi hələ yenicə meydana gəldikdə, Hələbi ilk əvvəl şeyx Rabini (Allah onu qorusun) və digər alimləri dəstəklədi və Arurdan öz batil fikirlərindən üz döndərməyi tələb etdi.

Həmçinin, Məğravinin fitnəsi baş qaldırdıqda, Hələbi şeyx Rabini (Allah onu qorusun) və digər alimləri dəstəklədi və Məğravidən də öz açıq-aşkar olan xətalarından qayıtmağı tələb etdi.

Dörd şeyxin – İbn Bəz, ibn Useymin, Albani və Muqbilin (Allah onlara rəhmət etsin) ölümündən sonra Məribinin fitnəsi açıq-aşkar şəkildə baş qaldırdıqda isə Hələbi orta mövqe tutdu – bir tərəfdən o, şeyx Rabini (Allah onu qorusun) Məribi əleyhinə rəddiyyələrində dəstəkləyir, digər tərəfdən isə Məribidən çəkindirməkdən və onu həcr (boykot) etməkdən imtina edirdi.

Daha sonra Fəlih Hərbinin başçılığı altında, sələfi alimlərini və elm tələbələrini əsassız şəkildə bidətdə ittiham edən həddadilərin fitnəsi meydana gəldi. O zaman şeyx Rabi və digər alimlər sələfi mənhəcinin müdafiəsinə qalxdılar və həddadiləri bidətdə və zəlalətdə ittiham edərək onların zəlalətlərini bəyan etdilər. Məhz bu məqamda Hələbi “əsassız təbdi (bidətdə ittiham)” şüarı altında öz yeni mənhəcini elan etdi.

İlk baxışdan hər kəsə elə gəldi ki, Hələbi bununla şeyx Rabi və digər Sünnə alimlərini dəstəkləyərək həddadilərə müharibə elan etdi. Lakin tezliklə aydın oldu ki, bu yeni mənhəc altında Hələbi sələfi şeyxlərə müharibə elan edib və müxtəlif azmış şəxslərin müdafiəsinə qalxaraq “sərhədlərin silinməsi” (mümeyyilik) ixvan ideologiyasının yeni fitnəsinə başladı[1].

[1] Bax. “Əl-Bərahin əl-‘Ətidə Fi Kəşfi Əhvəl və Təsılət Əli əl-Hələbi əl-Cədidə”, səh. 24-75

Beləcə, Hələbi sələfilərə qarşı müharibə elan edərək, Adnan Arur, Mağravi, Məribi[1], Muhammədd Hassan[2], Əbu İshaq Huveyni[3], Yasir Burhamini[4], "Hizbu Nur" partiyasının başçılığı altında olan isgəndəriyyəli hizbiçilər[5] kimi azmış şəxsiyyətləri və başqa bir çox digər "oturaq xəvariclərı" (xəvaric qaadiyyə) və azmış şəxsiyyətləri müdafiə və tövsiyyə etməyə başladı. Hələbi bütün bu bidətçiləri sadəcə olaraq sələfilikdən çıxarmayan "xətalara yol vermiş" sələfilər hesab edirdi. Bu azmış insanları müdafiə və tövsiyyə etməyə davam edən Hələbi onlara çoxsaylı əsassız üzrlər gətirməyə, eyni zamanda isə öz iti və zəhərli dilini sələfi alimlərə və sələfi gənclərə uzadaraq onları ən alçaq sözlərlə təhqir etməyə başladı.

## Hələbidən çəkindirən bəzi alimlər

Hələbinin zəlalətləri bir çox sələfi alimlərə məlum olduqdan sonra onlar ondan çəkindirdilər və onu bidətdə ittiham etdilər. Hələbidən çəkindirən və onun zəlalətlərini bəyan edən alimlər sırasından bəziləri:

- Şeyx Əhməd Nəcmi (Allah ona rəhmət etsin)
- Şeyx Saleh Fövzan (Allah onu qorusun)
- Şeyx Rabi ibn Hədi (Allah onu qorusun)
- Şeyx Ubeyd Cabiri (Allah onu qorusun)
- Şeyx Muhamməd ibn Hədi (Allah onu qorusun)
- Şeyx Saleh Suheymi (Allah onu qorusun)
- Şeyx Fələh Məndəkər (Allah onu qorusun)
- Şeyx Abdullah Buxari (Allah onu qorusun)
- Şeyx Muhəmməd Bəzmul (Allah onu qorusun)

---

[1] Bu üç şəxsin zəlalətləri ilə "Mumeyyilər kimdir və ya ixvanlığın yeni siması" məqaləsində təfərrüatı ilə tanış olmaq olar

[2] İnqilabı və prezident Mübarəkə qarşı **xurucu** (üsyanı) dəstəkləmiş misirli qutbiçi. Bundan əlavə, o, öz ailəsi ilə nümayişlərə çıxmış və bütün misirliləri bu "mübarək" nümayişə çıxmağa çağırmışdır!

[3] Süruri xəvaric fikirlərin sahibi. Onun zəlalətlərindən: günahda israrlı olanı təkfir edir və bugünkü müsəlman rəhbərləri şəri (qanuni) hesab etmir.

[4] Və ya özünü yalandan "isgəndəriyyəli sələfilər" adlandıran isgəndəriyyəli camaat. Onlar arasından ən məşhur şəxsiyyətlər: Yasir Burhami, Muhamməd ibn İsmayıl Muqəddəm, Əhməd Fərid, Səid ibn Əbduləzim və digərləri. Onların hamısı Seyid Qutba qarşı sevgi bəsləyən, təriflər yağdıran oturaq xəvariclərdir. Muqəddəm Seyid Qutbu emosional bir şəkildə tərifləyərək demişdir: "O, ağa (ərəbcə "seyid") kimi yaşamış və görkəmli insan (ərəbcə "qutb") kimi ölmüş və öz həyatını İslam üçün qurban vermişdir" (bax: http://www.4salaf.com/vb/showthread.php?t=26013).

[5] Misirin oturaq xəvariclərindən və isgəndəriyyəli hizbçilərin liderlərindəndir. Müsəlman rəbhbərləri qanuni hesab etmir və onların devrilməsni icazəli görür. Bunun əsasında o, öz hizbi "Nur" partiyasını qurmuş və Misirdə hakimiyyət uğrunda mübarizəyə başlamışdır.

- Şeyx Xalid Zafiri (Allah onu qorusun)
- Şeyx Abdullah Zafiri (Allah onu qorusun)
- Şeyx Aid Şəmri (Allah onu qorusun)
- Şeyx Həsən ibn Əbdul-Vəhhab Bənna (Allah onu qorusun)
- Şeyx Muhamməd Səid Raslən (Allah onu qorusun)
- Şeyx Xalid Osman (Allah onu qorusun)

Yuxarıda adı qeyd olunan alimlərdən bəzilərinin Hələbi və onun zəlalətləri barədə bəzi mülahizələrini təqdim edək:

1) Şeyx Əhməd Nəcmi (Allah ona rəhmət etsin) demişdir:

> *"Onun barəsində ciddi iradlar var, odur ki, deyə bilmərəm ki, ondan elm almaq olar."*[1]

2) Şeyx Saleh Fövzan (Allah onu qorusun) demişdir:

> *"O, öz fikirləri, cahilliyi və yalanı ilə insanları doğru yoldan azdırır."*[2] [3]

3) Şeyx Rabi (Allah onu qorusun) demişdir:

> *"Əgər Hələbi bidətçi deyilsə, o zaman yer üzərində ümumiyyətlə bidətçi yoxdur!"*[4]

Həmçinin o demişdir:

> *"Hələbinin təlimi bidətçi fəlsəfəçilərin (əhlül-kəlam) və digər bidətçilərin təlimindən şərlidir."*[5]

4) Şeyx Ubeyd Cabiri (Allah onu qorusun) demişdir:

> *"O, azmış və digərlərini də azdıran bir bidətçidir. O, zəlaləti təbliğ edən, insanlar arasında fəsad yayan biridir."*[6]

---

[1] "Ümdətü əl-Bəni fi Raddi Təsılati və Zəlaləti Əli əl-Hələbi", səh. 24
[2] Bax, oradaca.
[3] Şeyx Fövzan, həmçinin Səudiyyə Ərəbistanı Fətvalar üzrə Daimi Komitəsi iman məsələsində xətalarına görə Hələbiyə rəddiyyə veriblər. Növbəti məqalələrimizdən birində biz bu mövzunu daha təfsilatlı şəkildə nəzərdən keçirəcəyik inşəAllah
[4] "Ümdətü əl-Bəni fi Raddi Təsılati və Zəlaləti Əli əl-Hələbi", səh. 25
[5] Bax. oradaca
[6] "Ümdətü əl-Bəni fi Raddi Təsılati və Zəlaləti Əli əl-Hələbi", səh. 24

5) Şeyx Muhamməd ibn Hədi (Allah onu qorusun) demişdir:

> *“Onun böyük zəlalətləri var.”*[1]

6) Şeyx Həsən ibn Əbdul-Vəhhab Bənna (Allah onu qorusun) demişdir:

> *“Allah artıq onun halını aşkara çıxarıb və onun həqiqi simasını ifşa edib.”*[2]

7) Şeyx Raslən (Allah onu qorusun) Hələbi və onun “Kulli sələfiyin” adlı forumu haqqında demişdir:

> *“Hələbinin müsəlmanlar arasında təfriqə salmaq, Sünnə və onun tərəfdarları əleyhinə mübarizə aparan hər bir kəsi dəstəkləmək üçün seçdiyi ”Zərərverici forumdur.”*[3]

## Hələbiçiliyin qaydaları və prinsipləri

Biz, artıq “sərhədlərin silinməsi” (mumeyyi) ideologiyası liderlərinin doğru yoldan azmış müxtəlif şəxsiyyətləri müdafiə və tövsiyyə etmək üçün uydurduqları əvvəlki qayda və prinsiplərlə tanış olduq. Biz, həmçinin Məribinin də Arurdan sonra bu prinsip və qaydaların şəklini dəyişərək onları daha hiyləgər hala salmasının və onları əhli-Sünnə qaydaları və prinsiplərinə bənzətmələrinin şahidi olduq.

Hələbi də eyni yolla getməkdədir. O, Arur və Məribiyə məxsus əvvəlki bir sıra qaydaların şəklini məharətlə dəyişdi və azmış şəxslərin müdafiəsi üçün Sələfi mənhəcinin əleyhinə daha məkirli qaydalar və prinsiplər uydurdu. Beləliklə, Hələbi həqiqətən fitnə salmağa və dünyanın bir çox guşələrində sələfi gəncləri parçalamağa nail oldu.

Hələbi özünə məxsus yeni qayda və prinsipləri öz yeni “Mənhəc əs-Sələf əs-Salih” adlı kitabında yazaraq şərh etdi. Məhz bu kitab səbəbi ilə bir çox sələfi alimləri Hələbini Əhli Sünnə sıralarından çıxardılar və Hələbinin bu kitabda təsis etdiyi qaydaları isə “Hələbi qaydaları” adlandırmağa başladılar.

---

[1] Bax. oradaca
[2] Bax. oradaca
[3] Şeyxin rəsmi internet səhifəsi: http://www.rslan.com/tafre31/taleat_rad_ala_halaby-01.php#sthash.TjSAJaUl.dpuf

Əsas Hələbi qayda və prinsiplərini şərh etməzdən, onların zəlalətlərini bəyan etməzdən öncə, ilk əvvəl bu qaydalara ümumi fikir bildirmək, onların Arurun və Məribinin qaydalarından fərqlərini göstərmək istəyərdik.

**Beləliklə, Hələbinin qayda və prinsipləri haqqında qısa şəkildə bunları demək olar:**

**Birincisi,** Arur və Məribinin əvvəlki qayda və prinsipləri kimi bu qayda və prinsiplər də müxtəlif bidət tərəfdarlarının müdafiəsini və tövsiyyə olunmasını qanuniləşdirməkdən ibarətdir.

**İkincisi,** bir çox məsələlərdə Hələbinin qayda və prinsipləri elə Adnan Arurun və Məribinin başqa adlar altında olan və ya cüzi dəyişikliklərə məruz qalmış mumeyyi qaydalarıdır.

**Üçüncüsü,** hələbiçilik təbliğinin Arur və Məribinin təbliğindən əsas açıq-aşkar fərqi ondadır ki, Hələbi öz sələfləri kimi *"Biz (şəxsləri) düzəltməli, lakin onları cərh etməməliyik"* qaydasına çağırsa da, azmış şəxsiyyətlərə rəddiyyə verməyi və onlardan çəkindirməyi qadağan etmir. **Lakin o, bu bidətçilərin zəlalətlərini göstərən çoxsaylı, açıq-aydın dəlillərin olmasına baxmayaraq, nə özünü və nə də həmfikirlərini alimlərin bu azmış şəxsiyyətlərdən çəkindirmələrinə əməl etməyə gərəkli olduqlarını görmür və özlərinin batil *"ilzam (məcburiyyət) yoxdur"* qaydasını işə salırlar.**

İndi isə əsas Hələbi qayda və prinsipləri haqqında daha ətraflı:

## "Geniş mənhəcə" çağırış (dəvət) və "*Biz (şəxsləri) düzəltməli, lakin onları cərh etməməliyik*" qaydası.

Kitabın 1-ci və 2-ci fəsillərində Adnan Arur və Əbul-Həsən Məribinin uydurduqları bu prinsiplərin nə qədər şərli olduğuna aydınlıq gətirdik və alimlərin bu prinsiplərə verdiyi rəddiyyələri təqdim etdik.

Lakin təəssüflər olsun ki, Hələbi bu prinsiplərə dəvət etməyə, Əhli Sünnədən sayılmayan şəxsləri Əhli Sünnə dairəsinə daxil etməyə və onları müdafiə etməyə başladı.

Hələbi deyir:

*“And içilməsi caiz olan yeganə Allaha and olsun ki, Sələfi dəvətinin gənclərini, onun şeyxlərini və dəvətçilərini səbirli olan, islah və nasihət edən bir kimsənin mövqeyi ətrafında birliyə çağırmaq, cərh edən, çəkindirən və zəlalətdə ittiham edənin ətrafında birliyə çağırmaqdan min dəfə yaxşıdır”*[1].

Həmçinin o deyir:

*“Sizcə kimin rəyini seçmək daha yaxşıdır – bu seçimin problemlərini və mənfi nəticələrini nəzərə alaraq bir sıra Sünnə tərəfdarlarından çəkindirən, onları cərh edən və zəlalətdə ittiham edənin rəyini, yoxsa bu cür seçimin müsbət təsirlərini və arzu olunan nəticələrini nəzərə alaraq tələsməyən, Sünnə tərəfdarlarına səbir göstərən, onları islah edən və nəsihət edənlərin rəyini?!”*[2].

“İhyə Turas” fondunu müdafiə edən məqamda isə Hələbi belə demişdir:

*“Əslində bu fondun cərh olunmasını onu tövsiyə edən və dəstəkləyənlərin cərh olunması hesab etmək olar. Bəli, hər kəs xəta edə bilər. Lakin bizim danışdığımız şey bidət və bidətdə ittiham etməkdir!”*[3].

Şeyx Rabi (Allah onu qorusun) Hələbinin bu prinsiplərini bəyan edərək və ona rəddiyyə verərək deyir:

*“İxvanların Sələfi mənhəcinə zidd olan şərli prinsipləri, qaydaları olduğu kimi Hələbi və onun təriqətinin də Sələfi mənhəcinə zidd olan şərli prinsipləri vardır. Lakin bunların prinsip və qaydaları ixvanların prinsiplərindən daha da təhlükəlidir. Bunlardan:*

*Başda ixvanlar olmaqla bidətçiləri dəstəkləmək üçün uydurulmuş “Geniş mənhəc prinsipi”. Bu prinsip dostluq və düşmənçilik (əl valə vəl bəra) məsələsində, bidət sahiblərinin cərh edilməsi və onların zəlalətlərinin bəyan olunmasının vacibliyi məsələsində sələflərin mənhəcinə ziddir.*

---

[1] Hələbinin “Fə Əyyu əl-Fəriqayni Əhəqqu bil-Əmni İn Kuntum Tə’ləmun Bələu ət-Təcrih Əm Livau ət-Təshih” adlı məqaləsindən.
[2] Bax. oradaca
[3] “Mənhəc əs-Sələf əs-Salih”, 2-ci nəşri, səh. 147

*Həmçinin də onların dostluq və düşmənçilik, bidət əhlinin cərh edilməsi və onlardan çəkindirməyin vacibliyi məsələlərində sələfilərin mənhəcinə zidd olan "Biz (şəxsləri) düzəltməli, lakin onları cərh etməməliyik" prinsipi"*[1].

## "Muvəzənət" prinsipinə riayət

Mənhəc əl-muvəzənət (منهج الموازنات) – və ya *"yaxşı və pis əməllərin bərabər çəkilməsi prinsipi"* – ilk əvvəldən ixvanlara məxsus olan və daha sonra Adnan Arur və digər mumeyyilərin fəal şəkildə yaydığı bir prinsipdir. Bu prinsipə əsasən, əgər sən hər hansı bir bidətçidən çəkindirirsənsə, o zaman "ədalətli" olmaq üçün onun zəlalətləri ilə bərabər yaxşı əməllərini də qeyd etməlisən.

Hələ Arurdan öncə ixvanlar müxtəlif bidətçiləri, xüsusilə də öz əqidələrində olmuş, böyük zəlalət sahibi Seyyid Qutbu və Həsən Bənnəni müdafiə etmək üçün bu prinsipi tətbiq etmişdilər. Əhli-Sünnə alimləri "mənhəc əl-muvəzənət" haqqında öyrəndikdə, onu tənqid etdilər və bu prinsipin bidət olduğunu bildirdilər[2]. Onlar izah etdilər ki, insanın tərcümeyi-halını tərtib etməklə onun özündən çəkindirmək arasında fərq var. Birinci halda bidətçilərin bəzi yaxşı əməllərini qeyd etmək icazəlidir, əgər bu, oxucuları və ya dinləyiciləri doğru yoldan azdırmayacaqsa. İkinci halda (yəni, müsəlmanların hər hansı bir şəxsdən çəkindirilməsi halında) bu insanın yaxşı əməlləri barədə danışmaq qadağandır. Çünki bu, çəkindirməni kəsərdən salacaq və lazımi effekti verməyəcəkdir. Bundan əlavə, xüsusilə əgər dinləyicilər elm tələb etməyən müsəlmanlardırsa, bu, əksinə bidətçi haqqında yaxşı rəyin formalaşmasına səbəb olacaqdır.

Lakin Hələbi azmış insanların xeyir əməllərindən danışmağın icazəli və bəyənilən olduğu barədə özündən iki hal uyduraraq, deyir:

---

[1] "Ümdətü əl-Bəni fi Raddi Təsılati və Zəlaləti Əli əl-Hələbi", səh. 32-33

[2] "Müvazənə prinsipinin" ən fəal tənqidçilərindən biri şeyx Muhamməd Nasirəddin əl-Albani (Allah ona rəhmət etsin) idi. Onun bu prinsiplə əlaqəli dediyi sözlərdən bəziləri:
"Bu bidətçi bir yoldur…Allahu Əkbər"
"Bu, insanların tənqid olunmasında təzə peyda olmuş "müvazənə" adlanan bir bidətdir"
Bu gün çoxlarının haqqında danışdığı "müvazənə prinsipinin" uydurma olduğuna şübhə yoxdur"
"Onlar ("müvazənə prinsipinin" müdafiəçiləri) fitnə salmaq və özlərinə sərf edən təfsirə nail olmaq üçün mütəşabih dəlillərin ardınca gedirlər"
"Müvazənə prinsipi" bidətini uyduranlar şübhəsiz ki, Qurana və Sünnəyə zidd gedirlər" (bax. "Siyanətul əs-Sələfi min Vəsvəsəti və Təlbisəti Əli əl-Hələbi", səh. 149)

*“Əgər bu, onun haqqa (doğru yola) qayıtması üçün nəsihət məqsədilə edilirsə, yaxşı olardı ki, rəddiyyə verdiyin kəsin xeyir əməllərini xatırladasan”.*

*“Əgər buna ehtiyac varsa, rəddiyyə verdiyin kəsin yaxşı əməllərini xatırlatmaq icazəlidir”*[1].

Hələbinin bu təfsirindən sonra təəccüblü deyil ki, o, buna ehtiyac olduğunu və ya hətta ola bilsin ki, bunu bəyənilən bir əməl hesab edərək müxtəlif azmış şəxsiyyətlər barədə yaxşı fikir söyləyir və onları tərifləyir.

Hələbinin bu əsassız bidətçi təfsirinin sadəcə bir nümunəsini dövrümüzün xəvariclərinin lideri olmuş Üsamə bin Ladenin timsalında nəzərdən keçirək. O dövrdə Hələbidən “Əl-Qaidə” xəvaric terrorçu təşkilatının başında duran Bin Laden haqqında soruşduqda, onun tam cavabı belə olmuşdur:

*“Üsamə bin Laden zəngin və din üçün narahatlıq keçirən bir insandır. Bununla bərabər o, elm tələbəsi deyil. Lakin o, özü də gözləmədən mətbuatda və insanların dilində məşhur bir insana çevrildi. İndi o, hizbçilər, təkfirçilər və onların bənzərləri sırasından bir qrup insanlarla əhatələnib. Necə deyərlər, onun daha itirməli bir şeyi yoxdur. Çünki o, Amerika tərəfindən axtarışda olan bir nömrəli insandır, odur ki, o, əlindən gələni edir. Beləliklə, biz hesab edirik ki, inşəAllah o, ixlaslı insandır. Biz, Allah qarşısında heç kəsi təmizə çıxarmırıq. Buna baxmayaraq biz, onun törətdiyi və ya onun ayağına yazılan (!) əməllərlə razı deyilik və bizim mənhəcimizdən və alimlərimizin mənhəcindən məlum olduğu kimi biz, onlardan razı deyilik.”*[2].

Hələbinin xəvariclərin müasir lideri olan, müsəlmanları küfürdə ittiham edən və müsəlman ölkələrində terror aktlarını icazəli görən Üsamə bin Ladeni necə təsvir etdiyinə diqqət yetirin:

- *“o, din üçün narahatlıq keçirən bir insandır”,*
- *“ o, əlindən gələni edir”,*

[1] “Mənhəc əs-Sələf əs-Salih”, 2-ci nəşr, səh. 261
[2] http://www.ajurry.com/vb/showthread.php?t=32444

- *“biz hesab edirik ki, o, ixlaslı insandır. Biz, Allah qarşısında heç kəsi təmizə çıxarmırıq.”*

Bu sözlər sadəcə xeyir əməllərin xatırlanması deyil, bu azmış xəvaricin ünvanına həqiqi tərifdir. Axı “*Biz, Allah qarşısında heç kəsi təmizə çıxarmırıq*” sözü yalnız tərif zamanı deyilən bir sözdür.

Peyğəmbər (Allahın ona salavat və salamı olsun) demişdir:

> ***“Əgər öz qardaşınızı tərifləyəsi olsanız, belə deyin: onun belə olduğunu zənn edirəm, lakin onu Allah qarşısında təmizə çıxarmıram ”*[1].**

Bundan əlavə, Hələbinin Üsamə bin Ladeni necə müdafiə etməsi və onun böyük zəlalətlərinə və qorxunc cinayətlərinə necə bəraət qazandırması barədə düşünün:

Hələbi deyir:

- *Necə deyərlər, onun daha itirməli bir şeyi yoxdur. Çünki o, Amerika tərəfindən axtarışda olan bir nömrəli insandır, odur ki, o, əlindən gələni edir.*

- *İndi o, hizbçilər, təkfirçilər və onların bənzərləri sırasından bir qrup insanlarla əhatələnib.*

Burada sual meydana gəlir: Bin Laden sadəcə hizbçilər və təkfirçilərlə əhatələnib, yoxsa elə özü təkfirçidir?!

Hələbi deyir:

- *Buna baxmayaraq, biz, onun törətdiyi və ya onun ayağına yazılan əməllərlə razı deyilik.*

Bu sözlərdə (*“biz razı deyilik”* və digər sözlər) Bin Ladenin cinayətləri və zəlalətləri açıq-aşkar şəkildə cüziləşdirilib. Axı biz müxtəlif fiqhi məsələlərdə hətta Sünnənin böyük alimləri ilə də razılaşmaya bilərik. Xəvaric və terrorçu Bin Ladenə gəldikdə isə, bu artıq sadəcə onunla razı olmamaq məsələsi deyil – burada artıq söhbət onu zəlalətdə ittiham etməyin vacibliyindən və ondan və onun azmış fikirlərindən çəkindirməkdən getməlidir.

---

[1] Hədisi İbn Macə rəvayət edib və şeyx Albani hədisi “səhih” olaraq təsnifatlaşdırıb.

Hələbinin Bin Laden haqqında yuxarıda qeyd olunan sözləri üzərində diqqətlə düşündükdə, onun *"Bununla bərabər, o, elm tələbəsi deyil"* sözündən başqa Bin Ladenin ünvanına tənqid (cərh) olan bir kəlmə belə tapa bilmərik[1].

Nəticə olaraq isə, ey möhtərəm oxucu, şeyx Abdul-Muhsin Abbadın (Allah onu qorusun) Bin Laden barəsində dediyi sözləri Hələbinin yuxarıda qeyd olunan sözləri ilə müqayisə et ki, Hələbinin mumeyyilik etdiyinə bir daha əmin olasan.

Sual verən:

> *"Bin Ladenin öldürülməsi ilə bağlı hansı mövqe sərgiləmək lazımdır? Bəziləri onun öldürülməsinə sevinir, digərləri isə deyir ki, o, mücahid olub və şəhid ölümü ilə ölüb".*

Şeyx Abbad (Allah onu qorusun):

> *"O necə mücahid ola bilər!? Bəli, o mücahiddir, lakin şeytanın yolunda vuruşan mücahiddir. Üsamə bin Ladenin müsəlmanlara böyük zərəri toxunub və şübhə yoxdur ki, onun ölümü onlar üçün yüngüllük olacaq. İnsanlar onun ölümündən sonra rahat nəfəs alacaqlar"*[2].

Diqqət yetirin ki, şeyx Abbad (Allah onu qorusun) onun haqqında bu sərt və Sələfi əqidəsinə müvafiq cavabı bin Laden öləndən sonra vermişdir. Hələbi isə, bin Ladenin halı haqqında öz mumeyyi əqidəsinə müvafiq cavabını o hələ sağ ikən və müasir dövrün ən təhlükəli xəvaric terrorçu təşkilatına rəhbərlik edərkən vermişdir!

Allahdan bizi zəlalətə düşməkdən qorumasını istəyirik.

## Bidətçilərin müdafiəsi üçün əqidə və mənhəc arasında fərq qoyulması

Hələbinin bidətçiləri müdafiə etmək üslublarından biri də əqidə və mənhəc arasında fərq qoymasıdır. Hələbi xəvaricləri və özlərini sələfiliyə nisbət edən, lakin müsəlman rəhbərlərə qarşı xurucu (üsyanı) icazəli görən, dəvət metodunda və bidətçilərlə

[1] "Əl-Bərahin əl-'Ətidə Fi Kəşfi Əhvəl və Təsılət Əli əl-Hələbi əl-Cədidə", səh. 133
[2] http://www.sahab.net/forums/index.php?showtopic=120559

münasibət məsələlərində sələflərin yolu ilə getməyən azmış şəxsiyyətləri müdafiə etmək məqsədilə bəyan edir ki, bunlarla (yəni, xəvaricləri və özlərini sələfiliyə nisbət edən, lakin müsəlman rəhbərlərə qarşı xurucu (üsyanı) icazəli görən), özlərini müxtəlif təriqətlərə nisbət edən, tövhid və imanın əsaslarında Əhli Sünnəyə açıq şəkildə zidd gedənlər arasında fərq mövcuddur. İkincilər Hələbi üçün həm əqidə və həm də mənhəcdə bidətçidirlər. Odur ki, o, onlardan asanlıqla çəkindirə bilər. Birincilər isə Hələbi üçün asılı vəziyyətdə olan insanlardırlar: onlar əqidədə sələfi, mənhəcdə isə azmışlardır. Onlar öz mövqelərini qəti fikirlə müəyyənləşdirmədikcə, tamamilə hizbçi və ya sələfi olmadıqca, Hələbi bu cür insanları uzun illər boyunca tövsiyyə və müdafiə edə bilər.

Hələbi yazır:

> *“Mənhəc əqidənin çəpəri və sarsılmaz qalasıdır. Odur ki, əgər hər hansı bir insan əqidədə sələfi, mənhəcdə isə zəlalətə uğrayıbsa (hizbiçi və ya digər bir təriqətçi olaraq), bu insanda bu iki amildən ən güclü olanı qələbə çalmalı və üstün gəlməlidir: ya mənhəc, ya da əqidə. Beləliklə, bu insan həmişə necə deyərlər, çəkisizlik vəziyyətində qala və daim bu vəziyyətdə yaşaya bilməz. Ya onun mənhəci üstün gələcək və onun əqidəsinə təsir göstərəcək, bundan sonra o, açıq-aşkar bidətçi olacaq, ya da onun əqidəsi üstün gələrək, mənhəcinə təsir edəcək, bundan sonra o, məşhur sələfi olacaqdır. Sonuncu ssenari bizim üçün birincidən daha sevimlidir və odur ki, biz bu cür insana nəsihət edir, hüzn hissi keçirir, səbr göstərir və özümüzü saxlayırıq”*[1].

Beləliklə, Hələbinin bu mövqeyinə əsasən, mənhəc və ya əqidə üstün gəlmədikcə, bu hizbiçi “çəkisizlik vəziyyətində” (yəni, qeyri-müəyyən vəziyyətdə) olacaq, əqidədə sələfi, mənhəcdə isə hizbiçi hesab olunacaq. Bununla bərabər, onun mənhəcdə zəlalətlərinə baxmayaraq, bu “çəkisizlik vəziyyəti” (bu vəziyyət kifayət qədər uzun müddət davam edə bilər) dövrü ərzində biz, mənhəcdə zəlalətə uğramış bu hizbiçini bidətdə ittiham edə bilmərik. Uzun illər boyunca müxtəlif azmış insanları müdafiə və tövsiyyə edən, onların ucbatından sələfilərlə düşmənçilik aparan Hələbi sələfilərdən məhz bunu istəyir və özü də

[1] “Mənhəc əs-Sələf əs-Salih”, 2-ci nəşr, səh. 255

məhz bu yolla gedir. Lakin Hələbi mənhəcin əqidə üzərində bu üstünlüyünün necə müəyyən olunduğunu izah etmir. Axı məhz bundan sonra bu hizbiçinin "çəkisizlik vəziyyətindən" çıxdığını və bidətçiyə çevrildiyini hesab etmək olar![1].

Bu məsələdə öz mövqeyini müdafiə etmək üçün, Hələbi dəlil kimi mənhəc və əqidənin fərqli anlayışlar olduğunu hesab edən bəzi Əhli Sünnə alimlərinin rəyini gətirir.

**Hələbinin bu iddiasına rəddiyyə olaraq alimlər bu cavabı veriblər:**
Əslində müasir dövrdə yaşayan Əhli Sünnə alimlərinin əqidə və mənhəcin bir-birindən fərqli olub-olmaması barədə müxtəlif rəyləri vardır.

Şeyx ibn Bəz (Allah ona rəhmət etsin) və digər alimlər hesab edir ki, əqidə və mənhəc eyni anlam olub, aralarında heç bir fərq yoxdur.

Şeyx Albani, şeyx Rabi, şeyx Fövzan və digər alimlər isə hesab edirlər ki, mənhəc əqidədən daha genişdir, odur ki, əqidə mənhəcin bir hissəsidir.

Şeyx Fövzan (Allah onu qorusun) deyir:

> "*Mənhəc əqidədən daha genişdir. Mənhəc əqidədə, davranışda, əxlaqda və digərləri ilə münasibətdə olur. Mənhəc müsəlmanın bütün həyatını əhatə edir. Müsəlmanın öz həyatında riayət etdiyi istənilən davranış mənhəc adlanır.*
>
> *Əqidəyə gəldikdə isə, imanın əsası, iki şəhadətin mənası və onların kəsb etdiyi hər şey nəzərdə tutulur. Bu əqidədir*"[2].

Beləliklə, Əhli Sünnənin bu ixtilafında Hələbinin insanın "çəkisizlik vəziyyətində" olaraq əqidədə sələfi və mənhəcdə hizbiçi ola biləcəyi barədə iddiasına dəlil yoxdur.

Çünki, alimlərin birinci rəyinə əsasən, mənhəc və əqidə eyni anlayışlardır və buna görə bu alimlər üçün mənhəcdə azmaq, həm də əqidədə azmaq deməkdir.

[1] Əl-Bərahin əl-'Ətidə Fi Kəşfi Əhvəl və Təsılət Əli əl-Hələbi əl-Cədidə", səh. 291
[2] "Əcvibə əl-Mufidə", səh. 123

Əqidə və mənhəc arasında fərq qoyan alimlər isə onlar arasında tam fərq qoymur. Əksinə, onlar hesab edir ki, əqidə mənhəcin bir hissəsidir. Odur ki, bu alimlər insanın əqidədə sələfi ola-ola qeyri-sələfi mənhəcə malik ola biləcəyini hesab etmir. Axı bu alimlər üçün əqidə, mənhəcin bir hissəsidir[1].

Şeyx Fövzan (Allah onu qorusun) deyib:

> “*Əgər insanın mənhəci doğru olarsa, o, Cənnət sakinlərindən olacaq. Əgər o, Peyğəmbərin mənhəci və əməlisaleh sələflərin mənhəci üzrə olarsa, Allahın iznilə Cənnət sakinlərindən olacaq. Əgər o, azmışların mənhəcindədirsə, Cəhənnəm vəd olunmuş kəslərdən olacaq. Beləliklə, insanın Cənnətə və ya Cəhənnəmə layiq olması mənhəcin doğruluğu və yalnışlığından asılıdır*”.

Həmçinin Əhli Sünnə alimləri “mənhəc” terminindən istifadə edərkən bəzi əqidə məsələlərini nəzərdə tuturlar. Bu yanaşmaya müvafiq olaraq, mənhəc əqidənin bir hissəsidir, odur ki, mənhəcdə pozuntular əqidədə pozuntular deməkdir.

Şeyx Salih Əli Şeyx (Allah onu qorusun) deyir:

> “*Biz “mənhəc” dedikdə, bəzi əqidə məsələlərini nəzərdə tuturuq, çünki mənhəc, Əhli Sünnə vəl-Cəmaə əqidəsinin bir hissəsidir. Odur ki, əgər sən Əhməd ibn Əbdul Həlim ibn Teymiyyənin (Allah ona rəhmət etsin) yazdığı “əl-Əqidə əl-Vasitiyyə” adlı əqidə kitabına baxsan, görərsən ki, bu kitabın bəzi fəsilləri “yaxşılığa dəvət və pislikdən çəkindirmək”, “rəhbərlərə münasibət”, mübahisələrə və müxtəlif ixtilaflara münasibət məsələlərinə həsr olunub. Bu məsələləri müasir alimlər mənhəc adlandırır*” (“Mühimmət fi əl-Əqidə və əl-Mənhəc”).

Beləliklə, mənhəcin tərifi (müəyyən olunması) məsələsində müasir alimlər arasında ixtilaflara baxmayaraq, onlardan heç biri deməyib ki, insan əqidədə sələfi, mənhəcdə isə ixvan ola, daha sonra isə asılı vəziyyətdə qala bilər. Mənhəcdə qüsurluluq, əqidədə qüsurluluğa işarə edir və əksi də tamamilə eynidir. Odur ki, əqidə və mənhəc bir-birindən qarşılıqlı surətdə asılı olan və bir-birinin mövcudluğunu labüd edən anlayışlardır.

---

[1] “Sıyanətul əs-Sələfi Min Vəsvəsəti və Təlbisati Əli əl-Hələbi”, səh. 73

Şeyx Ubeyd əl-Cabiri (Allah onu qorusun) demişdir:

> *“İslam iki şeydən ibarətdir: doğru əqidə, düzgün və sağlam mənhəc. Bununla bərabər, bu iki anlayış bir-birindən qarşılıqlı surətdə asılıdır və ayrılmazdır. Odur ki, əgər kiminsə mənhəci xarabdırsa, əmin olun ki, bu, onun əqidəsinin xarab olması səbəbi ilədir. Odur ki, əgər insanın əqidəsi doğru olarsa, onun mənhəci də doğru olacaqdır”*[1].

Sonda Şeyx Rabi əl-Mədxalinin (Allah onu qorusun) Hələbinin əqidə və mənhəc arasında bu cür fərq qoymasının batil olmasını təfsilatı ilə göstərən sözlərini təqdim edirik:

Şeyx Rabidən (Allah onu qorusun) soruşublar:

> *“Əqidə və mənhəc arasında fərq mövcuddurmu? Və əgər onlar arasında həqiqətən fərq mövcuddursa, hizbiçilər öz məqsədlərində bu faktı istifadə edə bilərlərmi?”*

Cavab:

> *“Məlumdur ki, bu əsrdə insanlar mənhəc termini barədə çox danışırlar. Lakin sələflərin dövründə başqa cür idi. Onlar bəzən “mənhəc” və “minhəc” terminlərindən istifadə edirdilər, amma onlar bu termindən tez-tez istifadə etmirdilər. Lakin daha sonra sələfilər bu termindən tez-tez istifadə etməyə məcbur qaldılar.*
>
> *Mən, şeyx ibn Bəzin əqidə və mənhəc arasında fərq qoymadığını və onları eyni şey hesab etdiyini eşitmişəm. Lakin şeyx Albani fərq qoyur. Mən də fərq qoyuram və hesab edirəm ki, mənhəc əqidədən genişdir. Mənhəc özündə əqidəni, ibadəti, elm tələb etmək metodunu, bidətçilərlə münasibət tərzini ehatə edir. Odur ki, mənhəc daha genişdir. Misal olaraq biz deyirik: Əhli Sünnənin əqidədə mənhəci, ibadətdə mənhəci, elm tələb etməkdə mənhəci, filan məsələdə mənhəci və s. Odur ki, şübhəsiz ki, mənhəc daha genişdir.*
>
> *Lakin bidət əhli öz hizbiçi siyasi məqsədləri üçün əqidə və mənhəci bir-birindən ayırırlar. Beləliklə, onlar bir çox sələfiləri aldadır və belə deyirlər: “Sən öz*

[1] “əl-İdah və əl-Bəyan Fi Kəşf Bə’dı Təraiq Firqati əl-İxvan”

*əqidəndə qal. Mənhacə gəldikdə isə, biz birgə əməkdaşlıq etməliyik. Odur ki, biz deyəcəyik ki, filankəs əqidədə sələfidir, mənhəcdə isə ixvan!" Lakin məlumdur ki, ixvanların mənhəci Sələfi əqidəsinə qarşı müharibədir. Odur ki, bu insan "mən əqidədə sələfi, mənhəcdə ixvanam" və ya "mənhəcdə təbliğçiyəm" dedikdə, bununla o, Sələfi mənhəcinə və Sələfi əqidəsinə açıq şəkildə müharibə elan edir. Bu səbəbdən, bu cür bölgü ixvanların və təbliğçilərin yaydığı hizbiçi siyasi hiylədir. Xüsusən də, onlar sələfiləri aldadıb doğru yoldan azdırmaq üçün əqidə və mənhəc arasında bu bölgünü tətbiq ediblər."*[1]

## *"İlzam (məcburiyyət) yoxdur"* qaydası (لا يلزمني)

Digər sözlə desək: şəxsiyyətlərin halı ilə bağlı məsələlərdə elm əhlinin icma etməsi və ya qarşı tərəfin öz xətasını etiraf etməsi halları istisna olmaqla, kimisə hər hansı bir rəyi qəbul etməyə məcbur etmək olmaz.

Yuxarıda da qeyd olunduğu kimi, bu qayda Hələbinin ən əsas mumeyyi bidətlərindən biridir. Bu qayda vasitəsilə Hələbi sərhədlərin silinməsi (mumeyyilik) fikirini əvvəlki ideoloqlarından açıq-aydın şəkildə fərqləndirdi. Bundan əlavə, Hələbinin məhz bu qaydası onun digər azmış qayda və prinsiplərinin mənbəyidir. Bu qayda və prinsiplər barədə biz Allahın iznilə daha sonra bəhs edəcəyik.

Beləliklə, bu qaydaya müvafiq olaraq, Hələbi və onun tərəftarları belə hesab edirlər ki, aşağıdakı iki hal istisna olmaqla, bir çox ixtilaflı fiqhi məsələlərdə olduğu kimi, kiməsə bidətçi deməkdə (hətta bunun səbəblərinin, tutarlı şəriət dəlil və sübutlarının olmasına baxmayaraq) azmış şəxsiyyətlərdən (bunda da dəlil və sübutlar əsasında olmasına baxmayaraq) çəkindirmə məsələlərində də kimisə alimlərin rəyini qəbul etməyə məcbur etmək icazəli deyildir,

İstisna edilən hallar isə bunlardır:

1. Bu şəxsiyyət barədə bütün alimlərin yekdil rəyi (icma) olduğu halda;

[1] "Əcvibə Fədıləti əs-Şeyx Rabi' ibn Hədi əl-Mədxali əs-Sələfiyə 'Alə Əs'ilə Əbi Rəvahə əl-Mənhəciyə"

2. Qarşı tərəfin öz mövqeyinin yalnış olduğunu etiraf etməsi, ona verilən rədlərdən qane olması halında.

Hələbi deyir:

*“Əgər insan öz rəyini haqq sayırsa, çoxsaylı dəlillərlə onu müdafiə etmək və sübut etmək ona qadağan deyil. Lakin buna görə digərləri ilə dalaşmaq (!)*[1] *və onun rəyini qəbul etməyə məcbur etmək ona qadağandır!”*[2]

Həmçinin Hələbi yazır:

*“Bəzi görüşlərdə mən demişəm: əsaslı dəlillər və açıq-aydın səbəblərin mövcudluğu, yaxud bu məsələdə səhih icmanın olduğu hallar istisna olmaqla, cərh edən alimin rəyini qəbul etməyə kimisə məcbur etmək icazəli deyil. Bəziləri isə elə düşünüb ki, mən cərh etmək üçün icmanın olmasının vacibliyindən danışıram! Lakin məlum olduğu kimi, cərh etmək və digərlərini bu cərhi etməyə məcbur etmək arasında böyük fərq mövcuddur! Əgər kimsə onunla razılaşaraq bu cərhi edibsə, lap yaxşı. Lakin əgər kimsə öz şəri elmi narazılığı səbəbi ilə bu cərhi etməkdən imtina edibsə, onu bu cərhə məcbur etmək olmaz. Axı bir məsələdə müxtəlif rəydə olan iki insan bir-birini öz rəyini qəbul etməyə məcbur edə bilməz! Bu məcburiyyətə dəlil nədir!?”*[3]

Daha sonra Hələbi şeyx Rabinin (Allah onu qorusun) bu sözlərini gətirir:

*(Şeyx Rabi deyir:) “Alimlər və həqiqi elm tələbələri kimi dəlillərə baxmaq və onlara əməl etmək sizin üçün vacibdir. Bu və ya digər şəxsiyyət barəsində açıq-aydın və aşkar dəlillərə əsaslanaraq mülahizə söyləyən alimlərlə razılaşmamaq isə sizə qadağandır”.*

Daha sonra Hələbi özünün bu batil qaydasının müdafiəsi üçün şeyx Rabinin (Allah onu qorusun) yuxarıda qeyd olunmuş sözlərini şərh edir:

---

[1] Hələbi özünməxsus emosional yazı üslubu, çoxlu sayda nida və sual işarələrindən istifadə etməsi ilə məşhurdur. Tərcümə zamanı məqalənin müəllifi orijinala müvafiq olaraq mümkün dərəcədə bu işarələri buraxmağa çalışmışdır.
Şeyx Raslən (Allah onu qorusun) deyib: “Nida və sual işarələrinin şeyxi Hələbi etiraf edib ki, rüsvayçı və yalançı məqaləni o, yazıb” (bax. www.rslan.com/tafre31/taleat_rad_ala_halaby-01.php)
[2] “Mənhəc əs-Sələf əs-Salih”, 2-ci nəşr, səh. 224
[3] “Mənhəc əs-Sələf əs-Salih”, 2-ci nəşr, səh. 219

❞ (Hələbi deyir:) *“Onun “açıq-aydın və aşkar dəlillər” deməsi bu anlama gəlir ki, agər bu dəlillərlə razılaşsalar və haqq onlara aydın olsa, onlar alimlərin bu mülahizələrini rədd edə bilməzlər! Biz bu barədə dəfələrlə demişik! Lakin əgər onlar razılaşmasalar (bu tamamilə mümkündür, çünki, o zaman ümumiyyətlə ixtilaflar olmazdı), bu halda edilə biləcək yeganə şey, onları haqqa və səbrə dəvət etməklə nəsihət etmək, səmimi məsləhətlər verməkdir.*

*Onları razı olmadıqları bir şeyə məcbur etməyə və ya inanmadıqları bir şeyə vadar etməyə gəldikdə isə, bu, elə həmin təqlidin daha bir təzahürüdür. Özü də, təqlidin bu növü daha da pisdir! Axı əgər cərh açıq-aydın olsaydı, ilk əvvəldən bu cərhin doğruluğunda ixtilaf olmazdı”*[1].

Beləliklə, alimin hər hansı bir şəxsiyyət barədə cərhi ilə razılaşmaqdan imtina edilməsi, Hələbi üçün həmin bu alimin cərhinin zəif dəlillərə əsaslandığına işarə edir.

Hələbinin bu şərli qaydasının əsas nöqsanı da məhz budur – bu qayda təkəbbür, şəxsi maraqlar, həsəd və ya nəfsin istəklərinə uymaqla bağlı olan digər səbəblər ucbatından haqqı qəbul etməkdən imtina etməyin mümkünlüyünü istisna edir.

Digər sözlərlə, bu Hələbi qaydası, hər bir gizli bidətçiyə və nəfsinin istəklərinə uyanlara imkan verir ki, o, müxtəlif azmış şəxsiyyətləri sələfilərə məsləhət bilsin və əsassız şəkildə bu şəxsiyyətlər barədə olan dəlillərin özü üçün inandırıcı olmadığını iddia edərək onları beləcə doğru yoldan azdırsın.

Yəni ki, misal olaraq hər hansı Əhməd (şərti addır) adlı özünü sələfi adlandıran bir dəvətçi, Muhamməd Hassan (Misirdə nümayişləri və prezidentin devrilməsini icazəli görən, həmçinin Seyyid Qutbu və digər bidətçiləri tərifləyən hizbiçi) və ya Əbu İshaq Huveyni (bugünkü müsəlman rəhbərləri qanuni hesab etməyən və günahda israr edənin islamdan çıxdığını hesab edən bir hizbiçi) kimi qutbiçiləri, həmçinin digər xəvariclәri və azmış şəxsiyyətləri tövsiyyə edir, müdafiəsinə qalxır və onlardan çəkindirməkdən imtina edirsə, bu zaman deyilən şərli hələbiçi qaydaya əsasən, hətta əgər biz ona mötəbər alimlərin

[1] “Mənhəc əs-Sələf əs-Salih”, 2-ci nəşr, səh. 393

sözləri ilə bu insanların audio dərslərindən və məqalələrindən onların zəlalətə uğradıqlarına dair açıq-aydın dəlillər və faktlar göstərsək də, biz, Əhmədi məcbur edə bilmərik ki, o, bu insanları tövsiyyə etməkdən əl çəksin. Biz yalnız aşağıdakı iki halda Əhmədi bu azmış şəxisyyətlərdən çəkindirməyə və onları tövsiyyə etməkdən əl çəkməyə məcbur edə bilərik:

- Ya bütün sələfi alimlər yekdil şəkildə onları bidətdə ittiham etsə (bu isə demək olar ki, mümkün deyil. Çünki onun alim hesab etdiyi Hələbi kimi mumeyyilər azmış şəxsiyyətləri həmişə müdafiə edəcəklər);

- Yaxud da, biz onların zəlalətlərinə dair açıq-aydın dəlilləri təqdim etdikdən sonra, Əhməd təkəbbür göstərməyərək bizim dəlillərimizlə razılaşsa və bizim mövqeyimizin doğruluğunu qəbul etsə! Lakin bu yalnız Əhmədin ixlaslı və öz nəfsinin istəklərinə uymayan bir insan olduğu halda mümkün ola bilər.

Lakin əgər Əhməd gizli qutbiçidirsə və ya öz nəfsinin istəklərinə uyan bir insandırsa, o zaman o, bizə deyəcək:

> *“Əgər siz onları bidətçi hesab edir və onlardan çəkindirirsinizsə, bu sizin haqqınızdır. Məni onlardan çəkindirməyə məcbur edə bilməzsiniz, çünki mən sizin dəlilərinizi inandırıcı hesab etmirəm və alimlərin onların bidətçi olduqlarına dair icması mövcud deyil. Odur ki, mən onları sələfi hesab etməyə davam edəcəm və müsəlmanlara onları dinləməyi və onlardan elm almağı tövsiyyə edəcəm”.*

Biz isə Hələbinin bu şərli qaydasına müvafiq olaraq bu bəhanəni qəbul etməli və Əhmədin (şərti addır) öz tərəfdarlarına və digər sələfilərə bu azmış xəvaricləri və digər bidətçiləri tövsiyyə etməyə davam etməsini səssiz-səmirsiz seyr etməliyik. Bizə yalnız Əhmədə öyüd vermək və yaxşı nəsihətlər etmək qalır. O isə ürəyində bizə güləcək. Çünki əslində Əhməd gizli qutbiçidir və öz həmfikirlərini bilərəkdən tövsiyyə edir və dolayı yolla öz xəvaricliyini sələfilər arasında yayır.

Şübhə yoxdur ki, yuxarıda göstərdiyimiz misalda oxucu *"ilzam (məcburiyyət) yoxdur"* qaydasının necə şərli və təhlükəli olduğunu dərk edir.

Şeyx Rabi (Allah onu qorusun) deyib:

> *"Hələbiçilərin qaydaları arasında onların haqqı qəbul etməkdən imtina etmələri üçün istifadə etdikləri "ilzam (məcburiyyət) yoxdur" və ya "bu məni qane etmədi" qaydaları var. Bu, onların ən şərli qaydalarından biridir"*[1].

**Bu qaydanın yalnış və şərli olmasının dəlili kimi iki ümumi cavab vermək olar:**

**Birinci cavab:** Yuxarıda qeyd olunduğu kimi, bu qayda təkəbbür, şəxsi maraqlar, həsəd və ya nəfsin istəklərinə uymaqla əlaqəli digər səbəblərdən haqqı qəbul etməkdən imtina etməyin mümkünlüyünü istisna edir. Axı bir çox kafirlər və bidətçilər öz təkəbbürləri, yaxud nəfslərinin digər istəkləri və dünyəvi maraqlar səbəbi ilə dəlilləri qəbul etməkdən imtina edirlər. Uca Allah buyurmuşdur:

﴿وَلَئِنْ أَتَيْتَ الَّذِينَ أُوتُوا الْكِتَابَ بِكُلِّ آيَةٍ مَا تَبِعُوا قِبْلَتَكَ﴾

**"(Ya Rəsulum!) Sən kitab əhlinə hər cür dəlil gətirsən də, onlar sənin qiblənə tabe olmazlar."** (Müqəddəs Quran, 2:145)

Həmçinin Uca Allah buyurmuşdur:

﴿وَجَحَدُوا بِهَا وَاسْتَيْقَنَتْهَا أَنْفُسُهُمْ ظُلْمًا وَعُلُوًّا ۚ فَانْظُرْ كَيْفَ كَانَ عَاقِبَةُ الْمُفْسِدِينَ﴾

**"Onlar (Firon və onun qövmü, Musaya göndərilən möcüzələrin) həqiqiliyinə daxilən möhkəm əmin olduqları halda, haqsız yerə və təkəbbür üzündən onları inkar etdilər. "** (Müqəddəs Quran, 27:14)

[1] "Ümdətü əl-Bəni fi Raddi Təsılati və Zəlaləti Əli əl-Hələbi", səh. 33

Həmçinin Peyğəmbər (Allahın ona salavat və salamı olsun) təkəbbürlüyün mənasını açıqlayaraq demişdir:

> ***“Təkəbbürlük – haqqı qəbul etməmək və insanlara həqarətlə baxmaqdır.*[1]**

Şeyxul-İslam İbn Teymiyyə (Allah ona rəhmət etsin) mübahisələrin aparılmasının halı barəsində danışarkən demişdir:

> *“Əgər mübahisəçi təkəbbürlüdürsə və haqq ona göstərildikdə haqqı qəbul etmirsə, mübahisələrin aparılması qadağan oluna bilər”*[2].

Mübahisə aparmağın icazəli olmadığı mübahisəçini təsvir etdikdən sonra isə İbn Teymiyyə demişdir:

> *“İnsanların əksəriyyəti yalnız onlara qarşı güc tətbiq edildikdə haqqı qəbul edir”*[3].

Beləliklə, İbn Teymiyyə deyir ki, insanların əksəriyyəti yalnız onlara qarşı güc tətbiq edildikdə haqqı qəbul edir. Hələbi isə təbliğ edir ki, insanlar haqqı yalnız haqqa inanmadıqları üçün qəbul etmirlər.

Həmçinin Hələbinin *“Axı cərh açıq və aydın olsaydı, ilk əvvəldən bu cərhin doğruluğunda ixtilaf olmazdı”* sözlərini İbn Teymiyyənin aşağıdakı sözləri ilə müqayisə edin:

> *“İxtilafların və müxalifliyin əsas səbəbləri zənlərə və öz nəfsinin istəklərinə uymaqdır”*[4].

Əslində, elədir ki var. Şübhə yoxdur ki, alimlərimizin bidətdə ittiham etdiyi demək olar bütün azmış şəxsiyyətlər haqqı bilir və onu bilərəkdən qəbul etmirlər. Axı Hələbi də daxil olmaqla, alimlər uzun illər boyunca onların bir çoxuna nəsihətlər edib və onların zəlalətlərini dəfələrlə özlərinə bəyan ediblər. Alimlər insanın haqqa riayət etmək istəmədiyini və ya bilərəkdən bidətlərin və onların ideoloqlarının ardınca getdiyini gördükdə, onu bidətdə ittiham edir və ondan çəkindirirlər.

---

[1] Hədisi Müslim rəvayət edib.
[2] “Daru ət-Tə’arud” 3/374
[3] Elə oradaca.
[4] Məcmu’ Fətəva: 12/237

Bundan əlavə, İbn Teymiyyənin yuxarıda qeyd olunan sözlərində də işarə olunduğu kimi, bidət əhlinin əsli bundan ibarətdir ki, onlar öz bidətlərinə qəsdən çağırmaqla sadəcə olaraq haqqı qəbul etmək istəmirlər.

Şeyx Rabi (Allah onu qorusun) deyir:

> *“Onların (hələbiçilərin) qaydaları arasında onların haqqı qəbul etməkdən imtina etmək üçün istifadə etdikləri “ilzam (məcburiyyət) yoxdur” və ya “bu məni qanə etmədi” qaydaları var. Bu ən şərli qaydalardan biridir. Axı Peyğəmbərlərin də düşmənləri onların təbliğ etdiyi haqqla qəsdən razılaşmır və haqqa tabe olmurdular. Haqqı bildikdə ona tabe olan peyğəmbərin əshabələri və əvvəlki sələfilərdən fərqli olaraq, rafizilər, sufilər, xəvariclər və azmış partiyalar sırasından olan zəlalət əhli haqq məlum olduqda bilərəkdən haqqa tabe olmurlar.”*[1]

Bu səbəbdən, haqqı bilən və onu qəbul etmək istəməyənlə, onu bilməyən arasında böyük fərq mövcuddur. Odur ki, Hələbinin bəzi şagirdləri şeyx Rabinin (Allah onu qorusun) yanına gələrək öz müəllimlərinin müdafiəsi məqsədilə eynilə Hələbi kimi şeyx Abbad və Salih Əli əş-Şeyxin də bəzi şəxsiyyətləri bidətdə ittiham etmədikləri faktını dəlil gətirdilər. *“Bəs o zaman niyə onlardan çəkindirmirsiniz, amma Hələbidən çəkindirirsiniz?”* – deyə onlar soruşdular.

**Şeyx Rabi (Allah onu qorusun) onların sözlərinə təəccüblənərək demişdir:**

> *“Məgər bu cür dəlil gətirmək sələfiyə layiq sözlərdir? Abbada gəldikdə, o, sadəcə olaraq (alimlərin bu şəxsiyyətlərə rəddiyyələrini) oxumur. Şeyx Salih Əli Şeyxə gəldikdə isə – sizin onun haqqında dedikləriniz mənə məlum deyil, odur ki, mənə onun haqqında iradlarınızı göndərin və mən ona nəsihət edim. Əli Hələbiyə gəldikdə isə, o, bu problemləri bilir və onlar haqqında oxuyur (buna baxmayaraq zəlalətdə israr etməyə davam edir)!”*[2]

---

[1] “Ümdətü əl-Bəni fi Raddi Təsılati və Zəlaləti Əli əl-Hələbi”, səh. 33
[2] http://www.sahab.net/forums/?showtopic=126404

Beləliklə, bu məsələdə haqq budur ki, əgər insana açıq-aydın dəlillər göstərilirsə, bu zaman o, bu dəlilləri qəbul etməklə mükəlləfdir. Lakin əgər o, açıq-aydın dəlillərə söykənmiş haqqı qəbul etməkdən imtina edirsə, bu halda onu öz nəfsinin istəklərinə uymaqda və təkəbbürlükdə ittiham edirlər.

Şeyx Useymin (Allah ona rəhmət etsin) deyib:

> *“Şübhə yoxdur ki, (azmış camaatlar arasındakı) bu ixtilaflardan bəziləri icazəlidir. Lakin, bu ixtilaflardan bəziləri təkəbbür göstərmək və haqqı qəbul etmək istəyinin olmaması səbəbi ilə baş verir. Odur ki, əgər haqq aydın oldusa, onu qəbul etməkdən imtina edən təkəbbürlü və haqqı qəbul etməyə can atmayan biridir. Lakin haqq aydın deyilsə, bu halda ixtilaf icazəlidir”*[1].

Odur ki, hər hansı bir məsələdə icma yoxdursa və o insan dəlillərlə razılaşmırsa, onu hər hansı bir rəyi qəbul etməyə məcbur etməyin qadağan olmasına dair Hələbinin və onun təriqətinin mövqeyi lap başlanğıcdan yalnışdır.

Əksinə, sələflər açıq-aydın dəlillər göstərildiyi halda bu dəlilləri qəbul etmək istəməyən və bu dəlillərlə razılaşmayan insanları ilzam edər və (onları bidətdə ittiham edərək) onlar barədə hökm çıxarardılar.

Şeyx İbn Useymin (Allah onu qorusun) deyib:

> *“Əgər biz desək ki, ixtilaf olan bütün məsələlərdə bu rəylərdən birini seçəni qınamaq olmaz, bütün din itib gedəcək və insanlar alimlərə məxsus yalnış, lakin özləri üçün rahat olan rəylərinə uyacaqlar. Axı demək olar elə bir məsələ yoxdur ki, onda ixtilaf olmasın”*[2].

İmam Şövkani deyib:

[1] Bax. “Dəf’u Bəq’y Ədnən” və ya http://www.sahab.net/forums/index.php?showtopic=112623
[2] “Liqa əl-Bəb əl-Məftuh” (192/49-193)

*“Beləliklə sənə aydın oldu ki, (bəzi) fəqihlərin “ixtilaflı məsələlərdə ilzam (məcburiyyət) yoxdur” düşüncəsi onların tərbiyə aldıqları, ömürləri boyunca əməl etdikləri və öyrəndikləri təqlidə bəslənən sevginin təzahürüdür”*[1].

Şeyxul-İslam İbn Teymiyyə (Allah ona rəhmət etsin) demişdir:

*“Kim qəbuledilməz ixtilaflara istinad edərək Quranın açıq-aydın ayələrinə, müfəssəl Sünnəyə və ya bu ümmətin sələflərinin yekdil olduğu məsələlərə zidd gedirsə, belə insanla bidətçi kimi davranmaq lazımdır”*[2].

Həmçinin o, deyib:

*“Əgər dəlillər açıq-aydın və danılmazdırsa, bu halda bu məsələ, tərəflərdən hər hansı birini qınamağın icazəli olmadığı mübahisəli məsələ hesab olunmur. Əksinə, bu, digər tərəfi qınamağın icazəli və hətta zəruri olduğu mübahisəli məsələlərdən hesab olunur”*[3].

Bəs o zaman Hələbi və onun tərəfdarlarının açıq-aydın haqqı inkar etməsinə, bidət və zəlalətləri bütün insanlara bəlli olan müxtəlif azmış insanları müdafiə etməyə davam edərək *“ilzam (məcburiyyət) yoxdur”* qaydasını istifadə etməsinə nə demək olar?!

Şeyx Rabi (Allah onu qorusun) deyib:

*Onun (Məribinin) qeyd etdiyi “ilzam”, Əbul-Həsənin (Məribinin) özünə və onun sektasına, həmçinin Əli Həsən Hələbi kimi onun davamçılarına məxsus olan “ilzam (məcburiyyət) yoxdur” qaydasına ziddir. Bu təhlükəli qaydadan qəbulu vacib olan haqqı inkar etmək üçün istifadə olunur. Həmçinin bu qayda “İxvanul-muslimin” (“Müsəlman qardaşlar”) və “Təbliğ camaatı” kimi bidət əhlinə qarşı olan sələfi alimlərin mülahizələri ilə razılaşmamaq üçün istifadə edilir.”*[4]

---

[1] əs-Seyl əl-Cərrar: 4/299
[2] Məcmu’ Fətava 24/172
[3] Fətava Kubra, 6/92
[4] http://www.rabee.net/ar/articles.php?cat=8&id=188

## *“Bizdən olmayanlar barədə ixtilafımızı, öz aramızda ixtilafa çevirməyək”* qaydası

Hələbinin bu qaydası, ona məxsus *“ilzam (məcburiyyət) yoxdur”* qaydasının məntiqi davamıdır. Onu və onun tərəfdarlarını, müxtəlif xəvaricləri, qutbiçiləri və digər bidətçiləri tövsiyyə edib müdafiəsinə qalxanları nəyəsə **ilzam** (məcbur) etməyin mümkün olmadığını elan etdikdən sonra, Hələbi bu qaydanı uydurdu ki, sələfilər müxtəlif azmış şəxsiyyətləri israrla müdafiə etdiyinə görə onu qınamasınlar.

Hələbi deyir:

> *“Bizim (Əhli Sünnənin) – bidətçilər və bidətlərə düşmüş sünnilər sırasından – bizdən olmayanlarla bağlı məqbul ixtilafımızı öz aramızda (Əhli Sünnə arasında) ixtilafa çevirmək olmaz. Əksinə, bir-birimizə haqqı göstərməklə və bir-birimizi səbrə və mərhəmətə dəvət etməklə bir-birimizə yaxşı nəsihətlər etməliyik”*[1] .

Hələbinin *“bidətçilər və bidətlərə düşmüş sünnilər sırasından”* sözünə diqqət yetirin. Yəni, Hələbi özü etiraf edir ki, bu qayda həm bidətə düşmüş sünniyə, həm də əsli bidətçi olana tətbiq oluna bilər!

Digər sözlərlə, məsələn, əgər iki sələfi rəhbərə qarşı çıxmış (xuruc etmiş) və nümayişləri dəstəkləyən Muhammməd Həssən barədə ixtilaf ediblərsə – biri onu tövsiyyə edir, digəri isə ondan çəkindirirsə, o zaman Hələbinin bu qaydasına müvafiq olaraq, bu iki sələfinin münasibətləri buna görə pozulmamalıdır. Axı Hələbinin *“ilzam (məcburiyyət) yoxdur”* qaydasına əsasən, birinin digərini bu azmış şəxsiyyətlər əleyhinə çəkindirməsini qəbul etməyə ilzam (məcbur) etmək üçün ya icma olmalıdır[2] (o isə yoxdur), yaxud da tövsiyyə edən şəxs haqqa riayət edən həqiqi sələfi olmalı və çəkindirənin dəlilləri ilə razılaşmalıdır.

[1] “Mənhəc əs-Sələd əs-Salih”, səh. 207
[2] Hələbinin qaydalarına əsasən, hətta xəvaric Bin Ladenin çəkindirilməsi barədə “icmanın olmadığına” istinad etmək olar. Çünki, hələbiçilərin bu günə qədər “böyük alim” hesab etdikləri, lakin, Bin Laden haqqında yaxşı rəydə olan və onu tərifləyən bəzi insanlar olub.

Əgər bu azmış şəxsiyyətləri tövsiyyə edən şəxs hər hansı bir səbəbdən bu insanların zəlalətini göstərən açıq-aydın dəlillərlə razılaşmasa, Hələbinin bu qaydasına müvafiq olaraq, onlar buna görə ixtilaf etməməli və öz münasibətlərini xoşluq və mərhəmət üzərində qurmağa davam etməlidirlər.

**Bu nə deməkdir?! Bu sadəcə olaraq Hələbi və digər mumeyyilərin əməl etdiyi məşhur ixvan qaydasının başqa şəkildə ifadə olunmasıdır:** *"Həmfikir olduğumuz məsələlərdə birləşək və ixtilaf etdiyimiz məsələlərdə bir-birimizi bağışlayaq, üzr gətirək".*

Bu əsassız qaydanın təkzib olunmasına gəldikdə isə, əməlisaleh sələflərimizdən azmış şəxsiyyətlərdən çəkindirməkdən imtina edənlərlə münasibəti kəsməyi əmr edən çoxsaylı rəvayətlər vardır.

Bu qaydanın əsassızlığını sübut etmək üçün imam Əhməd və Hüseyn Kərabisi ilə bağlı məşhur hadisəni təqdim edək.

Hafiz ibn Əbdul-Bərr (Allah ona rəhmət etsin) deyib:

> *"Əbu Əli Hüseyn ibn Əli Kərabisi bir çox əsərlər qələmə almış mötəbər bir alim idi. Rəhbərin dini məsələlərdə qərarları yalnız onun fətvalarına əsaslanırdı. Həmçinin o, məharətli mübahisəçi və çox təkəbbürlü idi. O, ilk əvvəl İraq sakinlərinin məzhəbində idi (yəni, Əbu Hənifənin məzhəbində – tərc.qeyd.). İmam Şafii gəldikdən və o, onunla görüşdükdən və onun əsərləri ilə tanış olduqdan sonra, o, (Kərabisi) Şafiinin məzhəbinə keçdi və ona böyük ehtiram bəsləməyə başladı. O, sayı 200 cildə çatan çoxsaylı əsərlərin müəllifidir.*
>
> *Kərabisi Əhmədlə də dostyana və yaxşı münasibətlərdə idi. Lakin Kərabisi Quran məsələsində digər rəyi seçdikdə dost münasibətləri düşmən münasibətlərinə çevrildi və onlardan hər biri digərini cərh etməyə və bir-birindən çəkindirməyə başladılar"*[1].

İbn Əbdul-Hadi nəql edirdi:

---

[1] "əl-İntiqa Fi Fədail əs-Sələsə əl-Əimmə əl-Fuqahə; Malik Və əş-Şafi Və Əbi Hənifə", səh. 106

> *“İmam Əhməddən Kərabisinin “Mən Quran oxuyanda, mənim ləfzim məxluqdur” sözləri haqqında soruşdular. Buna imam Əhməd cavab verdi: “Bu Cəhmin sözləridir (yəni, cəhmilərin – qeyd.tərc.)”.*
>
> *İshaq ibn İbrahim nəql edir ki: “Mən imam Əhmədin “Allah Kərabisini alçaltsın! Onunla danışmaq, əlaqə saxlamaq və onun kitablarının üzünü köçürmək icazəli deyil. Həmçinin, onunla əlaqə saxlayanlarla da əlaqə saxlamaq olmaz” dediyini eşitmişəm.”*[1]

İmam Əhmədin sözlərinə diqqət yetirin: “*Həmçinin, onunla əlaqə saxlayanlarla da əlaqə saxlamaq olmaz*” və onları Hələbinin şərli qaydası ilə müqayisə edin: *“Bizdən olmayanlar barədə ixtilafımızı öz aramızda ixtilafa çevirməyək”.*

İmam Əhmədin bu sözləri Hələbinin bu qaydasının əsassız olduğunu göstərən ən güclü dəllillərdən biridir[2].

Həmçinin Əbu Davud Sicistani imam Əhməddən soruşmuşdur:

> *“Əgər mən Əhli Sünnədən olan birini bidətçi ilə əlaqə saxlayan görsəm, onunla (Sünnə əhli ilə) əlaqəni kəsməliyəmmi?”*

İmam Əhməd cavab verdi:

> *“Yox, əvvəlcə ona başa sal ki, onunla birgə gördüyün o insan bidətçidir. Əgər onunla oturub-durmağa son qoysa, onunla əlaqəni kəsmə. Bundan sonra yenə də o bidətçi ilə oturub-durmağa davam edərsə, onu da o bidətçiyə nisbət et, çünki İbn Məsud demişdir: “İnsanı dostuna görə tanımaq olar”*[3].

Bundan əlavə, bu qaydanın əsassızlığına həmçinin onun ifadə şəkli da işarə edir: *“Bizdən olmayanlar barədə ixtilafımızı öz aramızda ixtilafa çevirmək olmaz”.*

Çünki əgər biz, bu azmış insanların Əhli Sünnədən olmadığı ilə razılaşsaq, o zaman ümumiyyətlə heç bir ixtilafımız olmayacaq. **Əslində Hələbi dolayısı ilə sələfilərə deyir:**

---

[1] “Bəhr əd-Dəm Fimən Təkəlləmə Fihi əl-İməm Əhməd Bi Mədhin Və Zəm”, səh. 192
[2] Əl-Bərahin əl-‘Ətidə Fi Kəşfi Əhvəl və Təsılət Əli əl-Hələbi əl-Cədidə”, səh. 202
[3] “əl-Ədəb əş-Şər’iyə” 1/251

mən müxtəlif bidətçilərin Əhli Sünnə sırasından olduğunu hesab etməyə davam edəcəm, lakin siz (sələfilər), buna görə mənimlə münasibəti korlamamalı və məni qınamamalısız.

Allahdan bizi bu cür zəlalətdən qorumasını diləyirik.

## Təfsilatlı, əsaslandırılmış cərhin qəbul edilməsinin vacibliyinin inkar edilməsi

Hələ hədis elminin meydana gəldiyi ilk dönəmlərdən Sünnə ardıcılları qəti qərar veriblər ki, əgər alim öz cərhinin səbəbini izah edərək hər hansı bir şəxsdən çəkindirib və onu cərh edibsə, bu şəxsiyyət barədə digər alimlərin ümumi tərifləri (tədilləri) qarşısında onun cərhinə üstünlük verilir.

İmam İbn Kəsir (Allah ona rəhmət etsin) demişdir:

> “*Haqq budur ki, təfsilatlı cərhə həmişə üstünlük verilir*”[1].

Hafiz İbn Həcər (Allah ona rəhmət etsin):

> “*Cərhin səbəblərini bilən insanın etdiyi təfsilatlı cərh tərifdən (tədildən) önə çəkilir, ona üstünlük verilir*”[2].

Lakin Hələbinin hədis alimlərin bu məşhur sələfi qaydasını inkar edərək, bunu öz istədiyi kimi təfsir etməsi də onun uydurma *“ilzam (məcburiyyət) yoxdur”* qaydasının nəticəsidir. Çünki alimin azmış şəxs barədə olan cərhinin hansı açıq-aydın və danılmaz dəlillərə əsaslanmasından asılı olmayaraq, *“ilzam (məcburiyyət) yoxdur”* qaydasına müvafiq olaraq, əgər müdafiə tərəfi cərhi inandırıcı hesab etmirsə, bu cərhin heç bir qüvvəsi olmayacaq.

Hələbi yazır:

[1] Bax. “İxtisət ‘Ulum əl-Hədis”
[2] Bax. “Nuxbətu əl-fikr”

> *“Hətta təfsilatlı cərhi də bəziləri qəbul edə bilər, bəziləri isə bu cərhin dəlilləri ilə razılığı və müxalifliyinə müvafiq olaraq onu inkar edə bilərlər”*[1].

Həmçinin o yazır:

> *“Bu böyük sözlər iki mühüm məqama işarə edir:*
>
> *1) Cərh edən mütləq öz cərhinin dəlillərini və səbəblərini göstərməlidir.*
>
> *2) Lakin bu o demək deyil ki, onun cərhi mütləq qəbul edilməlidir. Belə də ola bilər ki, kimsə bu cərhlə razı olmasın və onu qəbul etməsin”*[2].

Beləliklə, Hələbinin bu sözləri açıq-aydın ona işarə edir ki, qarşı tərəfin bu cərhin doğruluğunu qəbul etməsi halı istisna olmaqla, heç kəsi təfsilatlı cərhlə ilzam etmək olmaz[3].

Həmçinin, bu sələfi qaydasını öz bidət *“ilzam (məcburiyyət) yoxdur”* qaydasına müvafiq olaraq təfsir etmək üçün, Hələbi bəzi alimlərin digər alimlərin əsassız cərhlərini qəbul etmədiyindən bəhs edilən müəyyən halları dəlil gətirir. Sonra isə, Hələbi bu hallara əsaslanaraq iddia edir ki, bu misallar hətta təfsilatlı cərhin də rədd edilə biləcəyinə işarə edir!

Əslində “bu, faktların qəsdən təhrif edilməsidir. Özünü əməlisaleh sələflərə və Əhlül-Hədis vəl-Əsərə aid edən insan bununla məşğul olmamalıdır. Axı təfsilatlı cərhin əsassızlığı səbəbi ilə həmin cərhi qəbul etməkdən imtina etməklə, mötədil alimin əsaslandırılmış cərhini qəbul etməkdən imtina etmək arasında açıq-aydın fərq var! Alimlər məqbul hesab olunmayan və insanın halına təsir etməyən cərhi əsassız cərh hesab edirlər. Həmçinin, əgər cərh edən mütəşəddiddirsə (hədisi rəvayət edənlərlə bağlı ifratlı ağır şərtlər irəli sürənlər) və onun cərhindən nəinki digərləri, hətta böyük imamlar da xilas ola bilməyiblərsə, o zaman onun cərhi də əsassız sayılır”[4].

---

[1] “Mənhəc əs-Sələf əs-Salih”, 2-ci nəşr, səh. 322
[2] “Mənhəc əs-Sələf əs-Salih”, 2-ci nəşr, səh. 319
[3] “Əl-Bərahin əl-‘Ətidə Fi Kəşfi Əhvəl və Təsılət Əli əl-Hələbi əl-Cədidə”, səh. 269
[4] Əl-Bərahin əl-‘Ətidə Fi Kəşfi Əhvəl və Təsılət Əli əl-Hələbi əl-Cədidə”, səh. 248

## *“Etibarlı insanların gətirdikləri xəbərləri qəbul etmək vacibdir”* qaydasının bidətçilərin müdafiəsi üçün təhrifi

Alimlərin azmış insanlar barədə mülahizələrini inkar etmək üçün Hələbi müxtəlif üsullar tətbiq edir. Bu üsullardan biri, Hələbinin guya alimlərin azmış şəxsiyyətlərdən bütün bu çəkindirmələrinin yalan xəbərlərə və uydurulmuş şaiələrə əsaslandığı və bütün bunların sadəcə dedi-qodu olduğu barədə iddialarıdır.

Lakin ona alimlərin dedi-qoduları dinləmədiyi, xəbəri qəbul etməyin vacib olduğu etibarlı insanlardan məlumat aldıqları, bundan əlavə, alimlərin özlərinin etibarlı insanlar olduğu, odur ki, onların mülahizələrini qəbul etməyin vacib olduğu deyildikdə, Hələbi məşhur *“Xəbəri etibarlı insandan qəbul etmək vacibdir”* şəriət qaydası barədə şübhələr salmağa və o qaydanı bidətçi nöqteyi-nəzərdən şərh etməyə başladı.

Beləliklə, Hələbi aşağıdakıları uydurdu:

> *“Etibarlı insandan adi xəbəri qəbul etməklə, onun şəxsiyyətlərin halı barədə mülahizələrini qəbul etmək arasında fərq mövcuddur. Guya birinci halda sənin ondan xəbəri qəbul etməyin vacibdir, çünki o, yalançı deyil. İkinci halda isə, onun rəyini qəbul etmək sənə vacib deyil, çünki bu, onun ictihadıdır və o, öz ictihadında yanıla bilər. Əksinə, naməlum və etibarsız rəvayətçilərin xəbərini dəqiqləşdirdiyin kimi, bu xəbəri də dəqiqləşdirməyin lazımdır”*[1].

Əslində isə, Hələbinin bu qaydanı bu cür şərh etməsi təhrif olunmuş məşhur *“dəqiqləşdirməyin vacibliyi”* (təsəbbut) mumeyyi prinsipinə əməl etməkdən başqa bir şey deyildir. Bu qayda haqqında biz mumeyyilər barədə ikinci hissədə bəhs etmişdik.

“Sərhədlərin silinməsi” (mumeyyilik) ideologiyasının bir çox tərəfdarları, alimlərin müxtəlif azmış şəxsiyyətlər barədə çəkindirmələrini inkar etmək üçün *“dəqiqləşdirməyin vacibliyi”* (təsəbbut) prinsipi barədə danışmağı sevirlər. Onlardan hər biri bu prinsipi elə

[1] Əl-Bərahin əl-‘Ətidə Fi Kəşfi Əhvəl və Təsılət Əli əl-Hələbi əl-Cədidə”, səh. 170

bir bidətçi dona salaraq təqdim edirlər ki, heç kim onları müxtəlif azmış şəxsiyyətləri müdafiə və tövsiyyə etməkdən əl çəkməklə ilzam edə bilməsin.

Şeyx Rabi (Allah onu qorusun) Məribinin bu prinsipə əməl etməsi barədə deyib:

> *“Əbul-Həsən (Məribi) “dəqiqləşdirməyin vacibliyi” (təsəbbut) bəhanəsi ilə haqqı inkar edərək Arurun və digər azmış şəxsiyyətlərin mənhəcinin ardınca gedir. Odur ki, o deyir: “Çəkindirilən insanın sözlərini öz qulaqlarımla eşitməsəm və ya onun sözlərini öz gözlərimlə oxumasam, heç kimin haqqında çəkindirməni qəbul etmirəm”.*[1]

Eynilə Hələbi də müxtəlif azmış şəxsiyyətlərin halı barədə alimlərin fikirlərini rədd etmək üçün bu bidəti uydurub.

Hələbi deyir:

> *“Bunda etibarlı insandan alınan adi xəbərlə, onun şəxsiyyətlərin halı barədə mülahizələri arasında fərq qoymağın mühümlüyünə işarə var. Bu fərqi qoymayan böyük bir xətaya yol verir! Axı məgər etibarlı insanın “filankəs mövcuddur” deməsi ilə onun bu mövcud olanın bidətçi olmasını deməsi eynidirmi?!”*[2]

Həmçinin o deyir:

> *“Sünnə sahibini bidətdə ittiham etmək və ya bidətçini sələfi elan etmək üçün “Etibarlı insandan xəbəri qəbul etmək vacibdir” qaydasını tətbiq etməyə gəldikdə isə, İslam tarixində belə hal məlum deyil! Bu məsələdə bu gün çox-çox böyük qarışıqlıq mövcuddur və çox təəssüflər olsun ki, mən kiminsə buna diqqət yetirdiyini görməmişəm!”*[3]

**Hələbinin yuxarıda qeyd olunan şübhələrinə və iddialarına alimlər bir neçə cavab veriblər:**

---

[1] “Məcmu’ Kutub və Rəsail və Fətəva əş-Şeyx Rabi”, 13/78-79
[2] “Mənhəc əs-Sələf əs-Salih”, 2-ci nəşr, səh. 230
[3] “Əl-Bərahin əl-‘Ətidə Fi Kəşfi Əhvəl və Təsılət Əli əl-Hələbi əl-Cədidə”, səh. 171

**Birincisi,** Hələbinin sünnünü bidətdə ittiham etmək və ya bidətçini sələfi elan etmək üçün *"Etibarlı insandan xəbəri qəbul etmək vacibdir"* qaydasının tətbiq olunmasının İslam tarixinə məlum olmaması barədə iddiaları əsassızdır. Axı tarix, tərcümeyi-hal və "cərh və tədil" elminə dair kitablar, etibarlı şəxslərin "cərh və tədil" elminin alimlərinə "filankəs filan şeyi dedi" və ya "filankəs bəhmənkəslə oturub-durur" və ya "filankəs bəhmənkəslə razılaşdı" kimi məlumatlar verdiyi ilə bağlı faktlarla doludur. Daha sonra, alimlər bu rəvayətçilərdən alınmış xəbərlər əsasında bu şəxsiyyətlər haqqında hökm verir və deyirdilər: "O, cəhmidir, qədəridir və ya bidətçidir".

Bundan əlavə, hədis elminə dair yazılmış kitablar alimlərin müxtəlif şəxsiyyətlər barədə mülahizələri və onları bidətdə ittiham etmələri ilə bağlı faktlarla doludur. Məgər bu bizim etibarlı insandan xəbər qəbul edəcəyimiz anlamına gəlmir?![1].

**İkincisi**, əgər biz Hələbinin bu qaydaya təfsiri ilə razılaşsaq da, yenə də bu qayda onun alimlərin müxtəlif azmış şəxsiyyətlərdən bir çox çəkindirmələrindən imtina etməsi üçün dəlil deyil. Axı alimlərin bugünkü çəkindirmələrinin əksəriyyəti sadəcə etibarlı insandan alınan xəbər deyil. Bu çəkindirmələr çox elmi rəddiyyələrdir. Bu rəddiyyələrdə müxtəlif azmış şəxsiyyətlərin kitablarından və audiodərslərindən onların sitatları və mülahizələri gətirilir. Bu sitat və mülahizələrdə onların zəlalətləri və sələf mənhəcinə müxalifliyi açıq-aydın göstərilib.

Bütün bunlara baxmayaraq, bu zəlalətləri görən və bilən Hələbi şeyx Rabinin və digər sələfi alimlərin çəkindirmələri ilə razılaşmır və əsassız olaraq iddia edir ki, bu çəkindirmələr dedi-qoduya əsaslanır[2].

**Üçüncüsü**, etibarlı alimdən xəbəri qəbul etməklə onun müxtəlif şəxsiyyətlərin, hədis rəvayətçilərinin və bidətçilərin halı ilə bağlı mülahizələrini qəbul etmək arasında fərq qoymaq dəlilsiz yenilikdir.

---

[1] Əl-Bərahin əl-'Ətidə Fi Kəşfi Əhvəl və Təsılət Əli əl-Hələbi əl-Cədidə", səh. 171-172
[2] Əl-Bərahin əl-'Ətidə Fi Kəşfi Əhvəl və Təsılət Əli əl-Hələbi əl-Cədidə", səh. 173

Axı tarix, tərcümeyi-hal və hədis elminə dair kitablar alimlərin müxtəlif şəxsiyyətlər haqqında mülahizələri ilə doludur. Beləcə, onlar zəif və etibarsız rəvayətçilər haqqında deyirlər: hafizəsi zəifdir, yalançıdır, bidətçidir, xəvaricdir, mötəzilidir, qədəridir, cəhmidir, azmış şeyxdir və sairə.

Buna baxmayaraq, Hələbiyə qədər alimlərdən heç biri bu hökmlər haqqında bildirməyib ki, etibarlı alimdən adi xəbəri qəbul etməyin vacibliyi ilə, onun şəxsiyyətlərin halı barədə mülahizələrini qəbul etmək arasında fərq mövcuddur və bu mülahizələri qəbul da, rədd də etmək olar.

Bu səbəbdən, əsil odur ki, etibarlı alimlərin ötürdükləri məlumatlarla müxtəlif şəxsiyyətlərin halı barədə mülahizələri arasında fərq qoymadan onların bütün dedikləri qəbul edilməlidir[1].

Alləmə Sənani (Allah ona rəhmət etsin) deyib:

> “*Əgər etibarlı bir insan digər bir nəfərdən xəbər nəql edərsə, bu cür xəbəri də qəbul etmək lazım olduğu kimi, digər insanın səciyyəvi xüsusiyyətləri barədə xəbər nəql edərsə – məsələn onun adil və ya fasiq olduğunu xəbər verərsə, bu xəbəri də qəbul etmək lazımdır. Axı bütün bu hallar ədalətli insandan xəbəri qəbul etməkdir və bu, təqlid sayılmır. Əksinə, onun nəql etdiyi xəbər qəbul olunur, çünki buna (Quran və Sünnədən) dəlillər işarə edir*”[2].

Sənaninin bu sözləri açıq-aydın göstərir ki, Hələbinin iddia etdiyi kimi, etibarlı insandan xəbər qəbul etməklə onun şəxsiyyətlərin halı barədə mülahizələrini qəbul etmək arasında fərq yoxdur.[3]

Həmçinin Sənaninin bu sözlərinə diqqət yetirin:

> “*Axı bütün bu hallar ədalətli insanın xəbərinin qəbul edilməsidir ki, bu da təqlid sayılmır*”.

---

[1] Əl-Bərahin əl-‘Ətidə Fi Kəşfi Əhvəl və Təsılət Əli əl-Hələbi əl-Cədidə”, səh. 173-174
[2] “Təudıx əl-Əfkar”: 2/118-119
[3] “Əl-Bərahin əl-‘Ətidə Fi Kəşfi Əhvəl və Təsılət Əli əl-Hələbi əl-Cədidə”, səh. 175

Bu sözlərdə sələfilər mötəbər alimlərin müxtəlif azmış şəxsiyyətlər barədə sözlərini qəbul etdikdə onları təqliddə ittiham edən Hələbi və onun tərəfdarlarına açıq-aydın təkzib var.

**Sənaninin yuxarıda qeyd olunmuş sözlərini Hələbinin bu sözləri ilə müqayisə edin:**

> *“Bu gün “etibarlı insandan xəbəri (qəbul etmək lazımdır)” termini, əvvəllər mövcud olan “etibarlı insandan xəbəri (qəbul etmək lazımdır)” termininin eynisi deyil. Bu gün, təəssüflər olsun ki, “etibarlı insandan xəbəri (qəbul etmək lazımdır)” termini elə həmin təqlidin başqa bir təzahürüdür”*[1].

Şeyx Rabidən (Allah onu qorusun) soruşublar:

Sual verən:

> *“Etibarlı insandan xəbəri qəbul etmək barədə sələflərin mənhəci nədir?”*

Şeyx Rabi:

> *“Sələflərin, Quran və Sünnənin mənhəci etibarlı insanın xəbərinin qəbul edilməsinin vacibliyini və şəri hökmlərin o xəbər üzərində qurulmasını göstərir.Əgər iki insan hər hansı şəxsin qətl törətdiyinə dair şahidlik gətirsə, şəri hakim şəri qanuna müvafiq olaraq hökm verməlidir – yəni, qatillə bağlı qisas hüququ verməlidir. Həmçinin nikah da iki etibarlı şəxsin şahidliyi ilə qanuni olur. Ticari sövdələşmələr, borclar və digər əməliyyatlar iki etibarlı kişinin və ya bir kişinin və iki qadının şahidliyi ilə qüvvəyə minir. Odur ki, onlar (mumeyyilər) yalnız şəri əsasları dağıdır və öz azmış fikirlərini Quran və Sünnədən dəlillərə qarşı qoyurlar. Rəvayətçilərin çoxsaylı olması şərtini qoyanlar mötəzililər idi. Əhli-Sünnəyə gəldikdə isə, bu, onların rəyi deyil”*[2] .

Həmçinin şeyx Rabidən (Allah onu qorusun) soruşublar:

> *“Etibarlı birindən həm ümumi, həm də onun şəxsiyyətlərin halı barədə mülahizələrini qəbul etmək vacibdirmi, yoxsa yalnız ümumi xəbərin qəbul edilməsi vacibdir?”*

Şeyx Rabi:

---

[1] “Əl-Bərahin əl-‘Ətidə Fi Kəşfi Əhvəl və Təsılət Əli əl-Hələbi əl-Cədidə”, səh. 171
[2] “Rəddu Şubuhat əl-Məi’iin Və əz-Zəbbu ‘Ən əs-Sələfiyin”, 2-ci sual.

*“Əsil odur ki, etibarlı insanın gətirdiyi xəbəri qəbul etmək vacibdir. İstisna hal, şəzz hədislərin halında olduğu kimi, bu xəbərin digər adil rəvayətçilərin xəbərinə zidd olduğu haldır* [1]*. Əsil isə odur ki (etibarlı insandan) bütün xəbərlər qəbul olunmalıdır. Müsəlmanı yalanda ittiham etmək və ondan haqqı qəbul etməmək icazəli deyil. Əgər biz bu mənhəci tərk etsək, o zaman İslamın bir çox ibadət ayinlərini ləğv etməyə məcbur qalarıq. Əgər mənim müəllimim olan və mənə Quranı və Sünnəni öyrədən insan mənə desə ki: “Allahın Elçisi Səhih Buxaridə filan şeyi deyib”, məgər mən bunu yalan sayacam?! Əlbəttə ki, yox. O mənə “filan insan bidətçidir” dedikdə isə, o zaman (onların mənhəcinə müvafiq olaraq) mən ona deyəcəm: “Yox, elə deyil?!”*

*“Onların “təsəbbut” adlandırdığı bu qayda uydurma qaydadır. “Dəqiqləşdirməyin vacibliyi” prinsipi altında onlar həqiqəti öyrənmək və onun həqiqliyinə əmin olmaq istəmir, əksinə bu qayda ilə həqiqəti inkar etmək istəyirlər. Odur ki, biz onların dəqiqləşdirməyin vacibliyi bəhanəsi ilə möhtərəm alimlərin (müxtəlif şəxsiyyətlərin) halları barədə çoxsaylı ifadələrini rədd etdiklərini görürük. Beləliklə, bu bəhanə zahirən islami görünsə də, əslində dağıdıcı və şeytanidir”.*[2]

Bəzi istisna hallara gəldikdə isə, xəbəri gətirən öz unutqanlığı, həddiaşmağı və ya digər səbəblərdən dolayı xətaya yol verdikdə, bu nadir hallar onların gətirdiyi xəbərlər ilə, onların şəxslərin halı barədə dedikləri mülahizələri arasında fərq qoymaq üçün dəlil ola bilməz. Axı məlumdur ki, bir çox qaydaların öz istisnaları mövcuddur.

Bundan əlavə, bu istisna hallar həmçinin insanın halı haqqında xəbərin yox, adi xəbərlərin ötürülməsi zamanı da baş verə bilər. Məgər bu o deməkdirmi ki, bu səbəbdən biz *“etibarlı insandan xəbəri qəbul etmək vacibdir”* qaydasının özünü ləğv etməli və şübhə altına salmalıyıq?!

Nəticə olaraq, *“etibarlı insandan xəbəri qəbul etmək vacibdir”* məsələsində sələfi mənhəcini bəyan etmək üçün imam Əhməd və Davud əz-Zahiri ilə bağlı bir əhvalatı

[1] Hədis **şəzz** (müstəsna, nadir) – bu, əslində səhihlik baxımından məqbul, lakin, mənaca digər daha səhih hədisə zidd olan hədisdir. Bu səbəbdən “hədis şəzz” zəif hədislərin növlərindən biridir.
[2] “Raddu Şubuhat əl-Məi’iin və əz-Zəbbbu ‘Ən əs-Sələfiyin”, 6-cı sual.

təqdim edirik. Bu rəvayəti şeyx Rabi (Allah onu qorusun) Məribiyə rədd etmək üçün nəql edib.

Davud ibn Əli əz-Zahiri məşhur, mömin, təvazökar bir alim və çox ibadət edən bir zahid idi. Həmçinin fiqhdə məşhur zahiri məzhəbinin banisi hesab olunan əz-Zahiri bidət əhlinə öz güclü rəddiyyələri ilə məşhur idi. Lakin, Davud Quranı məxluq hesab edərək bu məsələdə özü bidətə düşmüşdür. Bu səbəbdən bir çox alimlər onu bidətdə ittiham edib və ondan çəkindirməyə başladılar.[1]

İmam əz-Zəhəbi nəql edib:

> *"İsfahanlı Davud Bağdada gəlib çatdıqda, yaxşı münasibətlərdə olduğu Saleh ibn Əhməddən (imam Əhmədin oğlu – tərc.) atası ilə görüş təşkil etməsini xahiş edir. Salih öz atasının yanına gələrək deyir: "Səninlə görüşmək istəyən bir nəfər var".*
>
> *Əhməd cavab verir: "Onun adı nədir?"*
>
> *Saleh: Davud.*
>
> *Əhməd: Haralıdır?*
>
> *Saleh: İsfahanlı.*
>
> *Əhməd: Nə işlə məşğuldur?*
>
> *Saleh suallara elə cavab verir ki, atası kimdən söhət getdiyini anlamasın. Lakin Əhməd onun kim olduğunu anlayana qədər suallar verməyə davam edir. Daha sonra o deyir: "Mənə onun barəsində Nesəburlu Muhamməd ibn Yəhya yazmışdı ki, o, (Davud) Quranı məxluq hesab edir. Odur ki, qoy mənə yaxın belə gəlməsin.*
>
> *Saleh deyir: Ay ata, o bunu inkar edir və deyir ki, belə şey deməyib.*

[1] İmam əz-Zəhəbi deyib: "O, (Davud) deyib: "Lövhi-məhfuzdakı Quran məxluq deyil. Bu gün insanlar arasında olan Quran isə, o, məxluqdur". Mən (əz-Zəhəbi) deyirəm – mənə məlum olduğu qədərilə, bu cür bölünməni ona qədər heç kim etməyib".
Həmçinin o, deyib: "Davuda gəldikdə isə, o, deyirdi ki, Quran yenidir (məxluqdur). Bu səbəbdən bir çox imamlar ona rəddiyyə vermiş və onu bidətdə ittiham etmişlər" ("Siyər Ə'ləm ən-Nübələ" 10/272)

*Bunun cavabında Əhməd deyir: Mənim üçün Muhammməd ibn Yəhya ondan daha doğru danışandır. Ona mənimlə görüşməyə izn vermə!"*[1]

**Yuxarıda qeyd olunan əhvalatda baş verənlər barəsində düşündükdə, Hələbiyə və onun tərəfdarlarına aşağıdakı suallar meydana çıxır:**

- Davuda onun elmi və natiqliyi kömək oldumu?!
- O, bidətçilərə güclü rəddiyyə verdiyi, mömin, təvazökar alim və çox ibadət edən zahid olduğu üçün İmam Əhməd (Allah ona rəhmət etsin) onun barəsində susdumu?!
- İmam Əhməd Davudun onun ünvanına deyilənləri inkar etməsini qəbul etdimi və imam Əhməd bu səbəbdən etibarlı insanın xəbərini rədd etdimi?!
- İmam Əhməd Salehin Davudun kimliyini gizlətmək cəhdinə uydumu, yoxsa gözüaçıqlıq və ayıq-sayıqlıq göstərdi?!
- İmam Əhməd Muhammməd ibn Yəhya Nesəburidən aldığı xəbərlə və onun şəxsiyyətin halı ilə bağlı mülahizəsi ilə kifayətləndi, yoxsa onu yoxladı və dəqiqləşdirdi!?

Hələbi, Məribi və onların tərəfdarları Əhli Sünnə vəl-Cəmaə imamının bu qızıl qaydasından necə də uzaqdırlar[2] .

---

[1] "Siyər Ə'ləm ən-Nübələ" 13/99
[2] "Əl-Bərahin əl-'Ətidə Fi Kəşfi Əhvəl və Təsılət Əli əl-Hələbi əl-Cədidə", səh 181

# Nəticə

Cari fəsildə müəllif yalnız Hələbinin sərhədlərin silinməsi (mumeyyilik) idealogiyasını yaymaq, xəvariclər və digər bidətçilər sırasından azmış şəxsləri müdafiə etmək üçün tətbiq etdiyi əsas qayda və prinsiplərə toxunmağa çalışdı. Bununla bərabər, Hələbi əqidə məsələlərində bəzi digər zəlalətlərə də yol vermişdir. Bunlardan ən təhlükəlisi onun dinlər və təriqətlərin birliyinə çağırışları müdafiə etməsi və onların ünvanına təriflər yağdırmasıdır. Lakin bu fəsildə yalnız Hələbinin təbliğ etdiyi mumeyyi qayda və prinsiplərinin şərhi, onların batilliyinin isbatı, həmçinin materialın böyüklüyünü və mürəkkəbliyini nəzərə alaraq, onun bu və digər zəlalətlərindən bəhs etməmək qərara alındı.

Beləliklə, Uca Allahın köməkliyi ilə biz bu və bundan öncəki iki fəsillərində sərhədlərin silinməsi (mumeyyilik) ideologiyasının əsas qayda və prinsiplərini, bu ideologiyanın sələfilərin sıralarında tarixini və təkamülünü şərh etməyə nail olduq. Bu fəsillərin əsas məramı isə, sələfilərin bu bidətə düşməməsi və müxtəlif azmış şəxsiyyətlərin müdafiəsinə qalxmaması məqsədilə onları sərhədlərin silinməsi ideologiyasının təhlükəli və şərli qayda və əsaslarından qorumaq idi. Uca və Qüdrətli Allahdan bu əməyi qəbul etməsini və onu İslam dini və müsəlmanlar üçün faydalı etməsini diləyirəm!

Allahın salavat və salamı olsun Peyğəmbərimiz Muhammədin, onun əhli-beytinin və bütün səhabələrinin üzərinə olsun!